AZƏRBAYCAN
RESPUBLÍKASI

SƏNƏT-MƏRASÍM NƏĞMƏLƏRÍ

NAXÇIVAN - 2010

AZƏRBAYCAN RESPUBLİKASI

ŞƏNLİK-MƏRASİM NƏĞMƏLƏRİ

NAXÇIVAN -2010

Elmi redaktorlar: AMEA-nın həqiqi üzvləri
İsa Həbibbəyli, İsmayıl Hacıyev

Tərtib edən və ön sözün müəllifi: AMEA-nın müxbir
üzvü Əbülfəz Quliyev

Rəyçi: AMEA-nın müxbir üzvü
Hacı Qadir Qədirzadə

Şənlik-mərasim nəğmələri. Naxçıvan, "Əcəmi", 2010, 192 səh.

4700000000
053-2010

© "Əcəmi" 2010.

TƏRTİBÇİDƏN

Müstəqillik illərində dövlətimizin iqtisadi-siyasi gücü artdıqca milli-mənəvi dəyərlərimizin qorunub inkişaf etdirilməsinə yaradılan imkan və münbit şəraitin qanunauyğun nəticəsi kimi görülən işlərin milli-tarixi əhəmiyyəti misilsizdir. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Əgər bizim millətimizin keçmişini, tarixini, mədəniyyətini, onun mənliyini bizim alimlərimiz, ziyalılarımız tədqiq etməsələr, xalqımıza, dünyaya göstərməsələr, sübut etməsələr, bəs bunu kim edəcəkdir?"

Dahi rəhbərimizin milli cəfakeşliyə səfərbər edən bu sözləri bütün ziyalıları bu sahədə coşqun fəaliyyətə yönəltdi.

Məlumdur ki, xalqımızın mədəniyyəti tarixində zəngin folklor inciləri, şifahi ədəbiyyat xəzinəsi mənəvi dəyərlərimizin əsas qaynaqlarından birini təşkil edir. Bu istiqamətdə ulu öndərimiz Heydər Əliyevin hələ 2001-ci ildə xalq yaradıcılığının qorunub inkişaf etdirilməsi haqqında imzaladığı sərəncam tədqiqatların sürətlənməsinə, unudulmaqda olan milli-mənəvi dəyərlərin bərpa edilməsinə, qorunaraq gələcək nəslə çatdırılması işinin təşkilinə ciddi təsir göstərdi. Nəticədə akademiya sistemində xalq yaradıcılığı və folklorla məşğul olan ayrıca Folklor institutu yaradıldı. Milli adət-ənənələrimiz, milli musiqimiz dövlət qayğısı ilə hərtərəfli şəkildə əhatə olundu. Bu istiqamətdə aparılan məqsədyönlü işlərin uğurlu göstəricilərindən biri kimi Azərbaycanın təklifi ilə yaxın zamanda qədim mərasimlərimizdən olan Novruz bayramının YUNESKO-nun mədəni irs siyahısına salınması və 21 mart tarixinin bayram kimi qeyd olunmasının BMT səviyyəsində qərb və şərq ölkələrinə tövsiyyə edilməsini xüsusilə qeyd edə bilərik.

Ən qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda qısa müddətdə görülən işlər bütün türk xalqları arasında geniş əks-səda doğurmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında

Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu ilin 7 fevral tarixli sərəncamı muxtar respublikamızın mədəni həyatında böyük hadisə oldu. Bu sərəncamda xalq yaradıcılığı nümunələrinin öyrənilməsi və toplanılması, hər il Novruz bayramı şənliklərində onların ictimaiyyət qarşısında nümayiş etdirilməsi aid təşkilatlar qarşısında bir vəzifə olaraq qoyulmuşdur. Bu mühüm dövlət sənədinin icra mexanizmi müəyyənləşdirilmiş və Tədbirlər Planı təsdiq olunmuşdur. Böyük milli əhəmiyyətə malik olan sərəncam əsasında hazırlanmış Tədbirlər Planında şifahi xalq yaradıcılığı nümunələrinin geniş şəkildə toplanıb tədqiq olunması, Folklor Atlasının hazırlanması Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə həvalə edilmişdir. Eyni zamanda bu sənəddə xalqımızın qədim mərasimlərindən olan toy şənliklərində oxunan xalq yaradıcılığı nümunələrinin (bayatı, haxışta, halay, nanay, gülümhey və s.) toplanıb ayrıca kitab şəklində çap edilməsi də öz əksini tapmışdır. Bizim "Azerbaycan düğün türküleri" kitabımız 2008-ci ilin sonlarında qardaş Türkiyə respublikasında nəşr olunmuş və türk xalqlarının marağına səbəb olmuşdu. Türkiyədə nəşr olunan bu kitabın Ali Məclisimizin hörmətli Sədri cənab Vasif Talıbov tərəfindən təqdir edilib dəyərləndirilməsi milli-mənəvi sahədə görülən işlərə dövlət səviyyəsində göstərilən qayğının bariz təzahürüdür. Bu kitabın nəşrinə dəstəyini əsirgəməyən, elmin,təhsilin,mədəniyyətin inkişafına daim qayğı göstərən muxtar respublika Ali Məclisinin Sədrinə AMEA Naxçıvan Bölməsi kollektivinin dərin minnətdarlığını bildiririk.

Onu da qeyd edək ki, toy şənliklərində ifa olunan xalq yaradıcılığı nümunələrinin toplanıb tərtib edilməsində bir sıra tədqiqat materiallarından, etnoqraf Beytulla Şahsoylu və folklorçu Əhliman Axundovun əsərlərindən də istifadə olunmuşdur.

GÜL BAĞÇADAN GƏLƏN SƏS

(Ön söz yerinə)

Bu nəğmələrin böyük qismində sirli-sehirli, nağıllı-nəğməli "gül bağçalardan" söz açılır və o "gül bağçaların" ab-havasını, ətrini gətirən bu kitabın əvvəlcə Ankarada, Türkiyə türkcəsində çap olunması da yəqin bir tale işi idi.

Həm konkret problematikası, həm də Türkiyə türkcəsində nəşri "Azerbaycan düğün türküleri (Toy nəğmələri)" kitabının türk xalqları arasında geniş rezonans yaratmaq imkanlarını elə bu başdan müəyyən eləmişdi. Həmin nəşrə "Ön söz"ündəki bir fikrində Nail Tan, şəksiz-şübhəsiz, haqlı idi: "Azərbaycan toy nəğmələri müxtəlif nəşrlərə mövzu olmuş, ancaq geniş miqyaslı bir kitabda toplanmamışdır. Bu çatışmazlığı görən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru professor Əbülfəz Aman oğlu Quliyev əlimizdəki kitabı hazırladı. Öncəliklə, Türkiyədə yayımlanmasını arzu etdi".

Zaman-zaman oxunan, nəşr edilən məşhur toy nəğmələri ilə yeni toplanmış nümunələrin də geniş miqyaslı bir kitabda toplanması niyyəti Azərbaycan MEA-nın müxbir üzvü Əbülfəz Aman oğlu Quliyevin milli ziyalılıq borcuna qeydsiz-şərtsiz münasibətinin göstəricisidir.

Həmin nəşrə vətəndaşlıq yanğısı ilə yazdığı "Azerbaycan düğün türküleri üzerine genel bilgi"də müəllif niyyətinin ab-havasını türk ellərinin sevgisi müəyyənləşdirir: "Müxtəlif bölgələrdə, yerlərdə adətlər başqa-başqadır. Hər bir yerin özünəməxsus toy adətləri vardır. Bu adətlərin böyük əksəriyyəti bir-birinə bənzəsə də, onlar arasında fərqlər də çoxdur".

Ankara nəşri öz şərəfli taleyini yaşamağa başladığı gündən sübut elədi ki, bu kitab Doğudan Batıya uca türk ellərinə məxsus toy adətlərinin bir-birinə bənzəməsi və qəlbindəki ilahi sevgi ilə onları yaradan bir millətin bənzərsiz taleyi haqqındadır.

Bu kitabda adətlərdəki fərqliliklər də açıq-aydın görünməkdədir-bu fərqliliklər də ilahi bir biçimdə-seçimdədir. Bütün bunların müxtəlif türk xalqları arasında dolğun araşdırılmasına geniş meydan açması, şəksiz ki, "Azerbaycan düğün türküleri" kitabının əsl qiymətini, arealını və əhəmiyyətini şərtləndirirdi.

Eyni niyyətli nəşrlərdən bir çox cəhətləri ilə fərqlənən kitaba Nail Tan belə bir yöndən də yanaşırdı: "Kitabı incələyənlər görəcəklər ki, Azərbaycanda da toy adət və mərasimləri bizə çox bənzəməkdədir. Sadəcə, adlandırmada kiçik fərqlər vardır. Söylənən türkü, oynanan oyun, verilən yemək və içməklərdə yenə bəzi fərqliliklər vardır ki, bu da təbiidir. Azərbaycan, önəmli ölçüdə adət-ənənələrini qoruyarkən, Türkiyə gələn köçlər və Avropanın təsiri ilə qədim toy mərasim və adətlərindən olduqca uzaqlaşmışdır. Yenə də qız bəyənmə, qız istəmə, nişan, xına və gəlin köçürmə mərhələləri hər iki mədəniyyət çevrəsində də az-çox bənzər adətlərlə tətbiq olunmaqdadır".

Etnik yaxınlığın bəxş etdiyi düşüncə eyniliyi, Batıdan Doğuya ümumtürk əhvalı, deyim, duyum tərzi toy mərasimindən "dünyaya göz açan" nəğmələrin canında, qanındadır.

Orası da var ki, "Qubanın ağ alması" İqdırda "Iğdırın ak alması" adı ilə oxunur. Bilirik ki, "Şirvanın yolları" nəğməsi Türkiyədə "Iğdırın yolları daşdı" kimi qeydə alınıb. Hər iki variant quruluşca eynidir (üç bənd, hər bənd beş misra, hər misra səkkiz heca); İqdır variantında birinci bəndlə üçüncü bəndin yerləri dəyişdirilib, "ay balam" əlavə sözü işlədilib. Bizdə barəsində söz açılan yar "ala gözlü" kimi, İqdırda "qara gözlü" (bir yerdə ala gözlü) kimi nəğmə "qeydiyyatına" düşüb. Bizdə yarı görməməyin müddəti bir ay, İqdır variantında üç aydır.

"Azerbaycan düğün türküleri" kitabının türk xalqlarına məxsus "toy nəğmələrinin" müxtəlif yönlərdən müqayisəli araşdırılmasına güclü təkan verəcəyi şübhəsizdir.

Öz türklüyünü ilahi bir tale bilənlər öz sevgi qismətlərini də ilahi bir tale payı kimi qarşılayırlar. Bəlkə buna görə də burada hər nə varsa, gözə ali bir ucalıqda görünür; burada sevinc də, kədər də müqəddəsdir.

Oğlan evinə gətirilən gəlinə xoşgəldinin də eyni cür edilməsi tamamilə təbiidir:

İqdırda:
Gelin deyir, hanı anam,
Su yüzünde kaldı sonam.
Güllü hanım senin anan,
Gelin, hoş geldin, hoş geldin,
Gelin hanım, sen hoş geldin.

Azərbaycanda:
Gəlin deyər: "Hanı anam?"
Yaxılmamış qalıb xınam.
Qaynanandı sənin anan,
Gəlin, xoş gəldin, xoş gəldin!

"Biz apardıq huri-pəri" adlı nəğmənin variantlarında yazdan, gələn ördək-qazdan, tor quran torçulardan,... tərlanların az gəlməyindən söz açılır; bütün variantlarda da "bu yaz başqa yazdır", tor quran torçular da adi dünyanın ovçuları deyil, az gələn tərlanlar da adi dünyadan yox, mənəvi yaddaşın ən kövrək yerindən "gəldiklərindən" məhz "belə tərlan"dırlar.

Azərbaycanda:
Biz apardıq huri-pəri, yar, yar
Sizə qaldı dərdi-səri, yar, hey...
Ördək gedər, qaz gələr.
Torçular torun qurar,
Belə tərlan az gələr.

Türkiyədə:
Kıştan çıktık, yaz geler,
Ördek geder, kaz geler.
Torçular torun atar,
Böyle terlan az geler.
Biz apardık huri peri, yar-yar,
Size kaldı derdi seri, yar-yar.

Hər iki nümunədə motivlənmə oxşar nizamdadır:

-Sözlər "oğlan adamının" dilindən "qız adamına" söylənilir;

-Bu toyla "tərlanla" "torçunun" ömürlərinin yazı-yeni günü başlayır;

-"Ovlanan tərlan" huri-pəri olduğundan məhz elə (başqaları kimi) yox, belə (tayı -bərabəri tapılmayan) tərlandır;

-Huri-pərini, "belə tərlanı" apardığından "oğlan adamı" sevincək-sevincək "sizə qaldı dərdi-səri"-deyə "qız adamının" "qəlbinin ən incə tellərinə toxunmağı"da unutmur.

"Məişət (həyatın keçid dönəmləri: doğum, sünnət, toy, ölüm və s.) mərasimi (töreni) türkülərinin böyük əksəriyyəti toy türkülərindən ibarətdir. Toy çox qədimlərdən başlayaraq ən şən, şux yapılan məişət mərasimidir. Toy mərasimi, başdan-ayağa qədər türkülərlə yaşanır"-Əbülfəz Amanoğlu (Quliyev) kitabın birinci bölməsində belə yazır, Azərbaycanda bu mərasimin ümumi mənzərəsini və elmi şərhini verir.

İnanışlarımıza görə, İlaxır gecəsi suda balıqlar arxası üstə dönər. İlaxırda bəzi bölgələrdə qız evinə aparılan "xonçada balıq mütləq olmalıdır."

Kitabdakı haxıştalarda inamların, sınamaların reallaşması həm mövzu, həm də folklor janrlarının qarşılıqlı əlaqəsi baxımından maraq doğurur:

Çıxdım aya baxmağa, haxışta,
Qapıya qıfıl taxmağa, haxışta,
Yarım xına göndərib, haxışta,
Mən əlimə yaxmağa, haxışta.

Mətn üç mərhələni (bəxtini axtaran qız aya baxır; qulaq falına çıxan qız taleyinin necə olacağından xəbər tutur; toy günü qız evinə xına göndərilir) əhatə edir.

Əbülfəz Quliyev yazır: "Əski inanclara görə gəlinin səadəti xına gecəsindən başlar. Xına yaxanlar təmiz qəlbli olmalı, təmiz duyğularla yaşamalıdır. Həmzatlı (uşağı olmayan) qadınların, al, cin vuranların xına gecəsinə gəlməsi uyğun görül-

məz". Bu sözlər "Dədə Qorqud" dastanını yada salır və çox qədim inanışlardan soraq verir: "Oğlu-qızı olmayanı Allah - Taala qarğayıbdır. Biz dəxi qarğarız, bəlli bilin, -demişdi".

Deməli, oğlu-qızı olmayan kişiləri ağ otağa, qızıl otağa, qadınları "xına gecəsinə" buraxmamağın səbəbi var: onları Allah- Taala qarğayıb.

Bu nəğmələrin nüvəsində ilkin təsəvvürlər qorunub saxlanmış və onlar mif strukturu üzərində pöhrələnmişdir.

Ciddi araşdırmalara çox etibarlı qaynaq olacaq "Azerbaycan düğün türküleri" kitabının azacıq dəyişikliklə Azərbaycan türkcəsində nəşri də bir çox yönlərdən maraq doğuracaq. Kitabda nəğmələr aşağıdakı kimi təsnif edilmişdir:

-Toy öncəsi eşq, həsrət, qız bəyənmə ilə bağlı;
-Nişantaxdı ilə bağlı;
-Xınayaxma ilə bağlı;
-Gəlinaparma ilə bağlı;
-Toyda səslənən bayatı və haxıştalar.

Bədii söz nəğmələrdə tamam fərqli tale yaşayır; struktur-semantik baxımdan özəlliklər də, deyəsən, bu talenin buyruğu ilə aranıb-yaranıb. Elə biləsən, alın yazısının kəlmələridir-lirizmin "qələmindən çıxıb"; ömür kitabının cümlələridir-epizmin "dilindən qopub". Xalq epizminin və lirizminin "qonşuluq münasibətlərinin yaxınlığı və möhkəmliyi" bu janrda daha qabarıqdır. Burada "nəğmə metaforizmi" ifadəsi bir muxtariyyət qazanır, epitet və təşbehlər də başqa cür funksionallaşır. Zaman-zaman xalq nəğmələrinə sırf "şifahi ədəbiyyat" kimi yanaşılması, ancaq bədii mətnlər kimi öyrənilməsi onun bədii-poetik xüsusiyyətlərini aid olduğu janr sistemindən təcrid etmişdir. Elə bil unudulmuşdur ki, bir folklor janrı olaraq xalq nəğmələri musiqini, sözü, arxaik mərasimlərdən gələn ifaçılıq ritualını və s. əhatə edən bir janr bütövü-folklor sisteminin mətn vahididir. Semantik tutumu baxımından nəğmə "ədəbiyyat" olmaqdan iri hadisədir; nəğmə auditoriyasının daha genişliyi həm də hadisənin "iriliyi" ilə şərtlənir.

Nəğmələrdəki elementlər xüsusi semantika daşıyır, mühüm informatik funksiyaya malikdir.

"Samovar"-"stəkan", "lampa (çıraq)"-"şüşə", "çəpər", "bostan", "tağ" kimi "nəğmə dilinin əzbəri" olan sözlər bu mətnlərdə başqa bir biçimdə, başqa seçimdədir. Poetik ənənədə "gül" (qız), "bülbül" (oğlan) öz ilkin anlamından uzaqlaşdırılmış, poetik mənalandırma detalı kimi yeni funksiyada təqdim edilmişdir. Nəğmələrdə gülün başqa səciyyələri də reallaşır:

-Oğlanın gül kimi təqdimi (gül adaxlına qurban; ala papaq, gül oğlan və s.);

-Qızın özünü gül kimi təqdimi (qızılgülün dəstəsiyəm);

-Toyun gül kimi təqdimi (ay qardaşın gül toyuna; gül ağacı dibində gül toyun olsun, qardaş və s.);

-Geyimin gül kimi təqdimi (paltarın gül olsun, güldən geyin; gül donun olsun, qardaş; ver mənim güllü başmağım);

-Bağ-bağçanın gül kimi təqdimi (ay gül bağçadan yolum var; gül bağçanda barın ollam).

Gülün nəğmələrin "ürəyinin başında", "gözünün üstündə" yer almasının bir səbəbi də mətnlərin özündən üzə çıxır:

Oğlan anası güllü çarqat bağlar,
Qızın anası daldan baxar ağlar.

Deməli, gülü xoş günün, murada, kama yetməyin bəlgəsi kimi nəğmələrin "gözü görüb", "könlü sevib".

Başqa bir mətndə isə ayrılığın çəkilməz acısı, həsrətin sazağı yaylığın güllərini "soldurub", rəngini qaraldıb:

Qara yaylıq yaraşır
Yardan ayrı düşənə.

Nəğmələrdə gülün saç elementi ilə qoşa işlənməsi unudulmaz poetik mənzərələr yaradır (güllərin birin üzəydim, saçlarına düzəydim; qızılgülü düzdüm yarın saçına; saçlarına güldən cıqqa salmışam və s.). Bu elementlər "nəğmə sertifikatına" adi predmet kimi yazılsaydı, şəksiz, bu qədər effektiv hallarla qarşılaşmazdıq.

Saçın ucun hörməzlər,
Gülü sulu dərməzlər.

informasiyasındakı qoşalıq "gül-saç" münasibətlərinin ən "seysmik nöqtələrindən" biridir; yasaqlar şəklində fikrin reallaşması arxaik düşüncə, qədim etnoqrafik cizgilərlə bağlıdır. İnanclara görə xına gecəsi axşamdan yandırılan lampa söndürülməməlidir. Bəxt köynəyinin yaxası gəlinin başı üstündə açılmalıdır.

Tərtibçi qədim təsəvvürlərin mətnlərdə əksinin səciyyəvi cəhətlərindən bəhs edir, konkret nümunələrlə fikrini əsaslandırır.

Vaxtilə maraqlı bir məsələdən (kişi nəğmələri başqa, qadın nəğmələri tam başqa olur) danışan Hənəfi Zeynallı toy nəğmələrinə də bu müstəvidən yanaşmışdı. Bu mərasimlə bağlı rəngarəng formalar etnik özünümüdafiənin zəngin sistemində çox əhəmiyyətlidir-Əbülfəz Quliyevin hazırladığı, içinin istiliyinə, doğmalığına qəribsədiyimiz evin qapısı kimi açdığımız bu kitabda toplanmış nümunələr bu fikri bir daha təsdiq edir və bizə belə gəlir ki, bitkin-yetkin qənaətləri formalaşdırmaq nöqteyi-nəzərindən bu nəşrə qismən çap edilmiş nümunələrin salınması tamamilə təbii görünür.

Bu nümunələrdəki dünya bir başqa əhvaldadır: rəngləri, səsləri ilə, işığı, istiliyi ilə... axan suları, pıçıldayan çiçəkləri ilə...

Məhərrəm Cəfərli
filologiya elmləri doktoru, professor

Rafiq Babayev
filologiya elmləri namizədi, yazıçı

KİTABIN TÜRKİYƏ NƏŞRİNƏ
ÖN SÖZ

Həyatın keçid dönəmləri olan doğum, evlənmə və ölümlə əlaqədar adət-ənənə, inanc, xalq musiqi-oyunları, geyim-geçim və mətbəx mədəniyyəti folklorun ən zəngin hissəsini təşkil etməkdədir. Bu bölümdə; mifologiya, ədəbiyyat, sənət, din, mətbəx bir mədəni bütünlük içindədir. Özəlliklə toylar, başdan-başa bir ədəbiyyat, musiqi, oyun (rəqs), xalq teatrı mərasimi, bir geyim sərgisi və yemək-içmək ziyafətidir. Doğma Azərbaycanda toylar Türkiyədəki kimi çox zəngin bir xalq mədəniyyəti qalereyasıdır.

Azərbaycanda toylar daha həyəcanlı, coşqun olub, oyun, musiqi və yeməklərə böyük önəm verilən bir şəkildə düzənlənməkdə, yaşanmaqdadır. Toy məkanındakı hər kəs oyunlara qatılır, nəğmə söyləyə bilir. Qonaqlar, dərhal qruplara (dəstələrə) ayrılıb qarşı-qarşıya və birlikdə, xorla nəğmələri üsuluna uyğun oxuyurlar. Çox sayda aşıq və çalğıçılar vardır.

Azərbaycan toy nəğmələri çeşidli nəşrlərə mövzu olmuş, ancaq geniş miqyaslı bir kitabda toplanmamışdır. Bu çatışmazlığı hiss edən Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru prof. Əbülfəz Quliyev həmin kitabı hazırladı. Öncəliklə Türkiyədə nəşr olunmasını arzu etdi.

Kitabı araşdıranlar görəcəklər ki, Azərbaycanda da toy adətləri bizə çox bənzəməkdədir. Sadəcə, adlandırmada kiçik fərqlər vardır. Söylənən nəğmə, oynanan oyun, təqdim edilən yemək və içməklərdə yenə bəzi fərqliliklər vardır ki, bu da təbiidir. Azərbaycan, önəmli ölçüdə adət-ənənələrini qoruyarkən, Türkiyə gələn köçlər və Avropanın təsiri ilə qədim toy adət-ənənələrindən olduqca uzaqlaşmışdır. Yenə də; qız bəyənmə, qız istəmə, nişan, xına və gəlin aparma mərhələləri, hər iki mədəniyyət çevrəsində də az-çox bənzər adətlərlə tətbiq olunmaqdadır. Kitabda, ağırlıqlı olaraq nəğmə sözləri

təsnifat əsasında verilmişdir. Bu nəğmələrin bir çoxu Türkiyədə xalq müsiqisi səs sənətkarları tərəfindən ifa edilməkdə olub TRT türk xalq musiqisi repertuarına da daxil olmuşdur. İstərdik ki, nəğmələri notlarıyla birlikdə nəşr etdirək. Ancaq buna büdcəmiz və musiqi biliyimiz (Əbülfəz Quliyev daxil) yetməyəcəkdir. Bu səbəbdən kitabın sonunda macar musiqişünası Yanoş Sipoşun topladığı bəzi toy nəğmələrinin notlarını verməklə kifayətləndik.

Əsərdən Türkiyədəki elm adamları və musiqi ifaçılarının yararlanmasını təmin etmək məqsədi ilə nəğmə mətnlərindəki "x, q və ə" hərflərini "h, g, e" şəklində verdik. Bunun xaricində hər hansı bir dəyişiklik etmədən çap etdik.

Prof. Əbülfəz Quliyevin Türk xalq ədəbiyyatına, folklorçularına ərməğan etdiyi bu kitabın nəşrinə vəsilə olduğumuz üçün xoşbəxtik.

Kitabı çap edən Mədəniyyət Agentliyinin dəyərli rəhbərləri Xeyrəddin İvgin və Ərhan İvginə də təşəkkürü bir borç bilirəm.

Hər gününüz bir toy olsun!

Dr. Nail TAN
Mədəniyyət və Turizm Nazirliyi Xalq Mədəniyyətini inkişaf və araşdırma baş idarəsinin sabiq müdiri

AZƏRBAYCAN ŞƏNLİK-MƏRASİM NƏĞMƏLƏRİ HAQQINDA ÜMUMİ MƏLUMAT

TOY NƏĞMƏLƏRİ

Məişət mərasimi nəğmələrinin böyük əksəriyyətini toy nəğmələri təşkil edir. Bu şənlik çox qədim dövrlərdən başlayaraq ən şən, şux, gur keçirilən məişət mərasimi olmuşdur. Toy mərasimi başdan-ayağa qədər nəğmələrlə müşayiət olunur. Toyla bağlı nəğmələr qızı nişan verən nəğmələrdən başlayır. Belə ki, bu nəğmələrdə qızın gözəlliyi, əsli-nəsli, sədaqəti, evdarlığı, igidliyi tərənnüm edilir. Sonra qızgörmə və ya qızseçmə nəğmələri gəlir. Qızgörmə və ya qızseçmə xalq içərsində asudə vaxtlarda keçirilən oyunlar, yazın gəlişi ilə bağlı icra olunan mərasimlər, ayrı-ayrı toy şənliklərində keçirilən atçapma, qılınc oynatma, qurşaqtutma tamaşaları zamanı olmuşdur. Məlumdur ki, açıq havada keçirilən kəndirbaz və meydan tamaşalarına baxmaq üçün gələn qız-gəlinlər halay vurub bir tərəfdə dayanırdılar. Onlara baxmağa çıxan cavanlar gözaltı etdikləri qızları at çapmaları, qılınc oynatmaları və s. ilə özlərinə cəlb etməyə çalışırdılar. Deyilənə görə, bəyənilən qıza alma atılardı. Qızın almanı əyilib yerdən götürməsi razılıq əlaməti hesab olunardı. "Kitabi-Dədə Qorqud"un "Bamsı Beyrək" boyunda daha qədimlərdə xalq arasında yaşayan qızseçmə ənənəsi çox təsirli verilmişdir.

Məlumdur ki, toy müxtəlif mərhələlərə bölünür. Hər bir mərhələnin özünəməxsus tərifi, nəğməsi vardır ki, onlarda müxtəlif ayin, etiqad və görüşlər əks olunmuşdur.

Nişandan sonra qız və oğlan evində "toyqabağı mahnılar" oxunardı. Bu mahnılar içərisində "Yar-yar" nəğmələri xüsusilə seçilərdi:

Qızılgülün dəstəsiyəm, yar-yar,
Bacıların bəstəsiyəm, yar-yar,
Qonşu məni xəbər alsa, yar-yar,
Deyin yarın xəstəsiyəm, yar-yar.

X o r:
Anamın birincisiyəm, yar-yar,
İncilərin incisiyəm, yar-yar.
Qızılgülün qönçəsiyəm, yar-yar.

Kirpiyimdə yaş gilə,
Meh düşdü qızılgülə.
Ay yar, atı yəhərlə,
Dur gedək qaynımgilə.
X o r:
Bacıların bəstəsiyəm, yar-yar,
Qızılgülün dəstəsiyəm, yar-yar.

Oğlanla qızın nişanlı olduğu dövrdə oxunan mahnılarda onların mehribanlığı, bir-birinə etibarı, sədaqəti və s. tərənnüm edilir. Bu cəhətdən, "Ay gülüm, maşallah", "Ləli qurbanın olum", "Nar-nar". "Bala, yar mənəm, mən", "A gülüm nanay", "Asta çal sazandanı", "Örpəyi ala, yerişi sona" və s. nəğmələr diqqəti cəlb edir.

Nişanlanmış gənclərin toyu gecikəndə müxtəlif bayramlarda oğlan evi qız evinə gedər, bu münasibətlə müxtəlif bayram xonçaları bəzərdilər. Adətən, Novruzda bayram xonçaları aparılardı. "Bayram günləri oğlan tərəfi qızgilə getmək üçün xüsusi hazırlıq görür. Çərşənbə axşamı şələ və xonça tutub qıza bayrampayı göndərirlər. Xonçaya bir ailəyə kifayət edən düyü, bir cüt quş (çöl ördəyi, qaşqaldaq və s.) şirni, alma, fındıq qoyurlar. Novruz bayramı xonçaları daha təmtəraqlı olur. Bəy oğlanın adına hazırlanan xonçaya düyü, xurma, kişmiş, mərasim yeməkləri və qırmızı alma qoyulur. Bayram xonçası ilə birlikdə qız üçün bayram paltarı (qız ata evində onu geyə bilər), üzük, şirniyyat, ətir, ayaqqabı aparılır. Bayram vaxtı yaxın qohumlar da mərasimə uyğun xonça tuturlar. Xonçaların üstünü hökmən qırmızı kələğayı və şalla örtüb mahnı deyə-deyə qızgilə aparırlar".

Bayram xonçalarında hər bir rayonun özünəməxsus

regional şirniyyatı əks olunur. Məsələn, xonçaya düyü, quş əti - qaşqaldaq, ördək və s. qoymaq ənənəsi Lənkəran-Astara zonası üçün daha səciyyəvidir. Xonçaya quru və ya yaş balıq qoymaq isə dəniz və çay sahilləri ərazisində yaşayanlar üçün ənənəvi hallardan hesab edilmişdir. Hər bir rayonda milli mərasimlərdə şirniyyat və ümumiyyətlə, Şərq üçün ənənəvi olan şirniyyat, habelə püstə, badam, nabat və s. bayram xonçaları bəzədilərdi. Xonça apararkən oğlanın bacıları və yaxud bacısı yoxdursa, qohumları maraqlı nəğmələr zümzümə edər, bu nəğmələrdə ümumilikdə gəlinə xoşbəxtlik, bəxtəvərlik, mehribanlıq, oğlan və qız anası olması və s. kimi xoş arzular ifadə edərmişlər. Bu mahnıların bizə gəlib çatanları bayatı şəklindədir:

Kətan kətana qurban,
Kətan satana qurban.
Ləmdə yeri sərmişəm,
Yalqız yatana qurban.

Qardaş ovuna gedər,
Baxar boyuna gedər.
Bu bayramın xonçası,
Qardaş toyuna gedər.

Ağ alma, qızıl alma,
Xonçaya düzül, alma.
Bilsəydim yar göndərib,
Saxlardım yüz il alma.

Qardaş, adına qurban,
Alma dadına qurban.
Sənə yalqız demərəm,
Gül adaxlına qurban.

NİŞANTAXDI NƏĞMƏLƏRİ

Toyun həlledici mərhələlərindən biri nişantaxdıdır. Nişantaxdı qızla oğlanın adaxlandığını rəsmiləşdirən mərasimdir. Adətən bu mərhələdən sonra qıza elçi gəlməzlər. Hamı qızın toyunu gözlər. Nişantaxdı həftənin uğurlu günlərindəikinci və dördüncü günlərində olar. Oğlan evinin yaxın adamları kiçik hədiyyələrdən düzəldilmiş xonça tutar, xonçaya şal, bir paltar, üzük, şirniyyat və s. qoyarlar. Bir çox yerlərdə xonçaya qırmızı alma, güzgü də qoyarlar.

Qız evinin həyətinə daxil olanda nişan gətirən qadınlardan talecə yarımışı, ən uğurlusu deyərdi:

Xonçaya düzdük noğulu, badamı,
Mübarək olsun gəlinin qədəmi.

Ayrı-ayrı rayonlarda nişan axşamı oxunan nəğmələr müxtəlif olmuşdur. Bir sıra nəğmələrdə bəy, gəlin tərif olunmuş, qayınana, qayın, baldız, qayınata haqqında xoş sözlər deyilmişdir:

Əcəb şalım güllüdür,
Ortası bülbüllüdür.
Qardaş, adaxlın gördüm,
Əcəb şirin dillidir.

Şalı şala bağlar gedər,
Gülü şala bağlar gedər.
Oğlanın bacıları
Nişana bağlar gedər.

Dərmişəm şirin nar,
Şirin deyərlər yarı.
Hamıdan şirin olar
Kiçik qardaşın yarı.

Ay qız, nişanın gəlir,
Qırmızı şalın gəlir.
Dur yüyür eyvanına,
Baldızın, canın gəlir.

Nişantaxdıdan sonra toyun kiçik mərhələsi- qız və oğlan evində şənliklər başlanır. Qızgörmə, gələcək bəyi yoldaşları ilə qız evinə dəvət etmə və s. şənliklər keçirilir.

Toy başlandıqdan sonra üç gün-üç gecə, yaxud yeddi gün- yeddi gecə keçirilərdi. Nağıllarda tez-tez rast gəldiyimiz gırx gün, gırx gecə isə rəmzi xarakter daşıyır. Əgər bu bir tərəfdən 40 rəqəminin səadət rəmzi olması ilə əlaqədardırsa, digər tərəfdən, toydan sonra-gəlin gələndən 40 gün sonra bəy evində şənliyin davam etməsinə işarədir.

Toyun mühüm mərhələlərindən biri də paltaraparma və ya paltarkəsdidir. Adətən toyun ikinci günü günortaya yaxın oğlan evinin adamları qız üçün alınmış paltarı, bəzək şeylərini qız evinə aparır, burada qız evinin şənlikləri başlayır. Bəzən qız evinə kəsilmiş paltar aparıb tez tikər, bəzən də gəlinə hazır paltar geyindirər, bəyin və qızın yaxın adamları uğur arzulayan nəğmələr oxuyarlar.

Sonra toyun həlledici mərhələlərindən biri olan xınayaxdıya hazırlıq görülür. Bu hazırlığın ənənəvi cəhətlərindən biri də bəyin və gəlinin hamama getməsidir. Bəy və gəlinin toy hamamı barədə şifahi poeziyamızda çoxlu nəğmələr vardır:

Nazbalışı üzül qoy,
Üstə bir cüt qızıl qoy.
Yarım hamama gedir,
Hamam pulun hazır qoy.

Əlimdə yar əlidir,
Qolları düyməlidir.
Yarım hamamdan çıxıb,
Qoynuna girməlidir.

Xınayaxdı toyun ən cox nəğmə oxunan gecəsidir. Burada təkcə bəy və gəlin yox. onların yaxın adamları haqqında da

nəğmə oxunur. Qızın rəfiqələri gəlinin ətrafında dövrə vurub oxuyurlar:

I d ə s t ə:
Ay gecə uzun, ay batmaz,
Hörmət edərik sənə.

II d ə s t ə:
Hörmət edərik sənə
Ay nişanlı qızlar yatmaz.
Ay sən kimi bir gözəli
Ay tanrı bir də yaratmaz.
Hörmət edərik sənə...

B i r l i k d ə:
Ay bu evin qonaq qızı, hörmət edərik sənə,
Ay bu evin böyük qızı, xidmət edərik sənə,
Ay bu evin qonaq qızı, hədiyyə verrik sənə.

Ucadır boyun sənin,
Nə xoşdur toyun sənin.
Bir oğlana getmisən,
Camalda tayın sənin.

"Xınayaxdı gecəsinə çox zaman qadın xanəndə və çalğıçılar gətirilir. Xanəndə oxuyarkən qızlar rəqs edirlər. Rəqslər bəzən məzəli, əyləndirici tamaşa səciyyəsi daşıyır, özlərinə məxsus sözləri də olur. Xınayaxdı gecəsi qadınlar xırda tamaşalar da göstərirlər (Toy və halay mahnıları, s.61)".

Toyun yaddan çıxmaz gecələrindən olan xınayaxdıda nəğmələrin bir çoxu xorla oxunur, bəziləri halay nəğmələrinə bənzəyir. Gəlinin rəfiqələri və oğlanın bacıları dəstələrə ayrılıb xınayaxdı nəğmələrini oxuyurlar. Qədim təsəvvürlərə görə xına gecəsindən gəlinin səadəti başlayır. Adət-ənənəyə görə xına yaxanlar təmiz qəlbli olmalı, pak duyğularla yaşamalıdır. Həmzatlı qadınların, al, cin vuran

qızların xına gecəsinə gəlməsi məsləhət görülmür. Xına yaxılan evdə silah, patron olmamalı, axşamdan yandırılan lampa söndürülməməlidir. Xına nəğmələrinin bir çox nümunələri bizə gəlib çatmışdır:

I d ə s t ə:
Bu evlərin uzunu,
Əllərə xına yaxarlar.
II d ə s t ə:
Çoban qaytar quzunu,
Tellərə xına yaxarlar.

I d ə s t ə:
Gedin deyin əmimə,
Əllərə xına yaxarlar.
II d ə s t ə:
Versin mənə qızını,
Tellərə xına yaxarlar.

I d ə s t ə:
Çəkil burdan, sənə qurban,
Pəncərədən baxarlar.
X o r:
Gəlmişəm dərim səni,
Qəlbimə hörüm səni.
Qapı, pəncərə bağlı,
Bəs necə görüm səni.

"Xınanı yaxın dəstinə", "Xanım bacı qonaqdır", "Ay üzüldü, üzüldü", "Yar atın çapıb gələr" kimi xına gecəsində oxunan nəğmələr gəlinə, bəyə, xınayaxdı mərasimindəki cavan, subay qızlara səadət arzuları ilə bağlıdır.

Toyun yekun mərhələlərindən biri də gəlinaparmadır. Gəlinaparma hələ qədimdən türk xalqları içərisində çox dəb-

dəbəli keçirilmişdir. Gəlin arabaya minməzdən qabaq igidlər cıdıra çıxmış, qurşaq tutmuş, qılınc oynatmışlar. Bu mərhələdə nəğmələr gəlinin belinin bağlanmasından başlayır. Bəzi yerlərdə qayınata, bəzi yerlərdə qayın, əmi və digər yaxın adamlar gəlinin belini qurşaqla bağlar, başına gəlinlik duvağı atarlar. Bəzən də gəlin aparmağa gələnlər həyətə gələn kimi oxuyardılar:

Al almağa gəlmişəm,
Şal almağa gəlmişəm.
Oğlanın bacısıyam,
Aparmağa gəlmişəm.

Bu gün bağa gəlmişəm,
Qönçə gülü dərmişəm.
Sizdə bir qız görmüşəm,
Aparmağa gəlmişəm.

Bu gün bağa gəlmişəm,
Baxa-baxa gəlmişəm.
Ağa qardaş toyunda
Oynamağa gəlmişəm.

Bu vaxt gəlin bəzək otağında olur. Onu rəfiqələri, oğlanın bacıları və yengəsi bəzəyir. Qız gəlinlik paltarını - öz atasının aldığı qırmızı ya da al çitdən tikilmiş bəxt köynəyini geyir. "Bəxt köynəyinə yeddi cavan qız tikiş vurmalıdır. Köynəyin yaxasını kəsmirlər. Gəlini bəzəyərkən yaxın adamlardan bir qadın (xala, bibi) gəlinin başı üstündə bəxt köynəyinin yaxasını açır. Bəy, oğlan tərəfi həmin adama xələt verir".

Müxtəlif rayonlarda adətlər də başqa-başqadır. Hər bir rayonun özünəməxsus toy adətləri vardır. Bu adətlərin böyük əksəriyyəti bir-birinə bənzəsə də, onlar arasında fərqli cəhətlər də çoxdur.

Gəlini bəzəyərkən və belinə qurşaq, şal bağlayarkən oxunan nəğmələrlə yanaşı, gəlin bəy evinə getdikdən sonra onun

qayın, baldız, qayınana, qayınata ilə münasibətini əks etdirən nəğmələr də vardır. Ümumilikdə bu nəğmələr toy oxşamaları, gəlin və qayınana nəğmələri adı ilə şifahi poeziyamızda geniş yayılmışdır ("Toy və halay mahnıları" kitabından istifadə edilmişdir).

I BÖLMƏ

Toy öncəsi eşq, həsrət, qız bəyənmə nəğmələri

QAYNA, SAMOVARIM, QAYNA

Samovarım qızıldı,
Suyu yerə sızırdı.
Bütün aləm bilir ki,
Bir oğlan bir qızındı.
Qayna, samovarım, qayna,
Getdi ixtiyarım, qayna.

Samovarın altı yaşıl,
Başına çaynik yaraşır.
Çıxartma güllü paltarın,
Çıxartma, gözlər qamaşır.
Qayna, samovarım, qayna.
Getdi ixtiyarım, qayna.

ANA İLƏ QIZ

Qız:
Anda aman deyəllər,
İncə daban deyəllər.
Elə arıma gələr,
Yara çoban deyəllər.
Ana:
Andın amansız olmaz,
İncə dabansız olmaz.
Heç arına gəlməsin,
Qoyun çobansız olmaz.

YARA QURBAN

Qapıda əkdim gülbəsər,
Yar, ürəyim zağ-zağ əsər.
Bir kağız göndər müxtəsər,
Ay yar, öldüm ağlamaxdan,
Gün hesabın saxlamaxdan.

Qapıya əkdim məkə,
Ürəyim bağlayıb ləkə,
Sən gəlincə öldüm bəlkə
Ay yar, öldüm ağlamaxdan,
Gün hesabın saxlamaxdan.

Qapıya əkdim üzüm,
Yara qurban iki gözüm.
Yar gəlincə necə dözüm,
Aş gəlginən bu dağları,
Məyus qoyma mən ağları.

BU QIZI MƏN SEVMİŞDİM

Ayağında məxmər tuman,
ağzı naxışlı,
Bu qızı mən sevmişdim,
Kim götürüb qaçdı.

Barmağında qızıl üzük,
firuzə qaşlı,
Bu qızı mən sevmişdim,
Kim götürüb qaçdı.

GÜL DOLANDIRIM

Göydə gedən quşlar ağlı-qaralı,
Güllə dəyib, sol qolundan yaralı,
Sevən olsa sevdiyindən aralı,
Ölməsə də, heyva kimi saralı.

Sevgili oğlan,
Gəl sənə qurban,
Can sənə qurban.

Asta get, asta get,
Kəmər düşər belindən,
Baş açmadım bivəfa yar felindən.

Ayrı düşdüm elimdən, sevgilimdən.
İstəkli yar, başına gül dolandırım,
Nəlbəki-nəlbəki pul dolandırım.
Sən gül ol, mən başına dolanım,
İndən belə yoxdu mənim gümanım.
Otur dərdim deyim, oda yananım,
İstəkli yar, başına gül dolandırım,
Nəlbəki-nəlbəki pul dolandırım.

SƏMƏDİN QIZI

Axşam olar, gələr qoyun,
Dur ayağa görüm boyun.
Gəl, ay gözəl, naz eyləmə,
Səmədin qızı, naz eyləmə.

Axşam olar, fərik çıxar talvara,
Qayda budu, oğlan qıza yalvara.
Gəl, ay gözəl, naz eyləmə,
Səmədin qızı, naz eyləmə.

***

Görüm səni bəy durasan,
Xoşbəxt olub yarıyasan,
Körpə teli darıyasan.
Kaş toyunu görəydim,
Güldən çələng hörəydim.
Sənin o xoş günündə
Qol götürüb süzəydim.

Gözlədim yar yolunu,
Salsın boynuma qolunu.
Ona qurban demişəm,
Salsın bizdən yolunu.

ÇOXDAN GEDİBDİ

Yazıları yazan fələk,
Yazaydın əmimoğluna.
Gecə girəydim qoynuna,
Gündüz baxaydım boyuna,

Yazıları yazan fələk,
Yazıldı, poza bilmirəm.
Gedənim çoxdan gedibdi,
Ayrılıb, dözə bilmirəm.

BƏY DURAN OĞLAN

Girdim bəyin otağına,
Börkünü qoymuş yanına.
Qadam, qaynana, canına.

Bəy duran oğlan,
Sənə qurban olum.
Xan duran oğlan,
Sənə qurban olum.

Girdim bəyin otağına,
Pencəyin qoymuş yanına.
Qadam baldızın canına.

Bəy duran oğlan,
Sənə qurban olum.
Xan duran oğlan,
Sənə qurban olum.

NAR, NAR, NARGİLƏ

Narımı tökdüm tasa,
Yarım düşdü tas-vasa.
Dərdimi yara deyim,
Bəlkə yar qulaq asa.

Nəqarət
Nar, nar, nargilə
Gəlin gedək yargilə.

İynə sancdım divara,
Elçi göndərin yara.
Elçidən cavab gəlməz,
Özüm elçiyəm yara.
Nəqarət

YARIM GƏLƏNƏ

Mən gələndə şamamalar gül idi,
Cavan canım dost yolunda çürüdü.
Əvvəlindən ilqarımız düz idi,
Mən nə dedim, ilqarından dönən yar,
Özü sevib, sonnan peşman olan yar,

Uca dağ başında uca qələmə,
Biz ki, bənzəyirdik Əsli-Kərəmə.
Sözümü saxlaram yarım gələnə,
Mən nə dedim, ilqarından dönən yar,
Özü sevib, sonnan peşman olan yar.

Oğlan:

Mən çobanam qoynuna,
Babalın qoy boynuma,
Ya məni evləndir sən,
Ya da gəl al qoynuna.

Qız:

Çoban, itin qudursun,
Kür arxında su dursun
Əgər sənə yox desəm,
Mənim dilim qurusun.

Oğlan:

Əzizim su ləyəni,
Su töküb yu ləyəni,
Elə xoşuma gəlir
Gözəlin güləyəni.

Qız:

Əzizim su ləyəni,
Su töküb yu ləyəni,
Birdən bivəfa çıxdı,
Gözəlin güləyəni.

Oğlan:

Gedən yolun yolu olaydım,
Əkilmiş bağçanın gülü olaydım.
Bu gedən gözəlin, bala,
qulu olaydım.

Qız:

Gedən yoldan yol əskik deyil,
Əkilmiş bağçadan gül əskik deyil.
Mənim kimi gözəldən, bala,
qul əskik deyil.

AY QIZ, DUR GƏL

Damlarının dalı çuxur,
Ağacda bülbüllər oxur.
Mənim yarım bafta toxur,
Ay qız, dur gəl, sabah oldu,
Yandı bağrım, kabab oldu.

Damlarının dalı daşdı,
At yerimir, nalı boşdu.
Burdan uçan hansı quşdu,
Ay qız, dur gəl, sabah oldu,
Yandı bağrım, kabab oldu.

Damlarının dalı təpə,
Yağış gəlir səpə-səpə.
İstəklimi öpə-öpə.
Ay qız, dur gəl, sabah oldu,
Yandı bağrım, kabab oldu.

URMU QIZI

- Ay Urmu qızı,
- Can-can, əfəndi.
- Göstər gözünü,

Mən alım səni.
-Neynirsən gözüm?
Bir cüt piyala
Gördüyün kimi.

- Ay Urmu qızı,
- Can-can, əfəndi.
- Göstər üzünü,
Mən alım səni.

-Neynirsən üzüm?
Dağlarda lala
Gördüyün kimi.

- Ay Urmu qızı,
- Can-can, əfəndi.
Göstər dişini,
Mən alım səni.

- Neynirsən dişim?
Çərçidə mıncıq
Gördüyün kimi.

- Ay Urmu qızı,
- Can-can, əfəndi.
- Göstər dodağın,
Mən alım səni.

- Neynirsən dodaq?
Təknədə qaymaq
Gördüyün kimi.

-Ay Urmu qızı,
-Can-can, əfəndi.
- Göstər əlini,
Mən alım səni.

-Neynirsən əlim?
Xırmanda şana
Gördüyün kimi.

-Ay Urmu qızı,
-Can-can, əfəndi.
- Göstər sinəni,
Mən alım səni.

- Neynirsən sinəm?
Tağda şamama
Gördüyün kimi.

QIZ SEÇİLMƏSİ

Mən aşıq gözəl alma,
Tutubdu gözəl alma.
Əsil al, çirkin olsun,
Bədəsil gözəl alma.

Mən aşıq gözəl oxlar,
Tutubdu gözəl oxlar.
Çirkin oxlaya bilməz,
Oxlasa, gözəl oxlar!

DAD ƏLİNDƏN, YAR ƏLİNDƏN

Evlərinin yanın keçdim,
Əyildim suların içdim,
Mən bu yerə qərib düşdüm.
Dad əlindən, yar əlindən,
Ara vuranlar dilindən.

Əhdimə etdim vəfa,
Yolunda çəkdim cəfa.
İndi oldum bivəfa.
Dad əlindən, yar əlindən,
Ara vuranlar dilindən.

Əlimə qaval almışam,
Mehrimi yara salmışam.
Yarım gedib, tək qalmışam.
Dad əlindən, yar əlindən,
Ara vuranlar dilindən.

SARALDI YARPAQLARI

Çəpər çəkili qaldı,
Bostan əkili qaldı.
Sevdin, ala bilmədin
Başın sərkili qaldı.
Basma, basma tağları,
Saraldı yarpaqları.
Sarı qovun bişibdi.
Bişib, yerə düşübdü.
Çox da gözəl deyilsən
Gözüm sənə düşübdü.
Basma, basma tağları,
Saraldı yarpaqları.

Bostanda tağım ağlar,
Tağda yarpağım ağlar.
Sənsiz ötən hər günüm,
Hər xoşbəxt çağım ağlar.
Basma, basma tağları,
Saraldı yarpaqları.

HƏSİRİ BASMA, DOLAN GƏL

Yeri, yeri işinə,
Mən baxım yerişinə.
İpək olum dolanım
Kəmərin gümüşünə
Ay bənizi solan yar,
Həsiri basma, dolan gəl.

Eyvan dolu işıqdır,
Pəncərəm sarmaşıqdır.
Eldə nə çox gözəllər
Könül sənə aşiqdir.
Ay bənizi solan yar,
Həsiri basma, dolan gəl.

AL QIRMIZI NİMTƏNƏ

Yeri, yeri məstana,
Quşlar dolur bostana,
Qorxuram yağış yağa
Abı donum istana.
Al qırmızı nimtənə.

Bir don aldım miyana,
Al yaşıla boyana.
Mən qalmışam bu tayda
Yar gedibdir o yana.
Al qırmızı nimtənə.

Abıdan abı gərək,
Yar yarın babı gərək.
Göyçəkliyi, camalı,
Ağlı, kamalı gərək,
Al qırmızı nimtənə.

A QIZLAR, GÖZƏL SİZDƏDİR

Üzüyün qaşı gözəl,
Yaqutdur daşı gözəl.
Dəstənizin içində.
Bir halay başı gözəl.
Qızlar, gözəl sizdədir,
Sizdə deyil, bizdədir.

Araxçının zəri var.
Butası var, zəri var.
Xumar baxan gözlərin
Ulduza bənzəri var.
Qızlar, gözəl sizdədir,
Sizdə deyil, bizdədir.

Bu ellərin qızıyam,
Ayıyam, ulduzuyam.
Bütün aləm bilir ki,
Gözəllər ulduzuyam.
Qızlar, gözəl sizdədir,
Sizdə deyil, bizdədir.

Bizdə olan gözəllər,
Bağ -bağçanı bəzəllər.
Toy-düyündə, nişanda
Tovuz kimi süzəllər.
Qızlar, gözəl sizdədir,
Sizdə deyil, bizdədir.

CANI CANE, HEY CANE

Tut ağacı buruldu,
Dibində su duruldu.
Yarım evə gec gəldi
Mənim boynum buruldu.
Canı cane, hey cane,

Gecə -gündüz ağlaram,
Ürəyimi dağlaram.
Dünən gecə gəlmədin
Balışı qucaqlaram.
Canı cane, hey cane.

Yarın yara sovqatı
Bir dəstə bulaqotu.
Neylərəm bulaq otun,
Dur, yanımda gəl otu,
Canı cane, hey cane.

YAŞIL YARPAQ QIZILGÜL

Qızılgülü dərərəm,
Sinəm üstə sərərəm.
Sən yadıma düşəndə,
O gülü iyləyərəm.

Bağa girmiş olaydım.
Gülün dərmiş olaydım.
Burdan keçən oğlana,
Könül vermiş olaydım.

Açıl, açıl, qızılgül,
Dəstə -dəstə düzül, gül.
Yara sovqat göndərdim,
Yaşıl yarpaq qızılgül.

HA LEYLİ, LEYLİ, LEYLİ

Gedirsən çarx ilə gəl,
Çirmənib arx ilə gəl.
Əgər mənim yarımsan
Danışma, xalx ilə gəl.
Ha Leyli, Leyli, Leyli,
Gəl, şalı telli-telli.

Halay gedən qırx qızlar,
Könül sizi arzular.
Gəl bir qol-boyun olaq,
Qoy baxsın tamarzılar.
Ha Leyli, Leyli, Leyli,
Gəl, şalı telli-telli.

Evləri yol üstədir,
Tüfəngi qol üstədir.

İstəyirəm suya gedəm,
Sevgilim yol üstədir.
Ha Leyli, Leyli, Leyli,
Gəl, şalı telli-telli.

HA YORDU, YORDU, YORDU

Ağaç başı şingilə,
Şingiləni kim bilə.
On iki söz qoşaram,
Sənin kimi tər gülə.
Ha yordu, yordu, yordu,
Görək kim kimi yordu.
Ağaç başında haça,

Üstündə güllər açа.
Cərgənizə bir çomaq,
Gedərsiz qaça- qaça.
Ha yordu, yordu, yordu,
Görək kim kimi yordu.

KƏMƏR KƏSDİ BELİMİ

Mən aşıq tar çalana,
Tarı ver tar çalana,
Məni yardan edənin,
Ürəyi parçalana.
Kəmər kəsdi belimi,
Yar -yar.
Apardı yar əqlimi,
Yar-yar.

Dəsmalın gülü yansın,
Od düşsün, gülü yansın,
Məni yardan edənin
Ağzında dili yansın.
Kəmər kəsdi belimi,

Yar -yar.
Apardı yar əqlimi,
Yar -yar.

Gəlinə bax, gəlinə,
Kəmər taxmış belinə,
Gəlinin incə beli,
Düşdü namərd əlinə.
Kəmər kəsdi belimi,
Yar- yar,
Apardı yar əqlimi,
Yar -yar.

DUR, EYVANI GƏZ, XANIM

Bu dərə, dərin dərə,
Kölgəsi sərin dərə.
İstərəm bağça salam,
Yar gəlib gülün dərə.
Nanay, nanay, Nazxanım,
Dur, eyvanı gəz, xanım.

Növbaharam, gəzərəm,
Bağlara gül düzərəm.
Yar yanıma gələndə,
Sevincimdən süzərəm.
Nanay, nanay, Nazxanım.
Dur, eyvanı gəz, xanım.

Nanay, nanay, Nazxanım,
Dur, eyvanı gəz, xanım.
Əziz qonağın gəlir
Püstə xanım, Nazxanım,
Nanay, nanay, Nazxanım,
Dur, eyvanı gəz, xanım.

SƏNƏ QURBAN OLUM, YAR

Halaybaşılardan biri oxuyur:
Çəkin, halay düzülsün,
Xumar gözlər süzülsün.
Kim halaya girməsə,
Əli yardan üzülsün.

1. Dəstə:
Ay lo -lo-lo- lo
2. Dəstə:
Yar ləy-le

1. Dəstə:
Məktub yazıb yolladım,
2. Dəstə:
Ay lo-lo-lo-lo-lo
Yar ləy- le
Suya saldım yolladım,
Yar ləy-le
Ay özüm gələ bilmədim,
Ay salam-dua yolladım.

Ay dəstə çubuq dərərlər,
Ay yarpaq üstə sərərlər.
Ay xoş o qızın halına,
Ay istədiyinə verərlər.

Ay məktub yazdım qarasız,
Ay dərdə düşdüm çarasız.
Ay quşlar, mənim dilimdən
Ay yarıma yalvarasız.

Ay gül bağçadan yolum var,
Anam qoymur gəlim, yar.
Demə ki, bivəfasan,
Sənə qurban olum, yar.

YAR LƏLİ, YAR DÜYMƏLƏRİ MƏRCAN

I Dəstə:
Ya ləli, balaca püstə mənəm.
II Dəstə:
Ya ləli, yar düymələri mərcan.
I Dəstə:
Ya ləli, püstəni istəmənəm.

II Dəstə:
Ya ləli, yar düymələri mərcan.

II dəstə
Ya ləli, hər igid oğlana
II Dəstə:
Ya ləli, yar düymələri mərcan,
I Dəstə:
Ya ləli, özümü bəsləmərəm,
I Dəstə:
Ya ləli, yar düymələri mərcan.

İncidən üzülmüşəm, yar hey,
Mərcana düzülmüşəm, yar hey.
Ala papaq boz oğlan, yar hey,
Alnına yazılmışam, yar hey.

Narınca bax, narınca,
Saxladım saralınca.
Məndə ürək qalmadı,
Səndən bir söz alınca.

Tənək üstündə qora,
Yar gəlir salxım qıra.
Dedim, gülüb oynaram,
Bilmədim, düşdüm tora.

HALAYI DÖNDƏR BƏRİ

I Dəstə:
Ha ləli, yeri, yeri gəlirəm,
II Dəstə:
Ha ləli, halayı döndər bəri,
Ha ləli, qolları düymələrəm.
Ha ləli, aç qolları, mən girim,
Ha ləli, uzaq yerdən gəlirəm.

Yeri, yeri düşən yar,
Yeri, eşqə düşən yar.
Elçiləri küsübdür,
Özü elçi düşən yar.

İynə sançdım divara,
Elçi yolladım yara.
Elçi macal vermədi,
Özüm elçiyəm yara.

MƏLƏK, MƏLƏK, MƏLƏK HAY...

I Dəstə:
Burdan getdim obasına,
II Dəstə:
Mələk, mələk, mələk hay,
Sağı mələk, mələk hay.
I Dəstə:
Salam verdim babasına,
II dəstə

Aman, mələk, mələk hay,
Sağı mələk, mələk hay.

Kiçik qızın həvəsinə,
Sən də gəl bostana, Mələk.
Mələk,mələk, mələk hay,
Sağı mələk, mələk hay.
Bir evi var, bir eyvanı,
Uçubdur eyvanın yanı.
Əvvəlki vədələr hanı.
Mələk, mələk, mələk hay,
Sağı mələk, mələk hay.

GÖZƏL MƏLƏK, SÖYLƏ, KİMİN YARISAN

Evlərinə getdim, yedim badımcan,
Əllərim xınalı, qollarım mərcan.
Bir kağız yazaram, olar xatırcam
Gözəl mələk, söylə, kimin yarısan,
Kimin bağçasısan, kimin bağısan..

İki gəmi gəlir firəng elindən,
Yar sovqat gətirir firəng gülündən.
Sifariş gətirir yarın dilindən.
Gözəl mələk, söylə, kimin yarısan,
Kimin bağçasısan, kimin bağısan.

İki gəmi gəlir atıla, düşə,
Birində lampadır, birində şüşə,
Mən necə danışım yar başa düşə.
Gözəl mələk, söylə, kimin yarısan,
Kimin bağçasısan, kimin bağısan.

ARAZ GƏLİR, LİL GƏLİR

Araz gəlir, lil gəlir,
Dəstə-dəstə gül gəlir.
O gülün birin üzəydim,
Tellərinə düzəydim,
Qardaşımın toyunda
Oturub, durub süzəydim.

Saçlarım qatar -qatar,
Üstündə qardaş yatar.
Qardaşın əl yaylığı,
Ucları zər yaylığı.
Gecə-gündüz dilərəm
Qardaşa can sağlığı.

AĞACDA ALMA AL OLUR

Solo:
Ağacda alma al olur,
Birlikdə:
Bizə niyə gəlmirsən?
Solo
Yerə düşər xal -xal olur,
Birlikdə:
Bizə niyə gəlmirsən?
Solo:
Səni sevən bihal olur,
Birlikdə:
Bizə niyə gəlmirsən?
Solo:
Gündüzlər nənən qoymur,
Birlikdə:
Bizə niyə gəlmirsən?
Solo

Ağacda vurdum qəcələ,
Birlikdə:
Bizə niyə gəlmirsən?
Solo
Yerə düşəndə gicələ,
Birlikdə:
Bizə niyə gəlmirsən?
Solo
Oğlan gəlmir əcələ,
Birlikdə (hamı):
Hal halun olsun, qardaş,
Gül donun olsun, qardaş,
Gül ağacı dibində,
Gül toyun olsun, qardaş!

Araz qırağı çiçək,
Oraq gətir, gül biçək.
Qardaşa qız seçmişəm,
Alagöz, qarabirçək.
Birlikdə:
Hal halun olsun, qardaş,
Gül donun olsun, qardaş.
Gül ağacı dibində,
Gül toyun olsun, qardaş!

Ağ almanı dişlədim,
Dişlədim, gülüşlədim.
Qardaş gəldi qıymadım,
Yar gəldi bağışladım.
Birlikdə:
Hal halun olsun, qardaş,
Gül donun olsun, qardaş.
Gül ağacı dibində,
Gül toyun olsun, qardaş!

ANA- QIZ

Ana:
Getmə bulaq başına, qızım,
Çeşmi- çıraq başına, qızım!
Bir qara qaş-göz oğlan,
Dəsmalın alar, qaçar, qızım!
Qız :
Getdim bulaq başına, nənə,
Çeşmi- çıraq başına, nənə,
O qara qaş-göz oğlanın,
Qoy baxım göz- qaşına, nənə.
Ana:
Getmə bulaq başına, qızım,
Çeşmi- çıraq başına, qızım,
Dəsmal qaçıran oğlan,
Qaçırıb səni yaşınar, qızım!
Qız :
Getdim bulaq başına, nənə
Çeşmi- çıraq başına, nənə,
Qız öz istəklisindən
Necə qaçıb yaşına, nənə?

QIZ VƏ OĞLAN

Qız :
Döngəmizdə duran oğlan,
Bığlarını buran oğlan,
Mənə kirpik vuran oğlan,
Ver mənim güllü başmağım,
Dabanı pullu başmağım.

Oğlan:
Döngənizdə durmamışam,
Bığlarımı burmamışam,

Sənə kirpik vurmamışam,
Məndə yox güllü başmağın
Dabanı pullu başmağın.

Qız:
Gül bağçanda barın ollam,
Şirin heyvan, narın ollam,
Həmişəlik yarın ollam,
Gətir mənim gül başmağım,
İçi dolu pul başmağım.

Oğlan:
Gül bağçamda barım olsan,
Şirin heyvam, narım olsan,
Həmişəlik yarım olsan,
Verrəm sənin gül başmağın,
İçi dolu pul başmağın.

GƏLMƏDİN

Əmim oğlu, məndən heç utanmadın,
Üç ay keçdi, bir yaylağa gəlmədin.
Yüz min cəfa ilə köç elədim mən,
Ordan yendim Ağbulağa, gəlmədin.

Demədin dağdadır bir sərvinazım,
Bir bəyaz sinəlim, bir ağboğazım.
Bir şahin şonqarım, şahım, şahbazım,
Şikar üçün sən oylağa gəlmədin.

Mən səni istərdim hamıdan əziz,
Mən sənin yanında oldum bir kəniz.
Ətir can bəslədim güllərdən təmiz,
Namərd oğlu, kef-damağa gəlmədin.

Mən sənin dərdindən qalmışam həsrət,
Yarsız da yar məgər çəkərmi ləzzət?
Niyə belə etdin, ay gedə xilqət,
Şamama dərməyə tağa gəlmədin.

Mənim adım Həmayildi, Həmayil,
Sinəm bənzər həm ulduza, həm aya.
Verdin əməyimi axırda zaya,
Bağlandın arana, dağa gəlmədin.

SONALAR

Bugün ayın üçüdü,
Girmə, bostan içidi.
Dodaqların bal-şəkər,
Dilin badam içidi.

Birlikdə:
Sonalar, sonalar,
Göl üstünə qonalar.

Gələndə bizdən gələsən,
Şirin heyvanı dərəsən,
Sən mənə qurban olasan.

Birlikdə:
Sonalar, sonalar,
Göl üstünə qonalar.

Evlərə qatar məni,
Qul eylər satar məni.
Vəfalı yarım olsa,
Axtarar tapar məni.

Birlikdə:
Sonalar, sonalar, sonalar, sonalar,
Göl üstünə qonalar, sonalar, sonalar

Mənim yarım sarı laçın,
Fələk qoymur qəddim açım,
Qoy səni götürüm qaçım.

Birlikdə:
Sonalar, sonalar,
Göl üstünə qonalar.

Gələndə sizdən gəlmərəm,
Şirin heyvanı dərmərəm,
Mən sənə qurban olmaram.

Birlikdə:
Sonalar, sonalar,
Göl üstünə qonalar.

Sən mənim gözəl yarım.
Qızıldan, ya gümüşdən
Nişanı düzən yarım.
Bayramdı,bəzən yarım.
Birlikdə:
Sonalar, sonalar,
Göl üstünə qonalar.

AY LOLO

Ay Lolo, qızıl üzük firuzə,
Ay Lolo, gedin deyin xoruza,
Ay Lolo, bu gecə banlamasın,
Ay Lolo, yar gələcəkdir bizə.
Ay Lolo, yar düymələri mərcan.
Ay Lolo, bu dağda maralım var,
Ay Lolo, ovçuyam yaralım var.
Ay Lolo, nə gecə yuxum gəlir,

Ay Lolo, nə gündüz qəralım var.
Ay Lolo, yar düymələri mərcan.

Ay Lolo, yönümü dağa verrəm,
Ay Lolo, dağa qadağa verrəm.
Ay Lolo, əgər vüsala yetsəm,
Ay Lolo, canım sadağa verrəm.
Ay Lolo, yar düymələri mərcan.

ÜÇ GÜL

Yarın bağçasında üç gül açılıb:
Ağ gül, qırmızı gül, bir də sarı gül,
bir də sarı gül.
Hər birisi bir-birindən öyməli.

Nəqarət
Ay ala göz yarım,
Ahu - ceyranım.
Ağ gül, qırmızı gül, bir də sarı gül,
bir də sarı gül.

Ağca gülün qapısından baxmalı,
Qızılgülü dəstə tutub qoxmalı,
Sarı gülü tər buxağa taxmalı.
Nəqarət

Ağ gülü bənzətdim göydə laçına,
Qızılgülü düzdüm yarın saçına.
Hüseyn müştaqdır gülün üçünə.
Nəqarət

KEÇMƏ MƏNDƏN

Əzizim, keçmə məndən,
Çay məndən, çeşmə məndən.
İnanma yad sözünə,
Cavanam, keçmə məndən.

Əzizim, sini-sini,
Doldur ver sini-sini.
Mən sənə göz dikmişəm,
Neynirəm özgəsini?

Bağçamızın çiçəyi,
Məhləmizin göyçəyi,
Mən ki, səni sevirəm,
Budur sözün gerçəyi.

Əzizim, keçmə məndən,
Çay məndən, çeşmə məndən.
İnanma yad sözünə,
Cavanam, keçmə məndən.

GƏL BİZƏ, YAR

Ay dağlar, səndə gözüm var,
Ay dərdə məndə dözüm var.
Xəbər verin yar gəlsin,
Ay ürəyimdə sözüm var.
Nəqarət
Gəl bizə, gəl bizə, gəl bizə, yar,
Qurbanam o qaş-gözə, yar.

Ay mən aşiqəm, Gəncə var,
Ay Şəki, Şirvan, Gəncə var.
Sevən qəlbimdə sənə,

Ay məhəbbət ölüncə var.
Nəqarət

Ay mən aşiq, başa vursun,
Ay kirpiyin qaşa vursun.
Şərt könül vermək deyil,
Ay mərd odur, başa vursun.
Nəqarət

QADAN ALIM

Araz axır qıyqacı,
Ay qız, ay qız, ay qız, amandır.
Budur gəlir cüt bacı,
qadan alım.

Biri mənim öz yarım,
Ay qız, ay qız, ay qız, amandır.
Biri başımın tacı,
qadan alım.

Araz axır lil ilə,
Ay qız, ay qız, ay qız, amandır.
Dəstə-dəstə gül ilə,
qadan alım.

Sənlə peyman etmişik,
Ay qız, ay qız, ay qız, amandır.
Şirin-şirin dil ilə,
qadan alım.

Arazı ayırdılar,
Ay qız, ay qız, ay qız, amandır.
Su ilə doyurdular,
qadan alım.

Mən səndən ayrılmazdım,
Ay qız, ay qız, ay qız, amandır.
Zülm ilə ayırdılar,
qadan alım.

ÜÇ GÜNDƏN BİR, BEŞ GÜNDƏN BİR

Könlüm istər görəm yarı
Üç gündən bir, beş gündən bir.
Arzularam vəfadarı
Üç gündən bir, beş gündən bir.

Nəqarət
Gəl- gəl ay, gəl- gəl ay,
Gəl gözəl yarım.
Səndədir, səndədir
Hər ixtiyarım.
Verməræm, verməræm
Mən səni əldən,
Mən necə əl çəkim
Ey gözəl, səndən.
Qurbanam yarın adına,
Kim yetişsin fəryadıma?
Məni salarmı yadına
Üç gündən bir, beş gündən bir.
Nəqarət

Olmuşam aşiqi-dildar,
Yanıma gəlməz o nigar.
Gəlməsə qıllam ahu-zar
Üç gündən bir, beş gündən bir.
Nəqarət

ÜÇ TELLİ DURNA

Evlərinin dalı seyran,
Seyrangahda gəzir ceyran,
Hüsnün görən olur heyran
Üç telli, dörd telli, beş telli durna.

Nəqarət
Sən haralısan, haralı, durna?
Ovçu əlindən yaralı durna,
Sən getsən bağlar saralı, durna.
Yaralı, yaralı, yaralı durna.

Evlərinin dalı təpə,
Yağış gəlir səpə-səpə.
Oyadıram öpə-öpə,
Üç telli, dörd telli, beş telli durna.
Nəqarət
Evlərinin dalı qaya,
Qayadan baxarlar aya.
Göydə durna gəlməz saya,
Üç telli, dörd telli, beş telli durna.
Nəqarət

QARA TELLƏR

Qara tellər, qara tellər,
Şəvə kimi qara tellər.
Qıvrılanda qara tellər,
Yar könlümü qarət eylər.
Qara tellər, qara tellər,
Yar könlümü qarət eylər.

Mən aşiqəm, ay barama,
Qıvrım teli çox darama,

Sənin ki könlün məndədir,
Özgəsini gəl arama!
Qıvrım tellər, qara tellər
Yar könlümü qarət eylər.

Qara gözlər, qara gözlər,.
Qapqaradır qara gözlər,
Cilvələnib şux baxanda
Qara gözlər kimi gözlər?
Qara gözlər, qara gözlər,
Cilvələnib kimi gözlər?

QUBANIN AĞ ALMASI

Qubanın ağ alması,
Şirindir bağ alması.
Yarım gələnə qalıb,
Yaramın sağalması.

Nəqarət
Sevirəm
Səni mən, yar,
Sevirəm, yar,
Səni mən, yar, yar.
Aman, aman,
Sevirəm, yar,
Səni mən, yar,
Sevirəm yar, yar.

Qubadan alma aldım,
Yarıma yola saldım.
Gözlədim yar gəlmədi,
Heyva kimi saraldım.
Nəqarət

Qubanın alması var,
Armudu, alması var.
Yenə durub qəsdimə,
Əcəb can alması var!
Nəqarət

ALMA ALMAYA BƏNZƏR

Alma almaya bənzər,
Alma ağacı bəzər, bala,
Alma ağacı bəzər.
Bu yerlərin qızları
Ahu-ceyrana bənzər, bala,
Ahu-ceyrana bənzər.

Nəqarət
Sən mənim öz gülümsən,
Gülümsən, bülbülümsən.
Bir yandan yaxın qonşum, bala,
Bir yandan sevgilimsən.

Ağacda xəzələ bax,
Dibində gözələ bax, bala.
Dibində gözələ bax,
Öz yarın burda qoyub,
Sərgərdan gəzənə bax, bala,
Sərgərdan gəzənə bax.
Nəqarət

Kür qırağı sərindir,
Suya girmə, dərindir,
Suya girmə, dərindir.
Məni bu hala salan
Bir alagöz gəlindir, bala,
Bir alagöz gəlindir.
Nəqarət

ALMANI ATDIM XARALA

Almanı atdım xarala,
Qaldı sarala- sarala.
Dağlarda döndüm marala.

Nəqarət
A tirmə köynək,
A tirmə köynək, sarı çəpgən gəlin, haralısan?
Özü göyçək,sözü göyçək,hara maralısan?
Yarın bağında üzüm əsgəri,
Damın dalından həzin səs gəlir.
Sağ ol gəl,
Var ol gəl,
Sən bizə mehman ol, gəl.

Gəlin gedək bizim bağa,
Hərə çıxaq bir budağa.
Vuruldum o gül yanağa.
Nəqarət

GÜL AÇDI

Gül açdı, bahar oldu,
Yar məndən kənar oldu.
Yar məndən ayrılalı
Ürəyim qubar oldu.

Nəqarət
Belə naz ilə, naz ilə baxma,
Məni yandırıb, yaxma.

Gül açdı xəndan oldu,
Dərmədim dən-dən oldu.
Mən səndən ayrılmazdım,

Ayrılıq səndən oldu.
Nəqarət

Bu dağda maral gəzər,
Tellərin darar gəzər.
Mən yara neyləmişəm,
Yar məndən kənar gəzər.
Nəqarət

GƏL- GƏL

Yük üstə güllü xalça,
Kim qaldıra, kim açа?
O yara qurban olum
Dindirə, könül açа.

Nəqarət
Gəl- gəl, ey yanaqları gül,
Gəl-gəl, ey saçları sünbül.
Gəl- gəl, ey ahu balası,
Gəl- gəl, ey dağın lalası.

Qızılgül dəstə- dəstə,
Kim olar mən həvəsdə?
Eldən bir yar sevmişəm
Ala göz, boyu bəstə.
Nəqarət

Əlim qoydum əl üstə,
Mina gərdən, bel üstə,
Bugün yarım gələcək,
Gedim durum yol üstə.
Nəqarət

Aşiq oldum üzünə,

Heyranam qaş-gözünə.
Səndən başqa yarım yox,
Baxmam özgə sözünə.
Nəqarət

AY QIZ, KİMİN QIZISAN?

Ay qız, kimin qızısan?
Almadan qırmızısan.
Anan səni bəsləyib,
Baxtımın ulduzusan.

Nəqarət
Aç xurcunu,
Al bıçağı,
Kəs almanı, ver yara dilim- dilim,
Dilim- dilim, dilim- dilim.

Aşiqinəm əzəldən,
Yar yarın verməz əldən.
Dostum var, düşmənim var,
Salma məni nəzərdən.
Nəqarət

Həmyaşımsan, tayımsan,
Ulduzumsan, ayımsan.
Görənlər bir söz deməz,
Sən ki, mənim payımsan.
Nəqarət

AY QIZ,
SƏNƏ MAİLƏM

Ay qız, sənə mailəm,
Boynunda həmayiləm.
Dost payı şirin olar,
Hər nə versən qailəm.

Nəqarət
Qaşın, gözün,
Şirin sözün
Aldı mənim canımı.
Mən sənə qurban,
Mən sənə heyran.
Ay xanım, xanım,
Sən mənim canım,
Gəl səni alım,
Qurbanın olum, ay xanım.

Araxçının məndədir,
Axtarma, cibimdədir.
Dünya gözələ dönsə,
Mənim gözüm səndədir.
Nəqarət
Mən aşiq gündə dara,
Zülfünü gündə dara,
Səndən əlim üzmərəm,
Çəksələr, gündə dara.
Nəqarət

SƏN GƏL

Gözləyirəm ha, sən gəl,
Sevgi bağın gəzən, gəl.
Biz ki, ilqar etmişik,
Ya mən gəlim, ya sən gəl.
Könlüm arzular səni,
Ya mən gəlim, ya sən gəl.

Mən aşıq büz ilməni,
Yaxana düz ilməni.
Vəfalı yar yar olsa,
Gözləyər yüz il məni.
Vəfalı yar yar olsa,
Gözləyər yüz il məni.

Mən aşiq o gün eylər,
O günlər, o güneylər.
Yar-yara qovuşanda
Bayramın o gün eylər.
Yar-yara qovuşanda,
Bayramın hər gün eylər.

QARA XAL YAR

Araxçının məndədir, qara xal yar,
Sərmişəm çəməndədir, qara xal yar,
Aləm gözələ dönsə, qara xal yar,
Mənim gözüm səndədir, qara xal yar.

Nəqarət
Dan yeri ağaranda, ay qara xal yar,
Gözlə məni aranda, ay qara xal yar,

Dağ döşündə laləyəm, qara xal yar,
Əl vurma pərvanəyəm, qara xal yar,

Sən məndən ayrılandan, qara xal yar,
Dərdindən divanəyəm, qara xal yar.
Nəqarət

Araxçının haşını, qara xal yar,
Tökmə gözün yaşını, qara xal yar,
Keçib gəlləm dağları, qara xal yar,
Qayasını, daşını, qara xal yar.
Nəqarət

SUDAN GƏLƏN SÜRMƏLİ QIZ

Sudan gələn sürməli qız,
Çox incidir kuzə səni, bala,
Çox incidir kuzə səni,
Ay camalın şölə salır,

Nəqarət
Gəlməyəsən gözə səni, bala,
Gəlməyəsən gözə səni.

Kuzəni boynundan aşır,
Saçın dabana dolaşır, bala,
Saçın dabana dolaşır.
Nə geysən sənə yaraşır.
Nəqarət

Kuzə suyu şərbət olar,
Bulaq üstə söhbət olar, bala,
Bulaq üstə söhbət olar.
Mənsiz sənə zəhmət olar.
Nəqarət

BƏXTƏVƏR

Mən qurbanam ala gözün məstinə,
Xal düzülüb al yanağın üstünə.
Nəqarət
Bəxtəvər mən ollam.
Ay xanım, dur sallan, hey, hey, hey, hey, hey!

Tovuz kimi bəzək verdin özünə,
Xoş danışdın, mail oldum sözünə.
Bəxtəvər mən ollam.
Ay xanım, dur sallan, hey, hey, hey, hey, hey!

Nə müddətdir ki, mən görmürəm səni,
Başqa bir sevdaya salmısan məni.
Bəxtəvər mən ollam.
Ay xanım, dur sallan, hey, hey, hey, hey, hey!

Söhbətin məzəli, sözün şirindir,
Həsrətəm üzünə, gəl məni dindir.
Bəxtəvər mən ollam.
Ay xanım, dur sallan, hey, hey, hey, hey, hey!

BAĞÇADA GÜLLƏR

Ay dərya kənarında bir ev tikmişəm,
Ay hasarın çəkmişəm, üstün örtmüşəm,
Ay bu gələn gözələ gözüm dikmişəm.

Nəqarət
Bağçada güllər,
Oxur bülbüllər,
Belə deyirlər:
Yenə yar gəlir.

Ay əlinə al, çalıb dindir sazını,
Ay mən çəkərəm hər dəm sənin nazını,
Ay şəmsi-qəmər kimi göstər üzünü.
Nəqarət

Ay fikrü xəyalındır könlüm ziynəti,
Ay şirin sözlərindir ağzım ləzzəti,
Ay sənsən mənim ömrüm, günüm vəhdəti.
Nəqarət

BAĞÇADAN GƏLƏN

Bağçadan gələn nə səsdir, a balam?
Bülbülün yeri qəfəsdir, a balam,
Oynadıq, güldük, ta bəsdir, gülüm,
Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.

Nəqarət
Apararlar səni yar yanına, gül yanına,
Səni yanasan,ay qız,
Bircə dənəsən, ay qız.

Mailəm o qaş-gözünə, a balam,
Həm şirin-şirin sözünə, a balam,
Vermisən bəzək özünə, gülüm,
Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.
Nəqarət

Bağçadan gələn səs eylər, a balam,
Bülbül ötər, həvəs eylər,
Oynadıq, güldük, bəs eylər, gülüm,
Səni yanasan, ay qız,
Bircə dənəsən, ay qız.
Nəqarət

AY BÜLBÜLLƏR

Bu dağı bağ eylərəm, ay bülbüllər,
Yanın çardaq eylərəm, ay bülbüllər,
Eşitsəm sən gəlirsən, ay bülbüllər,
Yolunu çıraq eylərəm, ay bülbüllər.

Evlərində var kilim, ay bülbüllər,
Lal olsun mənim dilim, ay bülbüllər,
Gedəndə küsdü getdi, ay bülbüllər,
Gəlsə necə dindirim, ay bülbüllər?

Oba keçdi oymaqdan, ay bülbüllər,
Su yorulmaz axmaqdan, ay bülbüllər,
Yar yardan necə doysun, ay bülbüllər,
Pəncərədən baxmaqdan, ay bülbüllər!.

DAĞLARDAN AŞDIM

Dağlardan aşdım, düzə qoymadılar,
Bəzəndim, gəldim sizə qoymadılar.

Nəqarət
Ay yar, sənə mən aşiq,
Dildar, sənə mən aşiq.
Ay qız, ay qız, ay qız,
Özüm də sənə aşiq,
Gözüm də sənə aşiq.

Eşitmişəm təzə paltar almısan,
Saçlarına güldən cıqqa salmısan.
Nəqarət

Gəldim axşam üstü görəm yar, səni,
Ürəyim çırpınıb arzular səni.
Nəqarət

AY BƏRİ BAX

Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax.
Xumar gözdən yaş gəlir,
Ay bəri bax, bəri bax.
Səni mənə versələr,
Ay bəri bax, bəri bax.
Hər görənə xoş gələr,
Ay bəri bax, bəri bax.

Pəncərəni bağlama,
Ay bəri bax, bəri bax.
Mən gedirəm ağlama,
Ay bəri bax, bəri bax.

Gedib yenə gələrəm,
Ay bəri bax, bəri bax.
Özgəyə bel bağlama,
Ay bəri bax, bəri bax.

Pəncərənin milləri,
Ay bəri bax, bəri bax.
Açıb qızılgülləri,
Ay bəri bax, bəri bax.
Oğlanı yoldan eylər,
Ay bəri bax, bəri bax.
Qızın şirin dilləri,
Ay bəri bax, bəri bax.

YAR BİZƏ QONAQ GƏLƏCƏK

İstəkanlar irəfdədir,
Hər biri bir tərəfdədir.
Görməmişəm bir həftədir.

Nəqarət
Yar bizə qonaq gələcək, balam,
Bilmirəm nə vaxt gələcək, gülüm,
Bəlkə də sabah gələcək!

Tökdü zülfün hər bir yana,
Gözləri bənzər ceyrana,
Baxdım, qaldım yana-yana.
Nəqarət

Samovara od salmışam,
İstəkana qənd salmışam,
Yarım gedib tək qalmışam.
Nəqarət

OLMAZ

Səhralarda bağ olmaz,
Bir yaşıl budaq olmaz.
Yar yardan ayrı düşsə,
Ürəkdən uzaq olmaz.

Nəqarət
Olmaz, olmaz, olmaz,
Olmaz, olmaz, olmaz,
Olmaz, olmaz, olmaz yar.

Bir gül ilə yaz olmaz,

Yazın ömrü az olmaz.
Öldüm nazın çəkməkdən
Belə ərki-naz olmaz.
Nəqarət

Belə ağlamaq olmaz,
Sinə dağlamaq olmaz.
Eşqdə vəfasız yara
Könül bağlamaq olmaz.
Nəqarət

BÜLBÜLLƏR OXUR

Bülbüllər oxur,
Cəh-cəh vurur,
Bağda gül üstə,
Ay oğlan, boyu bəstə,
Gəl əyləş çəmən üstə,
Sən məndən könül istə
Mən deyim: "gözüm üstə".

Bəh-bəh, nə gözəl
Candır, əcəb sərvi-xuramandır,
Oğlan, getmə amandır,
Məni başına dolandır,
Üzün qoy üzüm üstə
Əcəb yaxşı zamandır.

Altında boz at,
Çiynində tüfəng,
Belində qatarı.
Ay oğlan, səni tarı,
Dolan gəl bizə sarı.
Gələrsən qadan allam,
Gedərsən yola sallam.

XUMAR OLDUM

Mən gəlmişəm sənə qonaq,
Ceyran, mənə bax, bax!
Maral, mənə bax, bax!
Bişir mənə bir qayqanax!
Ay qız, mənə bax, bax!
Gözəl, mənə bax, bax!

Nəqarət
Xumar oldum, xumar oldum,
Xumar oldum, xumar.
Kətan köynək, nazik bədən
Gördüm bihal oldum, bihal oldum,
Bihal oldum, bihal.

Getdim, gördüm bulaqdadır,
Ceyran, mənə bax, bax!
Maral, mənə bax, bax!
Ay qız, mənə bax, bax!
Əl-üzünü yumaqdadır.
Ay qız, mənə bax, bax!

Gözəl, mənə bax, bax!
Nəqarət

Getdim, gördüm bağda yatıb,
Ceyran, mənə bax, bax!
Maral, mənə bax, bax!
Qara tellər gülə batıb,
Ay qız, mənə bax, bax!
Gözəl, mənə bax, bax!
Nəqarət

SÜSƏN SÜNBÜL

Süsən sünbül, ay gülüm, bitirmişəm,
Mən yarımı, ay gülüm, itirmişəm.
Ay gülüm, itirmişəm.
Ömrü başa, a gülüm, yetirmişəm.
Aman Gülgəz, a balam, yarım hanı?
A gülüm, yarım hanı?

Nəqarət
Ağ üzdə xalın, ay gülüm,
O məh camalın, ay gülüm,
Yandırdı məni, ay gülüm,
Nədir xəyalın,
Ay gülüm, nədir xəyalın?

Yar əlindən badə içdim,
Mətləbimə, a balam, mən yetişdim,
Ay gülüm, mən yetişdim.
Kəcavəsin mən özüm bəzəmişdim.
Aman Gülgəz, a balam, yarım hanı?
A gülüm, yarım hanı?
Nəqarət

OYNA, GÜLÜM

Durna kimi süzmərəm,
oyna gülüm, oyna,
Yar dərdinə dözmərəm,
oyna, gülüm, oyna.
Məndən uzaq gəzsən də,
oyna, gülüm, oyna.
Əlimi səndən üzmərəm,
oyna, gülüm, oyna.

Nəqarət
Üzündə xalın, ay qız,
Xoşdur camalın, ay qız,
Öldürdü nazın məni,
Nədir xəyalın, ay qız?
Oyna gülüm, oyna,
Oyna, balam, oyna.

Yol gedən izə gəlməz,
oyna gülüm, oyna.
Ceyranın düzə gəlməz,
oyna, gülüm, oyna.
Gizlətmə ay üzünü,
oyna gülüm, oyna.
Qoy baxım, gözə gəlməz,
oyna, gülüm, oyna.
Nəqarət

AY QAŞI - GÖZÜ QARA QIZ

Bülbüllər gəzər bağı,
Yar gələr, süzər bağı.
Dodağı gül qönçəsi,
Açılsa bəzər bağı.

Nəqarət
Tellərini yan dara, qız,
Eylə dərdimə çara, qız,
Ay qaşı-gözü qara, qız,
Eylə dərdimə çara, qız.

Nəqarət
Mən aşiqəm xalına,
Üzdə qara xalına.
Lalə, bənövşə yetməz
Yarın gül camalına.

Bulud ötdü, ay hanı?
Qaşın kimi yay hanı?
Gəzdim eli, obanı,
Eldə sənə tay hanı?
Nəqarət

AY GÜLƏBƏTİN

Mən aşiq gözlərinə,
Sürmə çək gözlərinə,
Özüm özünə qurban, a ceyran,
Gözlərim gözlərinə.

Nəqarət
Dağlarda çiçək, ay Güləbətin,
Hamıdan göyçək, ay Güləbətin,
Doldur ver içək, ay Güləbətin, hey!..

Əzizim, od yandırmaz,
Yar, səni od yandırmaz,
Elə ki, sən yandırdın, a ceyran,
Heç vədə od yandırmaz.
Nəqarət

Papirosum yana-yana,
Od salır şirin cana,
Qoyub səni gedərəm, a ceyran,
Qalarsan yana-yana.
Nəqarət

BULAQDADIR

Getdim, gördüm bulaqdadır,
bulaqdadır, bulaqda.
Əl-üzünü yumaqdadır,

yumaqdadır, yumaqda.
Qoşa xallar yanaqdadır, yanaqda.
Qızıl üzük barmaqdadır, barmaqda.

Nəqarət
Bir belə can alan olmaz,
olmaz, olmaz,
Bir belə qan salan olmaz,
olmaz, olmaz,
Bulaqda üzünü yuyur,
Saçlarını hörüb durur,
Mənə baxıb özün öyür.

Nəqarət
Bu bulağın daşı qara,
Ürəyimin başı yara,
Ürəyimin başı yara.
Olmaz belə qaşı qara, gözü qara.
Olmaz belə saçı qara, gözü qara.
Nəqarət

MÜBARƏK, AY MÜBARƏK

Bu gecə ay doğacaq,
Mübarək, ay mübarək!
Cahıllar oynayacaq,
Mübarək, ay mübarək!
Bir yaman qaynanam var,
Mübarək,ay mübarək!
O məni qoymayacaq
Mübarək,ay mübarək!

Dolanar il yaz olar.
Mübarək, ay mübarək!
Gecələr ayaz olar.

Mübarək, ay mübarək!
Uzaqda qız sevənlər,
Mübarək, ay mübarək!
Həmişə nasaz olar.
Mübarək, ay mübarək!

Ay qız tələs yoluna,
Mübarək, ay mübarək!
Sığal ver öz telinə,
Mübarək, ay mübarək!
Dəstə səni gözləyir,
Mübarək, ay mübarək!
Tez ol, min at belinə.
Mübarək, ay mübarək!

Ay qız, dam üstə çıxma,
Mübarək, ay mübarək!
Özünü dama sıxma.
Mübarək, ay mübarək!
Mənə baxan gözünlə,
Mübarək, ay mübarək!
Öllәm, özgəyə baxma.
Mübarək, ay mübarək!

Ay qız, nənəni səslə,
Mübarək, ay mübarək!
Danışma özgə kəslə.
Mübarək, ay mübarək!
Sən mənim olacaqsan,
Mübarək, ay mübarək!
Böyüginən həvəslə.
Mübarək, ay mübarək!

Ay qız, mən baxa-baxa,
Mübarək, ay mübarək!

Su üçün getmə arxa.
Mübarək, ay mübarək!
Bizim görüşümüzdən,
Mübarək, ay mübarək!
Nə var, bilmirəm, xalxa.
Mübarək, ay mübarək!

AY DİLİ- DİLİ

Evlərinin dalı mərmər qayası,
Ay dili- dili, dili -dili dilavər,
Əcəb qoxur qızılgülün butası,
Ay dili -dili, dili- dili dilavər,
Mənim yarım ürkək ceyran balası.
Ay dili -dili, dili -dili dilavər,

Nəqarət
Ay dili- dili, ay dili- dili,
Ay dili-dili dilavər,
Ay dili- dili, dili- dili dilavər,

Evlərinin dalı qalın meşədir,
Ay dili -dili, dili -dili dilavər.
Bağçaları çiçəkdir, bənövşədir,
Ay dili dili, dili -dili dilavər.
A yar, səndə naz etmək nə peşədir
Ay dili -dili, dili -dili dilavər.
Nəqarət

Evlərinin dalı güldür, çiçəkdir,
Ay dili -dili, dili -dili dilavər.
Güllərin yarpağı ləçək-ləçəkdir,
Ay dili -dili, dili -dili dilavər.
Bu gün bağçamıza yar gələcəkdir.
Ay dili -dili, dili -dili dilavər.
Nəqarət

PƏRİ

Bulaq üstü toz olar,
Üstü dolu qız olar.
Əyil dəsmalın götür,
Mən götürsəm söz olar.

Nəqarət
Pəri, Pərican, ay Pəri,
Gözləri mərcan, ay Pəri,
Mən sənə qurban, ay Pəri.

Armud ağacı suda,
Yar gedib, mən tək burda.
Olaydım yar yanında,
Xumar gözlər yuxuda.
Nəqarət

Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.
Nəqarət

BU YANA DÖNDƏR MƏNİ

Su sərindir, keçilməz,
Bulanıqdır, içilməz.
Mənə deyən, yardan keç,
Yar şirindir, keçilməz.

Nəqarət
Yar, bu yana döndər məni,
Yar, o yana döndər məni.
Ürəyim yaralıdır,
Təbibə göndər məni.

Məni görüb, güldü yar,
Hər dərdimi bildi yar,
Açıb güllü dəsmalı,
Göz yaşımı sildi yar.
Nəqarət

Hər gözəldən yar olmaz,
Sevən ixtiyar olmaz.
Yarı zalım olana
Cavan ömrü yaz olmaz.
Nəqarət

KÜÇƏLƏRƏ SU SƏPMİŞƏM

Küçələrə su səpmişəm
Yar gələndə toz olmasın,
Elə gəlsin, elə getsin,
Aralıqda söz olmasın.

Samovara od salmışam,
İstəkana qənd salmışam,
Yarım gedib, tək qalmışam,
Nə əzizdir yarın canı!
Nə şirindir yarın canı!

Samovarı alışdırın,
Maşa verim, qarışdırın.
Yarım məndən küsüb gedib,
Onu mənlə barışdırın.

NOLEYDİ...

Mən aşiq oyanınca,
Mən yanım o yanınca...
Kəsim yastığın yanın, xanım,
Yalvarım oyanınca.

Nəqarət
Noleydi, yarım, noleydi,
Top qara birçək olaydım.
Hamıya çirkin olsam da, bala,
Yarıma göyçək olaydım.

Təbriz üstü Miyana,
Gül sünbülü dayana.
Oxu bülbülüm, oxu balam,
Bəlkə yarım oyana.

Nəqarət
Məni oyaq qoyan sən,
Al qumaşa boyan sən,
Öpüm qara gözündən, xanım,
Nəqarət

LƏBULƏB

Bu gecə....
Bu gecə aya baxıb, yar, səni yad eyləmişəm,
Ləbuləb, ləbuləb, ləbuləb.
Durmuşam....
Durmuşam, oturmuşam, özgə xəyal eyləmişəm,
Ləbuləb, ləbuləb, ləbuləb.
Ləbi şirin, ləbuləb.
Ləbi şəkər, ləbuləb.
Ay ləbi şirin, ləbuləb,

Ay ləbi şəkər, ləbuləb.
Nəqarət

Süzərəm qaş-gözümü,
Mən sənə naz eylərəm,
Ay canan,
Ay ceyran,
Ay yarım,
Ay gülüm.

Gəl mənə naz eyləmə bir bu qədər,
Ləbuləb, ləbuləb, ləbuləb.
Ləbi şirin, ləbuləb.
Ləbi şəkər, ləbuləb.
Ay ləbi şirin, ləbuləb,
Ay ləbi şəkər, ləbuləb.
Nəqarət

Sən mənim ....
Sən mənim eşqimi hər yanda bəyan eyləmisən,
Ləbuləb, ləbuləb, ləbuləb.
Bülbül tək....
Bülbül tək ətrimi gülşəndə fəğan eyləmisən,
Ləbuləb, ləbuləb, ləbuləb.
Ləbi şirin, ləbuləb.
Ləbi şəkər, ləbuləb.
Ay ləbi şirin, ləbuləb.
Ay ləbi şəkər ləbuləb.
Nəqarət

QARAGİLƏ

Gəlmişəm otağına oyadam səni,
Qaragilə, oyadam səni.
Nə gözəl xəlq eləyib yaradan səni,
Qaragilə, yaradan səni,
Götürüb, mən qaçaram aradan səni.
Qaragilə, aradan səni.

Nəqarət
Qızılgül əsdi,
Səbrimi kəsdi.
Sil gözün yaşın, Qaragilə,
Ağlama, bəsdi.

Şəhərin küçələri dolanbadolan,
Qaragilə, dolanbadolan.
Sən ki, məni sevmədin, get, ayrı dolan,
Qaragilə, get ayrı dolan,
Nə mənə qız qəhətdir, nə sənə oğlan,
Qaragilə, nə sənə oğlan.
Nəqarət

Ağac olaydım,
Yolda duraydım,
Sən gələn yola,Qaragilə,
Kölgə salaydım.

ƏMİM OĞLU

Gedin deyin xoruza,əmimoğlu.
Göydə aydır firuzə,əmimoğlu.
Bu gecə banlamasın əmimoğlu.
Qonaq gələcək bizə əmimoğlu.
Gedin deyin laçına, əmimoğlu.
Bəzək vursun saçına əmimoğlu
Üç il var nişanlıyıq, əmimoğlu
Bəs toy qaldı haçana, əmimoğlu.

Gedin deyin əmimə, əmimoğlu.
Qalsın dərdi-qəmimə əmimoğlu.
Nə vaxt yelkən çəkərsən, əmimoğlu.
Getmək üçün gəmimə, əmimoğlu.

Gedin deyin söyüdə, əmimoğlu.
Ehtiyac yox öyüdə, əmimoğlu.
Ehtiyac bir ondadır, əmimoğlu.
İkimizi böyüdə, əmimoğlu.

QARA QAŞIN VƏSMƏSİ

Qara qaşın vəsməsi
Yandırıb yaxır məni, ay aman,
Gün kimi şaxır məni.

Nəqarət
Görüm, səni yanasan, yanasan!
Yaxma qaşa vəsməni,
Qaşa yaxma vəsməni.

Qara gözün sürməsi
Yandırıb yaxır məni, ay aman,
Gün kimi şaxır məni.

Nəqarət
Gülüm, səni yanasan, yanasan!
Çəkmə gözə sürməni,
Gözə çəkmə sürməni.
Qara telin şanəsi
Yandırıb yaxır məni, ay aman,
Gün kimi şaxır məni.
Nəqarət
Yarım, səni yanasan, yanasan!
Vurma telə şanəni,
Telə vurma şanəni.

AY ÜZÜNDƏ XALIN

Ay üzündə xalın, a gülüm,
Lalədir yanağın.
Canım almaq istərdin,
Bəs nədir xəyalın?

Nəqarət
Sən açmış qızılgül,
Mən də şeyda bülbül.
Cəh-cəh vurram eşqinlə,
Ey saçları sünbül.
Darayıb saçların, a gülüm,
Tökürsən hər yana,
Yar, bağrımı dəlirsən,
Hər düşəndə yada.
Nəqarət

Mən qurban yara, a balam,
Güllü bir bahara,
İstər peşman etsin məni,
İstər çəksin dara.
Nəqarət

MULEYLİ

Oğlan:
Pəncərənin milləri, Muleyli,
Acıb qızılgülləri, Muleyli,
Oğlanı yoldan eylər, Muleyli,
Qızın şirin dilləri, Muleyli.

Qız:
Köynəyi yaşıl oğlan, Muleyli,
Əcəb yaraşır, oğlan, Muleyli,
Qapımızda dolanma, Muleyli,
Anam savaşır, oğlan, Muleyli.

Oğlan:
Mən aşiqəm saz eylər, Muleyli,
Bahar eylər, yaz eylər, Muleyli,
Qız kimə könül versə, Muleyli,
Təkcə ona naz eylər, Muleyli.

Qız:
Qapınızda bar olsun, Muleyli,
Heyva olsun, nar olsun, Muleyli,
Sənə könül verərəm, Muleyli,
Səndə düz ilqar olsun, Muleyli.

Oğlan:
Qızılgülü biçmişəm, Muleyli,
Üstündə and içmişəm, Muleyli.
Gözəl qızlar içində, Muleyli,
Təkcə səni seçmişəm, Muleyli.

Qız:
Yad bağını arama, Muleyli,
Ağacların darama, Muleyli.
Əgər məni sevirsən, Muleyli,
Elçi göndər anama, Muleyli.

AĞLAMA, CEYRAN BALASI, AĞLAMA

Mənim çəpərdən aşmağım,
Ağlama,ceyran balası,ağlama.
Ağzımdan düşdü yaşmağım,
Ağlama,ceyran balası,ağlama.
Heç bilmədim harda qaldı,
Ağlama, ceyran balası,ağlama.
Ay mənim güllü başmağım,
Ağlama,ceyran balası, ağlama.
Gedər gözlərin qarası, ağlama.

Ay əzizim, sizə gəlləm,
Ağlama, ceyran balası, ağlama.
Ay sürmə çək gözə,gəlləm,
Ağlama, ceyran balası,ağlama.
Ay üzündə zəhmət çəksən,
Ağlama, ceyran balası,ağlama.
Ay qurtarsam sizə gəlləm,
Ağlama, ceyran balası,ağlama.
Gedər gözlərin qarası, ağlama.

YAYLIĞI

Qız:
Anamdan bir yaylıq aldım,
Heç bilmirəm harda saldım.
Səndədirsə, ver yaylığı,
Yaylıq salar, a balam, ayrılığı, yar, yar can,
Gözəl oğlan, ver yaylığı.
Yaylıq salar ayrılığı, yar, yar can,
Gözəl oğlan, ver yaylığı.

Oğlan:
Yaylığını tanı, ay qız,

Məndə yaylıq hanı, ay qız?
Kim dedi yaylıq məndədir?
Bəlkə düşüb çəməndədir, yar, yar can.
Get, axtar tap yaylığı.

Qız:
Ay kələkbaz oğlan, oğlan,
İnciyərəm səndən, inan.
Çıxmasa yaylıq qarşıma,
Xəbər verrəm qardaşıma, yar, yar can,
Gözəl oğlan, ver yaylığı.
Xəbər verrəm qardaşıma, yar, yar can,
Gözəl oğlan, ver yaylığı.

Oğlan:
Qurban olum göz-qaşına,
Gedib demə qardaşına.
Sevgilindən gəl incimə,
Yaylıq məndədir gözəl yar, yar can,
Al, sevgilim, al yaylığı.

AMAN, OVÇU

Maral:
Aman, ovçu, vurma məni,
Mən bu dağın, ay balam,
maralıyam.
Maralıyam, maralıyam,
Ovçu əlindən, ay gülüm,
yaralıyam.

Ovçu:
Çəkilməz, yar, duman yerdən,
Küsərlər, yar, uman yerdən.
Maralımı itirmişəm,

Gəzərəm, yar, güman yerdən.

Maral:
Əzizim, gəl bağ ilən,
Bağça ilən, a balam, bağ ilən.
Dedin məni aranda gözlə,
Yolun saldın, a gülüm, dağ ilən.

Ovçu:
Dolan gəl, yar, bu dağ ilən,
Gül-çiçək dər budaq ilən.
Sənə yaxşı yar deməzlər
Mən ölsəm, yar, bu dağ ilən.

AĞACDA LEYLƏK

Oğlan:
Ağacda leylək yuva bağlar, gedər,
Qız sevən oğlan hava bağlar gedər.
Ay qız, sevən oğlan hara ağlar gedər?

Qız:
Mən sənin yarın deyiləm, ay oğlan,
Bağçada barın deyiləm, ay oğlan,
Ay bağçada barın deyiləm, ay oğlan.

Oğlan:
Alışdım, yandım, xəbərin yox sənin,
Mehri-vəfadan əsərin yox sənin,
Ay, mehri-vəfadan əsərin yox sənin.

Qız:
Mən sənin yarın deyiləm, ay oğlan,
Bağçada barın deyiləm, ay oğlan,
Ay, bağçada barın deyiləm, ay oğlan.

KƏKLİK

Ovçu:
Kəklik, kəklik...

Kəklik:
Gəl ovla məni,
Dağa-daşa gəl qovma məni.

Ovçu:
Eşqin kəmərdin sal boynuma.

Kəklik:
Gecə, gündüz gəl ovla məni,
A balam, gəl ovla məni,
A gülüm, gəl ovla məni,
Ay ovçum, gəl ovla məni.

Ovçu:
Kəklik, kəklik daşları gəzər,

Kəklik:
Qələm, qələm qaşları gəzər,
Ay yarım, qaşları gəzər.

Ovçu:
Adın, sözün düşüb dillərə.

Kəklik:
Eşqim, sevdam başları gəzər,
A yarım, başları gəzər,
A balam, başları gəzər,
A gülüm, başları gəzər,
A yarım, başları gəzər.

Ovçu:
Gəl, gəl,
Gəl, gəl,
Ay mənim maralım,

Kəklik:
Sənsiz,
Sənsiz
Gəlmir qərarım.
Ay ovçu, gəlmir qərarım.

NEYLƏRSƏN

Oğlan:
Sən bir qanadlı quş olsan,
Göylərə uçacaq olsan,
Mən də bir qığılcım olub, bala,
Səni yandırsam, neylərsən?

Qız:
Sən bir qığılcım olsan,
Məni yandıracaq olsan,
Mən bir ovuc darı olub, bala,
Yerə səpilsəm neylərsən?

Oğlan:
Sən bir ovuc darı olsan,
Yerə səpiləcək olsan,
Mən cücəli toyuq olub, bala,
Səni dənləsəm, neylərsən?

Qız:
Sən cucəli toyuq olsan,
Məni dənləyəcək olsan,
Mən bir gözəl ceyran olub, bala,
Düzlərə qaçsam, neylərsən?

Oğlan:
Sən bir gözəl ceyran olsan,
Düzlərə qaçacaq olsan,
Mən bir mahir ovçu olub, bala,
Səni ovlasam, neylərsən?

Qız:
Sən bir mahir ovçu olsan,
Məni ovlayacaq olsan,
Mən bir qızıl alma olub, bala,
Sandığa girsəm, neylərsən?

Oğlan:
Sən bir qızıl alma olsan,
Sandığa girəcək olsan.
Mən bir paslı açar olub, bala,
Sandığı açsam, neylərsən?

Qız:
Sən bir paslı açar olsan,
Sandığı açacaq olsan.
Mən bəzəkli gəlin olub, bala,
Sandıqdan çıxsam, neylərsən?

Oğlan:
Sən bəzəkli gəlin olsan,
Sandıqdan çıxacaq olsan,
Mən bir gözəl oğlan olub, bala,
Səni alarsam, neylərsən?

Oğlan:
Mən bir gözəl oğlan olub, bala,
Səni alarsam, neylərsən?

Qız:
Sən bir gözəl oğlan olub, bala
Məni alarsan, neylərəm?

QIZILGÜLÜN DƏSTƏSİYƏM, YAR-YAR

Qızılgülün dəstəsiyəm,
Yar-yar...
Bacıların bəstəsiyəm,
Yar-yar...
Qonşu məni xəbər alsa,
Yar-yar.....
Deyin, yarın xəstəsiyəm,
Yar-yar...
Anamın bircəsiyəm,
Yar-yar...
İncilərin incisiyəm,
Yar-yar...
Qızılgülün göncəsiyəm,
Yar-yar...
Kirpiyimdə yaş gilə,
Meh düşdü qızılgülə,
Ay yar, atı yəhərlə,
Dur gedək qaynımgilə,
Bacıların bəstəsiyəm,
Yar-yar...
Qızılgülün göncəsiyəm,
Yar-yar...

Bağça bar üstə gəlir,
Heyva,nar üstə gəlir.
Bəxtəvər, bu nəğmələr,
Hamı yar üstə gəlir.

QARDAŞ, ŞİRNİN MÜBARƏK

Suyun bəndinə qurban,
Qardaş, kəndinə qurban.
Həyətdə at yəhərli
Sinəbəndinə qurban.
Nəqarət
Mübarək, ay mübarək!
Qardaş, şirnin mübarək!

Nazik çəkin ipliyi,
Kəsməyin köynəkliyi.
Qardaşım bir qız sevib
Gözəllərin kəkliyi...
Nəqarət

AL ALMA, QIZIL ALMA

Kətan kətana qurban,
Kətan satana qurban.
Evdə yerin sərmişəm,
Yalqız yatana qurban.

Nəqarət
Al alma, qızıl alma,
Süfrəyə düzül, alma.

Al alma, qızıl alma,
Xonçaya düzül, alma.
Bilsəydim yar göndərib,
Saxlardım yüz il, alma.
Nəqarət

Qardaş, adına qurban,
Alma, dadına qurban.
Səni təkcə demərəm,
Gül adaxlına qurban.
Nəqarət

Qardaş ovuna gedər,
Baxar boyuna gedər.
Bu bayramın xonçası,
Adaxlı evinə gedər.
Nəqarət

SAMOVARI QAYNADAN YAR

Qızıl üzük laxladı,
Verdim, anam saxladı.
Anama qurban olum,
Məni tez adaxladı.

Nəqarət
Samovarı qaynadan yar,
Qızıl üzük oynadan yar.

Məxmərdən başmağım var.
Dağ-dərə aşmağım var,
Eldən igid seçmişəm,
Qoşulub qaçmağım var.
Nəqarət,

Kəhər atı çapmışam
Təndirə çörək yapmışam.
Qınamasın el məni,
Yarı özüm tapmışam.
Nəqarət

ŞALI ŞALA BAĞLAR, GEDƏR

Başda şalım güllüdür,
Ortası bülbüllüdür.
Dünən yarını gördüm,
Əcəb şirin dillidir.

Nəqarət
Şalı şala bağlar, gedər
Nişana bağlar, gedər.

Gülü şala bağlar, gedər,
Şalı şala bağlar, gedər
Oğlanın bacıları,
Nişana bağlar, gedər.
Nəqarət

Bağımda heyva sarı,
Dərmişəm şirin narı,
Hamıdan şirin olar,
Kiçik qardaşın yarı.
Nəqarət

AY QIZ, NİŞANNIN GƏLƏR

Mən aşiqəm gün gələr,
Ay dolanar, gün gələr.
Gözlərin aydın olsun,
Nişannın bugün gələr.

Nəqarət
Ay qız, nişannın gələr,
Qırmızı şalın gələr.

Oğlan adın Yaqubdur,
Gün dağlarda doğubdur.
Sənin verdiyin üzük,
Barmağımı boğubdur.
Nəqarət

Gedin deyin Cəmilə
Pulu verməsin yelə.
Pulu versin, şal alsın,
Bağlasın incə belə.
Nəqarət

TƏR BƏNÖVŞƏ DƏRMƏYƏ GƏLMİŞƏM

Gəlin gedək, nar dərməyə gəlmişəm,
Narın budağın əyməyə gəlmişəm.
Tər bənövşə dərməyə gəlmişəm,
Yarın camalını görməyə gəlmişəm.
Telinə güllər düzməyə gəlmişəm,
Nişanında qol açıb süzməyə gəlmişəm,
Üzündə xalın görməyə gəlmişəm.
Yusif camalın görməyə gəlmişəm,
Yarın camalın görməyə gəlmişəm.

ADAXLININ ADINI DE!

A yellənə-yellənə,
Adaxlının adını de...
Yaylığı yellənən qız,
Adaxlının adını de...
Bura qonaq gələn qız,
Adaxlının adını de...
Gözləri xurmayı qız,
Adaxlının adını de...
Qaşları sürməli qız,
Adaxlının adını de...
Üzünü görməli qız,
Adaxlının adını de...

YAR-YAR

Ha yaylığı yellənən,
Yar- yar.
Şirin -şirin dillənən,
Yar- yar.
Şaqqa çəkib güləydin,
Yar- yar.
Bizə qonaq gələydin,
Yar- yar.
Örpəyi çəhrayı yar,
Gözləri xurmayı yar,
Ha yaylığı yellənən yar,
Şirin-şirin dillənən,
Yar- yar.

GƏLDİ OĞLAN ADAMI...

Həyətimiz nanadır,
yar- yar.
Üstü balaxanadır,
yar-yar.
Yarımın əynindəki,
yar-yar.
Atlas ilə xaradır,
yar-yar.

Gəldi oğlan adamı,
yar-yar.
Oğlan, sındır badamı,
yar-yar.
Sındır, qoy dalı qatda,
yar-yar.
Görməsin qız adamı,
yar-yar.

Sıra-sıra söyüdlər.
Sıra durub söyüdlər.
Yüz igidin içində,
Yenə bizim igidlər.

Ləmə çıxma, damcıdır,
Köynəyim narıncıdır,
Oğlan qızın dərdindən,
Ölməsə zarıncıdır.
Gəldi oğlan adamı,
yar-yar.
Ağam, sındır badamı,
yar-yar.

BELƏ BALANI

Belə balanı,
Aşıq balanı,
Car olsun,
Sağ olsun,
Var olsun!
Yar bizə
Qonaq olsun.

I Dəstə:
Haçandır toyun?

II Dəstə:
Belə balanı,
Aşiq balanı

I Dəstə:
Car olsun,
Sağ olsun,
Var olsun,
Yar bizə
Qonaq olsun.

Ay gedən oğlan,
Bir ayaq saxla.
Ümidim sənsən,
Pənahım Allah.

Anam mənə barı,
Atam mənə barı,
Kimin nə həddi var,
Baxsın mənə sarı.

Bazarda fincan,
Fincanı mərcan.
Bir kağız yazarsan,
Ollam xatircəm.

Belə balanın
Bağçalar barı.
Heyvası, narı,
Adaxlısı hanı?

ADAXLIN GƏLSİN, AŞİQ OLSUN SƏNƏ

Lampa, səni yandırram,
Dörd yanı dolandırram.
Müşkül işim düşəndə,
Vurram səni sındırram,

Nəqarət
Lampanı yandır, işiq olsun sənə,
Adaxlın gəlsin, aşiq olsun sənə.

İşığı yanar qoydum,
Üstünə fanar qoydum.
Bir alagöz oğlanın
Ürəyin yanar qoydum.
Nəqarət

Başımda sarı sancaq
Sancaq olub oyuncaq
Mənim nə günahım var.
Sən naşı, mən utancaq.
Nəqarət

ALIN MÜBARƏK OLSUN

Alın mübarək olsun,
Şalın mübarək olsun,
Oğlanın adamısan,
Apar, mübarək olsun.

Maşınımız qırmızı,
Almışıq müəllim qızı,
Oğlan bizim, qız bizim,
İkisi də dan ulduzu.

Qəbirsandıq gül açmaz,
Ölülər dirlib qaçmaz
Anan da bilir ki,
Qızı qoşulub qaçmaz.

Həyətizdə gül varmı,
Gül dibində kol varmı,
Bu gün sənin qonağın,
Evinizdə yer varmı.

Alma atdın almaya,
Alma yerdə qalmaya
Oğlanlar yaranıbdı,
Qızlar evdə qalmaya.

AY ÜZÜ XALLI CEYRAN

Dağların o üzündə,
Ceyran otlar düzündə
Mənim yarım gözəldir,
Qoşa xal var üzündə.

Ay qoşa xallı ceyran,
Ləbləri ballı ceyran,
Vermərəm öz yarımı,
Gəlsə yüz əlli ceyran.

Qara at nalı neylər,
Gözəl qız xalı neylər?
Adaxlısı gözəl olan
Dövləti, malı neylər.

YARPAQLARI

Başına qoyubdu qızıldan teşti,
Fırlana-fırlana çayları keşdi,
Yarı göyçək olan neylər behişti.

Nəqarət
Basma, basma tağları,
Saraldı yarpaqları.

Samovar almışam o tay malıdı,
Üstünə saldığım tirmə şalıdı,
Qızıma göz dikmə, özgə malıdı.
Nəqarət

Qarabağda talan var,
Zülfün üstə salan var,
Gedirsən, tez qayıt gəl,
Gözü yolda qalan var.

Nəqarət
Qarabağın üzümü,
Yola dikdim gözümü,
Nə gedən var, nə gələn.
Kimə deyim sözümü.

Nəqarət
Bu gələn yar olaydı,
Əlində nar olaydı,
İkimiz bir köynəkdə,
Yaxası dar olaydı.
Nəqarət

Bu gələn yar özüdü,
Gözü ceyran gözüdü.
Bir baxdım tanımadım,
Bir baxdım, yar özüdü.
Nəqarət

Durma qapı dalında,
Gözüm qaldı xalında,
Gedib anama deyim,
Gəlib qalım yanında.
Nəqarət

Süpür evin yanını,
Oğlan görsün yarını,
Oğlan yarın görəndə
Versin şirin canını.
Nəqarət

Ordubaddan keçdi yar,
Gör hayana köçdü yar,
Hasar hündür, boy alçaq,
Aralıqda itdi yar.
Nəqarət

Dəryada fanaram mən,
Od tutub yanaram mən,
Qaş altdan göz eləmə,
Arifəm, qanaram mən.
Nəqarət

Dərya dolu lilinən,
Yarım oynar gülünən,
Qurban olum yarıma,
Məni saxlar dilinən.
Nəqarət

Xırmanda şana qaldı,
Sancıldı şana qaldı.
Oğlanın əl dəsmalı
Qızda nişana qaldı.
Nəqarət

Qızıl üzük firuzə,
Yalvarıram xoruza,
Bu gecə banlamasın,
Yarım gələcək bizə.
Nəqarət

ADAXLIN HANI?

Evlərə gün düşənə,
Alma qoydum nişana,
Qara yaylıq yaraşır,
Yardan ayrı düşənə,

Nəqarət
Bağçalar barı,
Heyvalar narı,
Qardaş, başına dönüm,
De, bəs adaxlın hanı?

Samovarım söküldü,
Çayı yerə töküldü.
Sizin bağın bülbülü,
Bizim bağa töküldü.
Nəqarət

Mir Həsənin bağları,
Şaqqıldar yarpaqları,
Şeh düşmüş gülə bənzər
Yarımın dodaqları.
Nəqarət

Atdandı, xan əzizim,
Ardınca qaldı gözüm,
Yolda yoldaşın qurban,
Evə gələndə özüm.
Nəqarət

İstəkanım bir dəstdi,
Dəsti də mənə bəsdi.
Sağ gözüm yara qurban,
Sol gözüm mənə bəsdi.
Nəqarət

HEY LALƏZAR, HEY

Gedin deyin xan çobana.
Hey Laləzar, hey!
Gəlməsin bu il Muğana.
Hey Laləzar, hey!
Gəlsə düşər nahaq qana.
Hey Laləzar, hey!
Laləzar, hey, Laləzar!
Gedin deyin Muğan göydür.
Hey Laləzar, hey!
Muğan üstə yağan göydür.
Hey Laləzar, hey!
Torpağından doğan göydür.
Hey Laləzar, hey!
Laləzar, hey, Laləzar!

Gedin deyin qonçam toydur.
Hey Laləzar, hey!
Bəzənsin xonçam, toydur.
Hey Laləzar, hey!
Ürəkləri açan toydur.
Hey Laləzar, hey!
Laləzar, hey, Laləzar!

Gedin deyin bəy oğlana,
Hey Laləzar, hey!
Bizim bu dağlara bağlana.
Hey Laləzar, hey!
Bu il bahar adaxlana.
Hey Laləzar, hey!
Laləzar, hey, Laləzar!

YADLAR ÖYRƏTDİ SƏNİ...

Yadlar öyrətdi səni, yar-yar,
Başa düşmədin məni, yar-yar
Heç vaxt belə salmayıb, yar-yar,
Dərdə sevən sevəni, yar-yar.

Məni saydın sən naşı, yar-yar,
Oldun toxların başı, yar-yar,
Bir kəlmə sözə satdın, yar-yar,
Alagöz, qələm qaşı, yar-yar.

Bu dağ o dağa çatmaz, yar-yar,
Kölgə bu dağa çatmaz, yar-yar,
Gül güldən gözəl olar, yar-yar,
Sevən sevəni atmaz, yar-yar.

Bu dağda daş olaydım, yar-yar,
Düşüb xırdaş olaydım yar-yar,
Ölümümə razıyam, yar-yar,
Sən ilə kaş olaydım, yar-yar.

Ağacda yarpaq olsun, yar-yar,
Dibində torpaq olsun, yar-yar,
Məni sevməsən də sən, yar-yar,
Təkcə canım sağ olsun, yar-yar.

ULDUZ, AMAN

Bu gecə ay doğacaq,
Cavanlar oynayacaq,
Bir yaman qaynanam var,
Yarımı qoymayacaq.
Nəqarət
Ulduz, aman, ay aman,
Halım yaman, ay yaman!

Qaşların qarasından,
Öpəydim arasından,
Mən səni çox sevirəm,
Məhəbbət barasından.
Nəqarət

Əmim oğlu, sən nəsən,
Sən məni bəyənmirsən?
Eləsinə gedərəm,
Sən onun nökərisən.
Nəqarət

Su ilanı olaydım,
Ləkdən- ləkə dolaydım,
Yarım əkən çəltiyin
Sünbülü mən olaydım.
Nəqarət

ZƏRNİŞANIM

Reyhanı sancıb başına,
Sürməni çəkib qaşına.
Gəlib bizə özbaşına
Zərnişanım, Zərnişanım,mənim canım.

Gedib, gəzib bu toyları,
Tapıbdı bəstə boyları.
Öyrənibdi halayları,
Zərnişanım, Zərnişanım, mənim canım.

Səhər-səhər çıxar bağa,
Kəhriz üstə yuyunmağa.
Bəzək vurar al yanağa.
Zərnişanım, Zərnişanım, mənim canım.

MAŞALLAH

Mənim yarım yar deyil,
Tərkin qılsam, ar deyil.
Get başına çarə qıl,
Dünya gendi, dar deyil.
Nəqarət

Ey gülü maşallah,
Qardaşım əskər gedib,
Gələcək inşallah.

Pəncərənin milin çək,
Yandır, onun külün çək.
Qohuma qız verənin
Əngin ayır, dilin çək.
Nəqarət

Aya bax, necə gedir,
Günə bax, necə gedir.
Şarfı salıb boynuna,
Yara bax, necə gedir.
Nəqarət

Çıxdım təndir üstünə,
Baxdım yarın şəstinə.
Əlində bir dəstə gül,
Atdı sinəm üstünə.

BİR DƏNƏSƏN, BİR DƏNƏ!

Oğlan:
Ay qız, bir aç üzünü,
na na nay nay, nay nay,
Görüm o qaş-gözünü,
na na nay nay, nay nay,
Gəl, mənə naz eyləmə, ay
na na nay nay, nay nay,
Yerə salma sözümü, ay
na na nay nay, nay nay.
Birlikdə, xorla:
Gəl ona naz eyləmə, ey,
na na nay nay, nay nay,
Yerə salma sözünü, ey,
na na nay nay, nay nay.
Qız:
Get, get, küsmüşəm səndən,
na na nay nay, nay nay,
Oğlan:
Gəl, gəl, qaçma sən məndən,
na na nay nay, nay nay,
Qız:
Barışmaq istəyirsən, ay,
na na nay nay, nay nay,
Mənə gül dər çəməndən, ay,
na na nay nay, nay nay.

Birlikdə, xorla:
Barışmaq istəyirsən, ay,
na na nay nay, nay nay,
Ona gül dər çəməndən, ay,
na na nay nay, nay nay.

Oğlan:
Ay qız, gülü neylərsən?
na na nay nay, nay nay,
Özün güldən gözəlsən,
na na nay nay, nay nay,
Qız:
Yox, üzümü açmaram, ay,
na na nay nay, nay nay,
Mənə gül dərməsən sən, ay,
na na nay nay, nay nay.

Birlikdə, xorla:
Yox, üzün açmaz, ay,
na na nay nay, nay nay,
Ona gül dərməsən sən, ay,
na na nay nay, nay nay.
Oğlan:
At üzündən duvağı,
na na nay nay, nay nay,
Görüm o al yanağı,
na na nay nay, nay nay,
Ver əlini əlimə, ay,
na na nay nay, nay nay,
Gəzək çəməni, bağı, ay,
na na nay nay, nay nay.
Birlikdə, xorla:
Ver əlini əlimə, ay,
na na nay nay, nay nay,
Gəzək çəməni, bağı, ay,
na na nay nay, nay nay.
Qız:
Örpəyi qaytar mənə,
na na nay nay, nay nay,
Sonra sözüm var sənə,
na na nay nay, nay nay,

Oğlan:
Mən ki, səni sevmişəm, ay,
na na nay nay, nay nay,
Bir dənəsən, bir dənə, ay,
na na nay nay, nay nay.

Birlikdə, xorla:
O ki, səni sevibdir, ay,
na na nay nay, nay nay,
Bir dənəsən, bir dənə, ay,
na na nay nay, nay nay.
Qız:
Necə sevim, mən səni,
na na nay nay, nay nay,
Oğlan:
Doğru deyirsən yəni?
na na nay nay, nay nay,
Qız:
Hey deyirsən sevirəm, ay,
na na nay nay, nay nay,
Nişanlamırsan məni, ay,
na na nay nay, nay nay.
Birlikdə, xorla:
Hey deyirsən sevirəm, ay,
na na nay nay, nay nay,
Get nişanla sən onu, ay,
na na nay nay, nay nay.
Oğlan:
Anamdan bir yadigar
na na nay nay, nay nay,
Barmağımda üzük var,
na na nay nay, nay nay,
Gəl onu verim sənə, ay,
na na nay nay, nay nay,

Olginən mənə nigar, ay,
na na nay nay, nay nay.
Birlikdə, xorla:
Mübarək olsun toyunuz!
na na nay nay, nay nay,
Oğlan, qız oynayınız, ay,
na na nay nay, nay nay.

DURUN GEDƏK YARGİLƏ

Gedirdim yolum ilə
Oynurdum gülüm ilə.
Yarı yoldan eylədim
Lal olmuş dilim ilə.

Nəqarət
Nar, nar, nargilə
Durun gedək yargilə.

Xəbər getdi bülbülə,
Meh düşdü qızılgülə.
Oğlan, atları gətir,
Dur gedək qaynımgilə.
Nəqarət

Gedirdim qıraq ilə,
Gül biçdim oraq ilə.
İtirdim gözəl yarı,
Axtardım soraq ilə.
Nəqarət

Ağ alma dilim- dilim
Açıbdı qızılgülüm.
Əgər sana söz desəm
Dönməsin bir də dilim.
Nəqarət

QARDAŞIMIN TOY QOYUNU

Ay bu gün başladıq toya,
Qardaşımın toy qoyunu,
Bıçaq gətir, kəs qoyunu.
Erkəcləri saya-saya,
Qardaşımın toy qoyunu.
Bıçaq gətir, kəs qoyunu.
Qoy gəlsin çıxsın ortaya
Qardaşımın toy qoyunu,
Bıçaq gətir, kəs qoyunu.

Buynuzları qoşa-qoşa,
Qardaşımın toy qoyunu,
Bıçaq gətir, kəs qoyunu.
Qoçlar gəlir qoşa-qoşa,
Qardaşımın toy qoyunu,
Bıçaq gətir, kəs qoyunu.
Kabab üçün gəlsin başa,
Qardaşımın toy qoyunu,
Bıçaq gətir, kəs qoyunu.

Gün qurtarır,axşam gəlir,
Qardaşımın toy qoyunu,
Bıçaq gətir, kəs qoyunu.
Ortaya güllü şam gəlir,
Qardaşımın toy qoyunu,
Bıçaq gətir, kəs qoyunu.
Kabab,basdırma,şam gəlir,
Qardaşımın toy qoyunu,
Bıçaq gətir, kəs qoyunu.

BU EVİN QONAQ QIZI, HÖRMƏT EDƏRİK SƏNƏ

I Dəstə:
Ay gecə uzun, ay batmaz,
Hörmət edərik sənə,
II Dəstə:
Hörmət edərik sənə.

Ay nişanlı qızlar yatmaz.
Ay sən kimi gözəli,
Ay tanrı bir də yaratmaz.
Hörmət edərik sənə.

Birlikdə:
Ay bu evin qonaq qızı, hörmət edərik sənə.
Ay bu evin böyük qızı, xidmət edərik sənə.
Ay bu evin gənc qızı, hədiyyə verrik sənə.
Ucadır boyun sənin,
Nə xoşdur toyun sənin.
Bir oğlana getmisən,
Camalda tayın sənin.

ERTƏDƏN YOLA SALİN, YOLU UZAQDIR

I Dəstə:
Alma atdım nişana
Bu gecə xanım bacı bizə qonaqdır.
II Dəstə:
Ertədən yola salın yolu iraqdır.
I Dəstə:
Evləri gün düşənə.

II Dəstə:
Yolu uzaqdır.
I Dəstə:
Belə yazığım gəlir,
Bu gecə xanım bacı bizə qonaqdır.
II Dəstə:
Ertədən yola salın, yolu iraqdır.
I Dəstə:
Qərib yerə düşən bizə qonaqdır.
Bu gecə xanım bacı bizə qonaqdır.
Ertədən yola salın, yolu iraqdır.

Narıncı döşək üzü,
Biz nə tanırdıq sizi.
O qədər gedib- gəldiz
Tamaha saldız bizi.

Getdiyin tanış olsun,
Yara sifariş olsun.
Yara yaylıq demişəm,
Zəri beş qarış olsun.

ƏLLƏRƏ XINA YAXARLAR

I Dəstə:
Bu evlərin uzunu,
Əllərə xına yaxarlar.
II dəstə:
Çoban, qaytar quzunu,
Əllərə xına yaxarlar.
I Dəstə:
Gedin deyin əmimə,
Əllərə xına yaxarlar.
II Dəstə:
Versin mənə qızını,

Əllərə xına yaxarlar.
I Dəstə
Çəkil get, sənə qurban,
Pəncərədən baxarlar.

Gəlmişəm, dərim səni,
Qəlbimə hörum səni.
Qapı, pəncərə bağlı,
Bəs necə görüm səni?

XINANI YAXIN DƏSTİNƏ -DƏSTİNƏ

Əl eylədim gələsən,
Danışıban, güləsən.
Azarımı alasan,
Düşməninə verəsən.
Nəqarət
Ay xınanı yaxın dəstinə- dəstinə,
Xəbər getsin düşməninə, dostuna.

Su gəlir bu arxınan,
Doldur ver bardağınan.
Yarın yaxasın açdım,
Xınalı barmağınan.
Nəqarət
Ay xınanı yaxın dəstinə- dəstinə.
Xəbər getsin düşməninə, dostuna.

Dəsmalımız uc-uca
Gəncədə halın necə ?
İkimizin söhbətin
Edərik gələn gecə.
Nəqarət
Ay xınanı yaxın dəstinə- dəstinə,
Xəbər getsin düşməninə, dostuna.

Kəmər bağla belinə,
Şirni verin əlinə.
Gəl, bizim əziz gəlin,
Xına qoyum telinə.
Nəqarət
Ay xınanı yaxın dəstinə-dəstinə,
Xəbər getsin düşməninə, dostuna.

Gəlin aparma nəğmələri

YAXŞI BƏZƏK VURUN BİZİM GƏLİNƏ

Ay bu qala, daşlı qala,
Ay üstü üçbaşlı qala.
Ay anası maral xanım,
Ay qızı ceyran balası.
Yaxşı bəzək vurun bizim gəlinə,
Qızlar, güllər düzün onun telinə, telinə.

Ay sonalar uçar, gedər,
Ay qanadın açar, gedər,
Ay Muğanın göy düzündə,
Ay ahular qaçar, gedər.
Yaxşı bəzək vurun bizim gəlinə,
Qızlar, güllər düzün onun telinə, telinə.

Ay dağların dibi daşdı,
Ay gözümə gül sataşdı.
Ay günün ətirli seli
Ay başımdan aşdı,daşdı.
Yaxşı bəzək vurun bizim gəlinə,
Qızlar, güllər düzün onun telinə, telinə.

Ay bacılar çiçək-çiçək,
Ay çiçəklər ləçək-ləçək,
Ay bizim gəlintək olmaz,
Qaraqaş, üzü göyçək.
Yaxşı bəzək vurun bizim gəlinə,
Qızlar, güllər düzün onun telinə, telinə.

AY GEDİRSƏN, MƏNİ APAR

Ay gedirsən, məni apar,
yar-yar.
Ay getmə, qiyamət qopar,
yar-yar.
Ay gözəllər bağçasından,
yar-yar.
Hər kəs öz yarın tapar,
yar-yar.
Sandıq üstə mafara,
yar-yar.
Gedin, deyin yavərə,
yar-yar.
Mənim yarım uşaqdır,
yar-yar.
Yollamasın səfərə,
yar-yar.

Qızılgülü dərmərəm,
yar-yar.
Dərib yerə sərmərəm
yar-yar.
Yarım evdə olmasa,
yar-yar.
Mən yatağa girmərəm,

yar-yar.

YALVARIB, ALDADIB BAĞA SALMISAN

Evlərinin yanı sünbül tayası,
Sağarlar camışı, oynar balası,
Bir qız sevmişəm, ceyran balası.

Nəqarət
Qardaş, bu ceyranı hardan almısan,
Yalvarıb, aldadıb bağa salmısan.

Naxçıvan yolları varaq-varaqdır,
Küçələr hamısı şüşə daraqdır,
Bir gözəl sevmişəm, məndən iraqdır.
Nəqarət

Sonadan sonaya soraq eylərəm,
Yar alan yaylığı duvaq eylərəm,
Yar özü gəlməsə, qonaq eylərəm.
Nəqarət
Bir şirmayı xənçər almışam,
Yarın kəmərinə özüm salmışam.
Yarım ova gedib, yalqız qalmışam.
Nəqarət

HEY, YARA XOŞ GƏLDİN DEYİN

Gəlirsən hay neynim sənə,
Hay düşübdür meylim sənə,
Ay meylim meylinə qurban.
Hay daha mən neynim sənə,
Hey, yara xoş gəldin deyin.

Birlikdə:
Dildara xoş gəldin, deyin

İntizarın çəkmişəm.
Gəlinə xoş gəldin, deyin
İntzarın çəkmişəm.

Ay dəryadan keçdim, gəldim,
Ay suyundan içdim, gəldim.
Ay igidlərin üçündən
Ay mən səni seçdim, gəldim.

Ay gəlin, gözüm gəlin,
İşlərəm özüm gəlin.
Sevinsin qaynanası,
Göyçəkdir bizim gəlin.
Yağaram yağış kimi,
Bitərəm qamış kimi.
Evə gəlin yaraşır
Xənçərə gümüş kimi.

XOŞ GƏLDİN, XANIM, XOŞ GƏLDİN

Gəlin deyər, hanı anam,
Su üzündə qaldı sonam.
Tutu xanım sənin anan,
Xoş gəldin gül üstə xanım,
Xoş gəldin, xanım, xoş gəldin.

Gəlin deyər, hanı atam,
Qoyunu quzuya qatam.
Qaynatandır sənin atan.

Gəlin deyər, hanı qardaş,
Axıdar gözlərindən yaş.
Qaynındır sana qardaş.

Gəlin deyər hanı bacım,
Su üzündə qaldı sacım.

Baldızındı sənin bacın.
Gəlin deyər hanı xalam,
Yaxılmamış qaldı xınam,
Evindir dərdinə qalan.
Gəlin, xoş gəldin, xoş gəldin
Gəlin, bu evə xoş gəldin.
Xoş gəldin gül üstə, xanım,
Xoş gəldin, xanım, xoş gəldin.

QAYINLARI ÇIXSIN QOŞA

Sən mənim ağa qaynım,
Sallan gəl bağa, qaynım.
Gülüm alma çiçəyi
Sənə sadağa, qaynım.

Nəqarət
Gəlin, gəlin, xalı döşə
Qayınları çıxsın qoşa.

Gəlinsən, tut yaşmağını,
Tərgit coşub daşmağını,
Elimizin adətidir,
Qoy qaynının başmağını.
Nəqarət

Gəlin gəlir, cəm gəlir,
Ev-eşiyə təm gəlir,
Qaynanaya ,baldıza,
Qayına həmdəm gəlir.
Nəqarət

LƏBLƏRİ QAYMAQ GƏLİNİN

Ay üzünü örtmə, gəlin,
Ay gözünü örtmə, gəlin.
Ay o gözəl camalını,
Ay bizdən gizlətmə, gəlin.

Nəqarət
Ay ləbi qaymaq gəlinin,
Ləbləri qaymaq gəlinin.

Ay gəlin, gəlin olaydı
Ay al- yaşıla qonaydı.
Ay istəyinə çataydı,
Ay qəlbi sakit olaydı.
Nəqarət

Qaymaq dodağı büzmə,
Yardan inciyib küsmə.
Qadanı mən alaram
Gəlin, canını üzmə
Nəqarət

AY BOYU BƏSTƏ GƏLİNİN

Bu meşə kollanıbdır,
Ay armudu ballanıbdır.
Ay gedin deyin yarıma
Ay təkbəndi sallanıbdır.

Ay boyu bəstə gəlinin,
Saçları dəstə gəlinin.
Vəziri şamlar yanar
Çiyni üstə gəlinin.

Baxın, mən görəndimi,
Zülfün mən hörəndimi,
Aç üzünün pərdəsin,
Görüm mən görəndimi.

Sən mənim hilli yarım,
Dəsmalı güllü yarım,
Əyləşib kəçavədə,
Əcəb şəkilli yarım.

BU TOY KİMİN TOYUDUR

Bu toy kimin toyudur,
Toyuna qurban olum .
Bu toyda oynayanın
Boyuna qurban olum .

Qızıl iynənin sapı,
Görükür bizim qapı.
Sevgilimə göz dikən,
Dilənsin qapı -qapı.

Qardaşımın atı var,
Qolunda saatı var.
Qardaş hayana getsə,
O yerdə hörməti var.

BACIM, TOYUN MÜBARƏK OLSUN

Əzizinəm, bəstəyəm,
Əlində güldəstəyəm.
Xəbər alsan halımı,
Sənin üçün xəstəyəm.
Bacım, toyun mübarək, bəstə boyun mübarək,
Gedən yerdən xeyir görəsən, ayın, günün mübarək!
Qərənfiləm, al xaram,
Açılmağa qorxaram,
Kamalını görsəm, yar
Xəstə olsam qorxaram.
Bacım, toyun mübarək, bəstə boyun mübarək,
Gedən yerdən xeyir görəsən, ayın, günün mübarək!

Qərənfilsən, məzəsən,
Hər bir güldən təzəsən.
Arzum var öz toyunda
Oynayasan, süzəsən.
Bacım, toyun mübarək, bəstə boyun mübarək,
Gedən yerdən xeyir görəsən, ayın, günün mübarək!

TOYUN MÜBARƏK OLSUN

Qardaşımın kürən atı,
Meydana girən atı,
Heç kəs oynada bilməz,
Qardaşım sürən atı.

Nəqarət
Deyin, mübarək olsun.
Çağırın oğlan bacısın.
Desin mübarək olsun,
Deyin, mübarək olsun.

Ulduz gəlin, ay gəlin,
Olmaz sənə tay, gəlin.
Bu gün sənin toyundur.
Nazik yuxa yay, gəlin.

Nəqarət
Bu gələn beş atlıdır,
Beşi kəhər atlıdır.
Mən qardaşı tanıram,
Qabaqda boz atlıdır.
Nəqarət

HEY GÜLÜM MAŞALLAH

Bu bağı bağ eylərəm,
Hey gülüm maşallah.
Hər yanı çardağ eylərəm,
Hey gülüm maşallah.
Bir fincan pürrəng çaya
Hey gülüm maşallah,
Yarı qonaq eylərəm,
Hey gülüm maşallah.
Nəqarət
Yar yaman aldatdı məni,
Yar-yar.
Aldadıb oynatdı məni,
Yar-yar.
Qızılgülü üzərəm,
Hey gülüm maşallah.
Yoluna gül düzərəm,
Hey gülüm maşallah.
Gedirsən tez qayıt, gəl,
Hey gülüm maşallah.
Həsrətinə dözmərəm.
Hey gülüm maşallah.
Nəqarət

MÜBARƏK OLSUN GƏLİNİN QƏDƏMİ

Ay burdan uzaqdır Gəncə,
Ay at yorulur gedincə.
Yollara xalça düzərəm,
Hər qardaşım gəlincə,
Nəqarət
Xonçaya düzdük noğulu, badamı,
Mübarək olsun gəlinin qədəmi.

Qurban kəsim səsinə,
Gülünə, bənövşəsinə.
Qardaşın yarı gəlir,
Çıxın tamaşasına.
Nəqarət

GƏLİN, TAXTIN MÜBARƏK

Qızın baxtı ağ olsun.
Əzizləri sağ olsun.
Gəlin, getdiyin yollar,
Yanıb çilçıraq olsun.

Nəqarət
Gəlin, baxtın mübarək!
Gəlin, taxtın mübarək!

Bu dərə, uzun dərə,
Dərəyə gələr bərə.
Burda bir bağ salmışam
Yar gələ, üzüm dərə.
Nəqarət

Bulağın başı ilə,
Dibinin daşı ilə.
Gəlin taxta çıxıbdır
Sağdışı, soldışı ilə.
Nəqarət

Dur ayağa qız gəlin,
Tellərini düz gəlin.
Toyxana səni gözlər,
Düş ortada süz, gəlin.
Nəqarət

OĞLANI HAMAMA GÖNDƏRİN

Ay dəyirman boş dolanar,
Ay suyu sərxoş dolanar.
Ay qurban olum qardaşa,
Ay əlində quş dolanar.

Nəqarət
Göndərin, hamama göndərin
Oğlanı hamama göndərin.

Ay bu evlər, uzun evlər,
İçində olsun toylar.
Ay yığılsın qız-gəlinlər,
Ay oynasın bəstəboylar.
Nəqarət

Ay gün gedir, güllər yatır,
Ay gün dağlar üstə yatır,
Ay zanbaqlar ətir saçır,
Ay nərgizlər ətir saçır.
Nəqarət

Ay aşıq, aydın olsun,
Ay doğub aydın olsun,
Eşitdim yarın gəlib,
Gözlərin aydın olsun .
Nəqarət

Ay bəy oğlan gözü yolda,
Ay ürəyi, özü yolda,
Ay qurbanam o gözələ,
Özü burda, sözü yolda.
Nəqarət

Ay tələsin axşam gəlir,
Ay ortalığa şam gəlir.
Ay köçüb tez gedir gəlin,
Ay bəy oğlan paşam gəlir.
Nəqarət

Elin tamaşası var,
Tutubdur maşası var.
Burda bir toy qurulub
Əcəb tamaşası var.
Nəqarət

AY BACI, OĞLAN GƏLİR

Ay qardaş, ağa qardaşım
Ay dəstə yığıb yoldaşım,
Ay qardaş otağa gəlir,
Ay çəkilin, tez yol açın.

Birlikdə:
Ay laçın oğlan gəlir,
Göyərçin oğlan gəlir,
Ağa qardaşım gəlir,
Qoy qaçım oğlan gəlir.

Xoruzun dan səsinə,
Oyandım ban səsinə.
Yarım məni gözləyir,
Olum qurban səsinə.

QORXURAM, YOLDA QALA DƏLLƏK OĞLAN

Ay yar gəlir gülə- gülə,
Ay xeyli şən əhval ilə.
Ay əlində ipək dəsmal
Ay tərini silə -silə.

Nəqarət
Hamamdan gəldi, bala, dəllək oğlan,
Qorxuram, yolda qala dəllək oğlan.

Qardaş gedər qoyuna,
Mən qurbanam boyuna.
Qardaşın qazancını
Əvvəl verrəm toyuna.
Nəqarət

Gəl el -obadan, oğlan,
Evi abadan, oğlan.
Gülün yarpıza dönsün,
Yarı yubadan oğlan.
Nəqarət

AL ALMAĞA GƏLMİŞƏM

Al almağa gəlmişəm,
Şal almağa gəlmişəm.
Oğlanın bacısıyam
Aparmağa gəlmişəm.

Bu gün bağa gəlmişəm,
Qonça gülü dərmişəm.
Sizdə bir qız görmüşəm,
Aparmağa gəlmişəm.

Bu gün bağa gəlmişəm,
Baxa- baxa gəlmişəm.
Ağa qardaş toyunda
Oynamağa gəlmişəm.

TUNQAY MƏLƏK

Bu evlər, hündür evlər, tunqay mələk,
İçində olsun toylar, salam mələk.
Çalsınlar, çağırsınlar,
Oynasın bəstə boylar, salam mələk.

Evləri yan yuxarı,
Yandırmayın buxarı.
Girdik dost məhləsinə,
Demədi, çıx yuxarı.

AY BU YOLUN İKİ QATI

Ay bu yolun iki qatı,
Asta sürərlər atı,
Bədələn camahatı,
Verin bizim amanatı.

Nəqarət
Qovma bizi qapıdan,
Əl çəkmərik yaxandan.

O tay, bu tay bizimdir,
Aralığı qızıldır.
İki dünya bir olsa
Nazlı xanım bizimdir.
Nəqarət

O tay, bu tay bir olsun.
Aralığı gur olsun.
O tayın qız- gəlini,
Bu taya dilbər olsun.
Nəqarət

QAYNI BAĞLAR BELİNİ

Yerisin, ay yerisin,
Ay topuğu gül bürüsün.
Ay ağa qardaş toyunda
Ay on beş qaval çalınsın.

Nəqarət
Verin bizim gəlini,
Qaynı bağlar belini.

Evinin yanı çiçək,
Yarpağı ləçək-ləçək.
Qardaşın adaxlısı
Bəstə boy, özü göyçək.
Nəqarət

Bağ gülünü yar sular,
Könül gözəl arzular.
Çıx, göstər camalını,
Qoy baxsın tamarzılar.
Nəqarət

XIRDA MİRVARİDƏN DÜZÜN TELİNƏ, TELİNƏ

Ay Səlimə, qəm eyləmə,
Ay şadlığı kəm eyləmə.
Şirin-şirin gülüb danış,
Gözlərini nəm eyləmə.
Nəqarət

Dərya bir balıq verdi,
Balığı xaliq verdi.

Sən tikansız balıqsan
Səni kim soraq verdi.

Kəlağayı yel atdı,
Sancaq başıma batdı.
Sağ olsun əmim oğlu
Gəldi, toyuma çatdı.
Nəqarət

Mənim yarım bəstədir,
Bildirçin qəfəsdədir.
Yarımı gözləyirəm,
Ürəyim hey səsdədir.
Nəqarət

ALMANI ALMA, GƏLİN

Almanı alma, gəlin,
Al, yerə salma, gəlin.
Evində çox söz olar,
Qəlbinə salma, gəlin.

Oturmuşam başda mən,
Yemərəm hər aşdan mən,
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

Ay aşıq, alma məni,
Al, yerə salma məni.
Apar sərraf yanına,
Qəlp olsam, alma məni.

OTURUN QIZLAR, OTURUN EEE...

Ay o taya düşən evlər,
Ay üstə gün düşən evlər.
Ay ölsün düşman balası
Ay bizə gülüşən evlər.

Evdən xəbər gətirin eey...
Əskinazı götürün e.. e...
Beli çəpər düyməli,
Aşıqları gətirin e...

Oturun qızlar, oturun, e... e...
Evdən xəbər gətirin e... e...
Seyrü-səfa xəbərin
Gedin yara yetirin e... e...

Əskinazı sayarlar,
Pul qabına qoyarlar.
Yar-yarını istəsə,
Ondan necə doyarlar.

GÖR NƏ ALADIR GƏLİNİN GÖZLƏRİ

Əzizim, gözlərinə,
Müştağam gözlərinə
Deyin soyuq baxmasın
Yarımın gözlərinə.

Nəqarət
Gör nə aladır, gəlinin gözləri,
Vallah bəladır, gəlinin gözləri.
Ay nə şirindir bu bəyin sözlə

Ay aşıq, üzüm dəydi,
Üzünə üzüm dəydi.
Uzaqdan əl elədim,
Gözlərə gözüm dəydi.
Nəqarət

ALÇA GÜL AÇDI, GƏLİN

Gəlin, salatın gəlin,
Geyib xələtin gəlin.
Çatıb oğlan evinə
Alıb muradın gəlin.

Ay dönüb ulduz olsun,
Sular dönüb buz olsun.
Gəlin, gəldiyin evdə
Oğul olsun, qız olsun.

Alça gül açdı, gəlin,
Saçın dolaşdı, gəlin.
Ay bu boya, buxuna
Duvaq yaraşdı, gəlin.

MİRZƏM XAN OTAĞINDA

Ay qardaş girib otağa,
Ay qırmızı boy atmağa.
Ay qız yatıb yuxudadı,
Ay qıymaram oyatmağa.
Nəqarət
Ağam xan otağında,
Mirzəm xan otağında.

Ağam xan otağında
Mirzəm xan otağında.
On iki şam yandırram
Qardaş xan otağında.
Nəqarət

Mixək əkdim ləyəndə,
Ay mixək boynun əyəndə.

On iki şam yandırram,
Əlim yara dəyəndə.
Nəqarət

Naxçıvanın gülləri
Oxuyur bülbülləri,
Qardaşa qurban olsun,
Qoşaca bibiləri.
Nəqarət

GƏLİNİ HAMAMA GÖNDƏRİN

Nazbalışı üzül qoy,
Üstə bir cüt qızıl qoy.
Yarım hamama gedir,
Hamam pulun hazır qoy.

Nəqarət
Göndərin, hamama göndərin!
Gəlini hamama göndərin!

Yavaş yeri, toz olar,
Qara kostyum boz olar.
Əyil, dəsmalın götür
Mən götürsəm, söz olar.
Nəqarət

Bir özünə bax, nəsən
Məni bəyənməzsən.
Elə oğlana getdim
Cilovdarım gələsən.
Nəqarət

UÇAR, GEDƏR , YAR HEY HEY

Ay araba gəlir Ağdaşdan,
Ay yükün vurub qamışdan.
Ay bacı bivəfa çıxar,
Ay tez ayrılar qardaşdan.

Ağdaşdan gəl, Ağdaşdan,
Gəncə sürüştü başdan.
Bacının qaydasıdır
Tez ayrılır qardaşdan.

Bədələn bəndə dəyər,
Könül kəməndə dəyər.
Qardaş bir qız sevibdir,
Bütün bu kəndə dəyər.

Uçar, gedər yar-yar,
Keçər, gedər yar-yar.
Ay bu evin əziz qızı,
İndi köçər yar-yar.

NALÇA VERƏRLƏR GƏLİNƏ

Ağdır biləyin, ay gəlin,
Geniş ürəyin, ay gəlin,
Biz gəlmişik aparmağa,
Hanı diləyin, ay gəlin?

İstil üstə at gedər,
At gedər, polat gedər,
Yaxşı qızın cehizi,
Bəylərə xələt gedər.

Nalça verərlər gəlinə,
Dolça verərlər gəlinə.
Bizim yerin adətidir,
Xalça verərlər gəlinə.

BACIM GEDİR, CİLOVDARI KİM OLSUN?

Evimizin yanına necə gəlibsən,
Gündüzü qoyubsan, gecə gəlibsən.
Həvəs eyləyibsən, bica gəlibsən.
Nəqarət

Xara tuman, qıraqları sim olsun,
Bacım gedir, cilovdarı kim olsun?

Balaca baldızı vermişəm ərə,
Boynuna düzmüşəm narıncı, hora,
Mən sənə nə dedim, ay üzü qara.
Nəqarət

Gedin, deyin mənim ağa dayıma,
Seyrə gəlsin çəmənimə, çayıma.
Yığsın aşıqları, gəlsin toyuma.
Nəqarət

ELİNDƏN AYRILIB ÇOX ZAMAN AĞLAR

Əmimin balası, gəl evimizə,
Samovar qoymuşam, çay verim sizə,
Vədəni almışam, qonaq ol bizə.

Nəqarət
Bizim gəlin yaxşı binarə bağlar,
Elindən ayrılıb cox zaman ağlar.

Əmimin həyəti əncir ağacı,
Ənciri yemirəm, dənəsi acı,
Sənə nə demişəm, ay ağa bacı?
Nəqarət

Əmimə deginən bir bəri dursun,
Arası bizimlə sərin olmasın,
Heç kafir əmiyə gəlin olmasın.
Nəqarət

Dükanda əyləşib yar qabağında,
Çubuq tüstülənir gül damağında.
Geyinib gəzəydim yar qabağında.
Nəqarət

İNDİ GEDƏR QONAQLARIN, AY BACI

Ay gedərəm, oturmaram,
Ay tənə söz götürmərəm.
Ay yarın şirin sözünü,
Ay heç kəsə ötürmərəm.
Nəqarət
Nə tökmüsən qaşqabağın, ay bacı,
İndi gedər qonaqların, ay bacı.

Bacılar bacısıyam,
Şirinlərin acısıyam.
Kim mehriban bacıdır,
Mən onun bacısıyam.
Nəqarət

Bu bağlar, güllü bağlar,
Güllü-bülbüllü bağlar.
Bacımın sınıq könlün
Bağlasa, bacı bağlar.
Nəqarət

MƏN GEDƏRGİ BİR QONAĞAM, GƏL İNDİ

Ay mənim anam qalaydı, ay nənə,
Ay dörd yanımı alaydı, gəl indi.
Ay mən dərdimi deyəndə, ay nənə,
Ay anam abdal olaydı, gəl indi.
Nəqarət
Nə tökmüsən qaş-qabağın, ay bacı,
Mən gedərgi bir qonağam, gəl indi

Qız gedər, gəlin olar,ay nənə
Yel dəyər, sərin olar, gəl indi.
Qızın düşən yerlər, ay nənə,
Boy verməz, dərin olar, gəl indi.
Nəqarət

Ucadır boyun sənin,
Nə xoşdur toyun sənin,
Xeyir-duana gəlib,
Nənənlə dayın sənin.
Nəqarət

GEDƏR GÖZLƏRİN QARASI, AĞLAMA

Corabın nişan- nişan,
Halın niyə pərişan?
Qardaşın adaxlısı
Çox bilən, az danışan.

Nəqarət
Ağlama, ceyran balası, ağlama,
Gedər gözlərin qarası, ağlama.

Can mənim Fatma nənəm,
Qaş -gözün atma, nənəm.

Sevəni sevənə ver,
Günaha batma, nənəm.
Nəqarət

Köynək tikdim yaxasız,
Demədim ki, satasız
Fələyin boynu sınsın,
Qoydu məni atasız.
Nəqarət

Bağa girdim tas ilə,
Yar sevdim həvəs ilə,
İstəyinə gedənin,
Keçməz günü yas ilə.
Nəqarət

Çaya girdim daşı yox,
İlan gördüm başı yox.
Düşmüşəm qərib yerə
Yanımda qardaşım yox.
Nəqarət

BACILARIN AĞLAR, AY BACI, HARA GEDİRSƏN?

Qalanın dibində hil-mixək əkdim,
Əvsədim-əvsədim cibimə tökdüm,
Balaca baldızın üzündən öpdüm.

Nəqarət
Alçalı dağlar, ay bacı, hara gedirsən?
Bacıların ağlar, ay bacı, hara gedirsən?

Qalanın dibində bişirdim aşı,
Çağırdım allahı, tökdüm göz yaşı,
Allahdan istərəm bir cüt qardaşı.
Nəqarət

Qalanın dibində alaq edərəm,
Gedənə, gələnə soraq edərəm,
Balaca baldızı qonaq edərəm.
Nəqarət

ŞALI- ŞALI

Gedəndə ağlaram,
Şalı, şalı, şalı.
Gələndə gülləm,
Şalı, şalı, şalı.
Yar, sənin qədrini,
Şalı, şalı, şalı.
Mən indi billəm.
Şalı, şalı, şalı.
Üç gün də görməsəm,
Şalı, şalı, şalı.
Çərləyib ölləm.
Şalı, şalı, şalı.
Şalı, şalı, şalı, yel atdı şalı,
Niyə qoydun getdin, alagöz yarı.

Evlərinin yanı hündür məsciddir,
Oğlan, arxalığın nə güllü çitdi,
Məgər mən ölmüşəm, rəngin qaçıbdı?
Şalı, şalı, şalı, yel atdı şalı
Canı ölmüş qarı, qoy bizi barı.

Paraxod gələndə içi qənd olar,
Qayıdıb gedəndə işi fənd olar,
Qayda budu: oğlan qıza bənd olar.
Şalı, şalı, şalı, yel atdı şalı,
Canı ölmüş qarı, qoy bizi barı.
Şalı, şalı, şalı.
Şalı, şalı, şalı.

BACIM, GETMƏ, AŞ BİŞİRİM, SƏNİ QAYNINA TAPŞIRIM

Evlərində mən işlərəm,
Xənçərini gümüşlərəm,
Gah dincələr, gah dişlərəm.

Nəqarət
Bacım, getmə, aş bişirim.
Səni qaynına tapşırım.

Köynəyinin gülü yaşıl,
Süsən sünbülə dolaşır.
Gözəllik sənə yaraşır.
Nəqarət

GÜLLÜ YERDƏN SU GƏLİR

Ay evləri yanımızda,
Ay dərdi çox canımızda.
Ay dəsmal gətir, gül apar,
Qoy qalsın yanımızda.
Birlikdə:
Nəqarət
O güllü yerdən su gəlir,
Onu tutun yar-yar.
Bizdən sizə gəlin gəlir,
Əziz tutun yar heey...

Yolun çaylardan keçdi,
Əyildin, suyun içdin,
Belindən qızıl təkbənd,
Axar sulara düşdü.
Nəqarət

Salyandan gəmi gəldi,
İçində əmim gəldi
Gəl bir qol-boyun olaq,
Ayrılıq dəmi gəldi.
Nəqarət

AY ANA

Mən sənin qızın deyiləm, ay ana,
Torbada duzun deyiləm, ay ana,
Mən sənin balan deyiləm, ay ana,
Gedənəm, qalan deyiləm, ay ana.

Nəqarət
Uçdum, ana, yar-yar.
Südünü halal eylə,
Köçdüm, ana, yar-yar.

Dağları aşdım, ay ana.
Xəbərin olsun, ay ana.
Qərib yerə düşdüm, ay ana,
Nəzərin olsun, ay ana.
Nəqarət

Anam mənə sandıq alsın,
Cehizləri verib saysın,
Çatıbdır ayrılıq dəmi,
Balasıyam, yola salsın.
Nəqarət

BOYNUNU NƏ BURMUSAN, QIZIN ANASI

Elləri burda yoxdur, oğlan anası,
Köçübdür, burda yoxdur, qızın anası....
Canım necə can versin, qızın anası,
Can alan burda yoxdur, qızın anası.

Nəqarət
Qapıda nə durmusan, oğlan anası,
Boynunu nə burmusan, qızın anası.

Səbr elə, sana səbri,
Mərd gərək qana səbri.
Hər bir səbr tükənsə,
Tükənməz ana səbri.
Nəqarət
Arxalığı qola sal,
Sağdan götür, sola sal.
Mən ki getməli oldum,
İndi məni yola sal.
Nəqarət

QIZIN ANASI DALDAN BAXAR, AĞLAR

Açıq qoy pəncərəni,
Gözüm görsün gələni.
Gəlib oğlan adamı,
Yola salın gəlini.

Nəqarət
Oğlan anası güllü çarqat bağlar,
Qızın anası daldan baxar, ağlar.

Səhəngi suya göndərdim,
Sərin suya göndərdim.
Özüm gələ bilmədim.
Salam-dua göndərdim.
Nəqarət

Apardılar gəlini,
Bağladılar belini.
Başında ipək ləçək
Bəzədilər telini.
Nəqarət

Dağı, daşı qala yeri,
Gəz, dolan qala yeri,
Yüz candan yanan olsa,
Heç verməz ana yeri.
Nəqarət

YOL AÇIN, GƏLİN GƏLİR

Ay bu yol kolluğa gedir,
Ay yol açın, gəlin gəlir,
Ay ucu kolluğa gəlir,
Ay qurban olum qardaşa,
Ay toyu bolluğa gedir.

İstəkanın ağ olsun,
İçi dolu yağ olsun,
Özgəsini neynirsən?
Elin oğlu sağ olsun.

Ay yol açın, gəlin gəlir,
Ay şahi- dilbərim gəlir
Cehizi on beş tümən.
Bu elin qəşəng qızı
Alagöz gəlin gəlir.

Cibimdəki şanabad,
Keç yolları salamat.
Qədəmin əziz olsun,
Gedişin xoş əlamət.

AY TOY YİYƏSİ, TOYUN MÜBARƏK OLSUN!

Burdan getdim ellərinə,
Xına yaxdım tellərinə,
Mən qurbanam dillərinə.
Ay qız verən, evin abadan olsun!
Ay bəy, toyun mübarək olsun!

Burdan getdim Həmədana,
Əncir yedim dənə- dənə,
Sizi qoydum yana -yana,
Ay qız verən, evin abadan olsun!
Ay toy yiyəsi, toyun mübarək olsun!

Gəlin gedək, xanlar, bizə,
Düymələri düzə- düzə,
Mən gəlmirəm, sən gəl bizə.
Ay qız verən, evin abadan olsun!
Ay toy yiyəsi, toyun mübarək olsun!

QURTARDI İNTİZARDAN, AY LƏLƏ

İrəvanın ağca quşu,
Gedər yazı, gələr qışı,
Yaxşı olar yar görüşü.

Gəlin çıxdı hasardan, ay lələ,
Qurtardı intizardan, ay lələ.

Naxçıvanda xan qalmadı,
Şərəfdə soltan qalmadı,
Daha bizdə can qalmadı.

Gəlin çıxdı hasardan, ay lələ,
Qurtardı intizardan, ay lələ.

Naxçıvanın xanı üçün,
Şərəfə soltanı üçün,
İkimizin canı üçün.

Gəlin çıxdı hasardan, ay lələ
Qurtardı intizardan, ay lələ.

GƏLİNİN TƏRİFİ
BOYUNA HEYRAN, GƏLİN

Sözüm sözün qurbanı,
Yaxşı boyun qurbanı.
Sən yeri, bir mən baxım,
Olum boyun qurbanı.

Nəqarət
Balaca ceyran gəlin,
Boyuna heyran, gəlin.

Uçdum havada uçdum,
Qanadım sındı düşdü.
Ağır elin qızıyam
Qərib yerə mən düşdüm.
Nəqarət

Zər başmağım sürüşdü,
Cənnət bağına düşdü.
Əyildim götürməyə
Qardaş yadıma düşdü.
Nəqarət

BƏYİN TƏRİFİ

Qismətinmiş sənin güllər butası,
Sən olasan doqquz oğul atası,
Dursun, xələt versin bəyin atası.

Nəqarət
Görüm a bəy, toyun mübarək olsun,
Sağdışın, soldışın, elin var olsun!

Obaşdan gəlmişəm sənin toyuna,
Anan qurban olsun uca boyuna,
Bir də gələk yoldaşının toyuna.
Nəqarət

Bir əl çalın, xublar düşsün oyuna,
Mən qurbanam bəyin uzun boyuna,
Biz də gələk soldışının toyuna.
Nəqarət

Əyninə geymisən sürməli bəsti,
Qulaq as, əzizim, gör bu nə səsdi,
Gəlib xələt versin qoy bəyin dostu.
Nəqarət

Əlvandır əlində bəyin xınası,
Bu toyun ellərə düşüb sədası,
Bizə xələt versin bəyin anası.
Nəqarət

Sənինlə olaydım mən yol yoldaşı,
Ayağına dəyməsin yolların daşı,
Dursun, xələt versin bəyin qardaşı.
Nəqarət

Haca gedər hacıların hacısı,
Yaman olur şirin dilin acısı,
Dursun, xələt versin bəyin bacısı.
Nəqarət

Əlimdə çalıram sədəfli sazı,
Mən kimə eyləyim bu ərkinazı,
Bizə xələt versin göyçək bəy özü.
Nəqarət

Dəryada oynayar Nuhun gəmisi,
Asta çal balabançı, eşit bu səsi,
Bizə xələt versin bəyin əmisi.
Nəqarət

Xonçaya düzərəm qəndi, noğulu,
Allah, özün saxla belə oğulu,
Bizə xələt versin əmisi oğlu.
Nəqarət

Göldə üzür ördəklərin dəstəsi,
Səfalıdı bu yerlərin zəmisi,
Dursun, xələt versin bəyin bibisi.
Nəqarət

Qoyunlarda qoyunların alası,
Gözəl olar "bənevişin" balası,
Dursun, xələt versin bəyin xalası.
Nəqarət

Qızılgülü dəstə-dəstə tutası,
Həvəslənib yar-yarına atası,
Dursun, xələt versin bəyin dayısı.
Nəqarət

Mən dedikcə eşitginən bu sözü,
Burdan uzaq olsun bədnəzər gözü,
Bizə xələt versin xalası qızı.
Nəqarət

Əlinə alıbdı bir gül dəstəsi,
Baxdıqca hamının gəlir həvəsi,
Bizə xələt versin bəyin yeznəsi.
Nəqarət

Əlində tutubdur o qızılquşu,
Kəklik sövdasıyla anar dağ -daşı,
Dursun, xələt versin qohum- qardaşı.
Nəqarət

Camalı mat qoyub ayı, ulduzu,
Görüm halal olsun çörəyi, duzu,
Xələt versin bizə bəyin baldızı.
Nəqarət

Günəş boy göstərib, açılır səhər,
İgidlər meydanda göstərir hünər,
Xələtimi versin toya gələnlər.
Nəqarət

QAYNANA VƏ GƏLİN

Qaynana:
Evimə ozan gətirmişəm,
Pərgarı pozan gətirmişəm,
Gündüz olan işləri,
Gecələr yazan gətirmişəm.

Gəlin:
Dağda dirək qaynana,
Tövlədə kürək qaynana.

Oğlu evə gələndə,
Məndən zirək qaynana.

Qaynana:
Gül gülüstan üstünə,
Şeh düşdü bostan üstünə.
Gedin deyin o tülküyə,
Gəlməsin aslan üstünə.
Gəlin:
Qaynatam sərv ağacı,
Qapıda bitər, mən neyləyim.
Qaynım qızılgül yarpağı,
Xatirim tutar, mən neyləyim.

BİZ APARDIQ HURİ-PƏRİ, YAR-YAR

I Dəstə:
Ay istəkanın sarısı, yar-yar,
II Dəstə:
Ay içdim qaldı yarısı, yar heey....
III Dəstə
Ay arvadların əri var, yar-yar,
I Dəstə:
Ay qızların adaxlısı, yar heey....
Birlikdə:
Biz apardıq huri-pəri, yar-yar,
Sizə qaldı dərdi səri, yar heey....
Sabah, bir gün yaz gələr,
Ördək gedər, qaz gələr.
Torçular torun qurar,
Belə tərlan az gələr.
Əl çalmayanın əli qurusun,
Suya gedəndə beli qurusun.
Biz apardıq huri-pəri,
Sizə qaldı dərdi-səri.

Kəndlərindən qız almışıq.
Onlar verib tez almışıq.
Oğlanları əfəl çıxıb,
Qızlarını biz almışıq.

DAĞLAR ARASINDAN GƏLİR

Dağdan gəlin gələsən,
Duvağı yellədəsən.
Xanım-xatın olasan,
Bizim doğma elə sən.
Nəqarət
Hey, dağ arasından gəlir,
Dağlar arasından gəlir.

Ay bu dağlar aşaram mən,
Gülə bulaşaram mən,
Vəfalı yardan ötrü
Ərzi dolaşaram mən.
Nəqarət
Bu gələn bizə gələr,
Hündürdən düzə gələr.
Allah, sən özün saxla,
Cavandır, gözə gələr.
Nəqarət

PAMBIQDAN AĞDI QOLLARIN, AY GƏLİN!

Evlərinin yanı mənim olaydı,
Arxalığın büzmə darı olaydı,
Bu gələn gəmidə yarım olaydı.

Nəqarət
Su gəldi bürüdü yolları, ay gəlin,
Pambıqdan ağdı qolların, ay gəlin!
Sən gələndə sənə nələr demişdim,
Sən gələndə ürəyimi yemişdim,

Üç bacımı sənə qurban demişdim.
Nəqarət

Evlərinin yanı şamama, püstə,
Başmağı geyərəm dabanım üstə,
Mən yarı istərəm gözlərim üstdə,
Nəqarət

ÜZÜN AĞ OLSUN, AY GƏLİN

Ayranın üzlü olsun,
Duz tökün, duzlu olsun.
Gəlin qoşa qarısın
Oğullu- qızlı olsun.

Üzün ağ olsun, ay gəlin,
Yengən sağ olsun, ay gəlin.
Sənə süd verən ana
Sərəfraz olsun, ay gəlin.

Ələnsin ay ələklər,
Çirmənsin ağ biləklər.
Dostlara xəbər getsin
Hasil oldu diləklər.

TOY AXŞAMI

Bağça-bağa girmişəm,
Ətirli gül dərmişəm,
Qohum -qardaşım deyib,
Yarı mən bəyənmişəm.

Nəqarət
Ay aşıq, təriflə bizim gəlini,
Qaynına deyək bağlasın belini.

El- oba desin: Ay bəy, toyun mübarək!
Bəy sevindirsin obasını, elini.

Bu dərə, dərin dərə,
Suları sərin dərə.
Yardan cavab alınca,
Yalvarmışam min kərə.
Nəqarət

Yetişdi toy axşamı,
Durun yandırın şamı,
Gəlinə bəzək vurun,
Gəlir oğlan adamı.
Nəqarət

ƏYLƏN, GƏLİN

Ay gəlin, evlər ayrıdır,
Əylən gəlin, əylən gəlin.
Bizim elin adətini,
Öyrən gəlin, öyrən gəlin.

Ay bu gecə ay doğacaq,
Əylən gəlin, əylən gəlin.
Ay bacılar oynayacaq,
Öyrən gəlin, öyrən gəlin.

Ay ata evi dar olar,
Əylən gəlin, əylən gəlin.
Ay qaynanalar kar olar,
Öyrən gəlin, öyrən gəlin.

Ay qayğına qalmasalar,
Əylən gəlin, əylən gəlin.
Ay sənə baxan yar olar,
Öyrən gəlin, öyrən gəlin.

Ay gəlin var işsiz duran,
Əylən gəlin, əylən gəlin.
Ay gəlin var evlər quran,
Öyrən, gəlin, öyrən, gəlin.

AY GƏLİN

Əzizinəm, ay gəlin,
Ulduz gəlin, ay gəlin.
Ay gəlin, ay
Bizim eldə, obada
Varmı sənə tay, gəlin?
Tay gəlin, tay.

Nəqarət
Ay qəşəng ceyran,
Yar sənə heyran.
Danış, dilinə qurban, bala,
Qara telinə qurban.
Danış, sözünə qurban, bala,
Bir cüt gözünə qurban.

Almanı alma, gəlin,
Yanağı alma gəlin.
Ay gəlin, ay.
Evlərdə çox söz olar
Ürəyinə salma, gəlin!
Ay gəlin, ay.
Nəqarət

Anam-bacım qız gəlin,
Əl-ayağı düz gəlin,
Düz gəlin, düz.
Yeddi oğul istərəm,
Bircə dənə qız, gəlin,
Qız, gəlin, qız.
Nəqarət

SARI GƏLİN

Saçın ucun hörməzlər,
Gülü sulu dərməzlər,
Sarı gəlin.

Bu sevda nə sevdadır.
Səni mənə verməzlər;
Neynim, aman, aman,
Neynim, aman, aman,
Sarı gəlin.

Aşıq ellər ayrısı,
Xana tellər ayrısı, ayrısı,
Bir gününə dözməzdim,
Oldum illər ayrısı,
Neynim, aman, aman,
Neynim, aman, aman,
Sarı gəlin.

Bu dərənin uzunu,
Çoban, qaytar quzunu,
Nə ola bir gün görəm
Nazlı yarın üzünü;
Neynim, aman, aman,
Neynim, aman, aman,
Sarı gəlin.

APARMAĞA GƏLMİŞİK

Aparmağa gəlmişik,
Yar almağa gəlmişik.
Oğlanın adamıyıq,
Aparmağa gəlmişik.

Qızın bəxti ağ olsun,
Qohumları sağ olsun!
Qızın getdiyi yollar
Görüm çil-çıraq olsun!

II BÖLMƏ

TOY MÖVZUSUNDA BAYATILAR

Bu bayatılar nişan, xına gecəsi və toydan bir neçə gün öncə oğlan evində qız və gəlinlərin toplanaraq düzənlədikləri əylən-cədə söylənir, oyunları da oynanır

Gəz, dolan bağ arası,
Gəl, gözümün qarası.
Qaynanam məni sevmir,
Nədir bunun çarası?

Kabab yanar, köz olar,
Nəzər dəyər, göz olar.
Qohumdan qız alanda,
Aralıqda söz olar.

Qızılgüllər koldadır,
Əl çatmayan qoldadır.
Qız ürəyi döyünür,
Oğlan gözü yoldadır.

Şərbət versə içərəm,
Mən istidən bişmərəm.
Gör bir nə yad olmuşam,
Yar yadına düşmərəm.

Ağ almanı dişlədim,
Dişlədim, gümüşlədim.
Qardaş gəldi qıymadım,
Yar gəldi bağışladım.

Bağa girmişcən varam,
Gülün dərmişcən varam.
Yarı yuxuda görsəm,
Özün görmüşcən varam.

Bir kəsim yox, naçaram,
Hər qapıya açaram.
Atan- anan verməsə,
Allam, səni qaçaram.

Qızılgülə hasaram,
Yel vuranda əsərəm.
Desələr, yarın gəlir,
Quzu qurban kəsərəm.

Bulaqda buz olaydım,
Üstə yarpız olaydım.
Yar bulağa gələndə
Orda yalqız olaydım.

Qab- qacaq irəfdədir,
Hər biri bir tərəfdədir.
Hər gün gördüyüm yarı
Görmürəm bir həftədir.

Oğlan, gözün aladır,
Atam evi qaladır.
Eşqin məni yandırır,
Məhəbbət bir bəladır.

Güldən dəstə bağladı,
Verdi yara, saxladı.
Anamı peşman olsun,
Məni tez adaxladı.

Bağçalarda sarı gül,
Yarı qonça, yarı gül.
Nişanlın sabah gəlir,
Barı sevin, barı gül.

Çay aşağı getmərəm,
Çadramı yellətmərəm.
Qəhrəman oğlan gərək,
Dul kişiyə getmərəm.

Gülü tökdüm tabağa,
Qoydum qala sabaha.
Yar məni mehman eylər,
Xonça düzər tabağa.

Corabımın ağına,
Gül vurmuşam bağına,
Əgər məni sevərsən,
Gəl qonşunun bağına.

Dağlar başında lalə,
Əlində var piyalə.
Mən səninəm, ay oğlan,
Düşmə özgə xəyalə.

Gülü əkdim ləyəndə,
Gül başını əyərdə.
Qardaşa qurban ollam,
Qardaş bizə gələndə.

Körpü üstə gəzərəm,
Yarpaq kimi əsərəm.
Desələr, yarım gəlir,
Quzu qurban kəsərəm.

İstol üstə göy daraq,
Mən yarı gördüm bayaq.
Qaçdım, tuta bilmədim,
Qırılsın belə ayaq.

Çəltiyə basma ayaq,
Ləkləri birgə sayaq.
Belə gizli sevginin
Adını biz nə qoyaq?

Ocağın odu keçdi,
Söndürdüm, odu keçdi.
Ay qız, gözlərin aydın,
Nişanlın odu, keçdi.

Su gəlir məndən ötrü,
Axır çəməndən ötrü.
Mən hara, dağ-daş hara,
Gəzirəm səndən ötrü.

Tut ağacı boyunca,
Tut yemədim doyunca.
Yarı xəlvətdə gördüm,
Danışmadım doyunca.

Mis qazanın paxırı,
Oğlan qaytar naxırı.
Sən mənimsən, mən sənin,
Budur sözün axırı.

Həyətimiz qələmə,
Quzu kimi mələmə.
Məni sənə verməzlər,
Özün həlak eləmə.

Ağ oyman ağlı qalsın,
Boxçada bağlı qalsın.
Əziz nişanlın ölsün,
Ürəyin dağlı qalsın.

A fincanı, fincanı,
Niyə qırdın fincanı.
Əyil, üzündən öpüm,
Sən o nənənin canı.

Şamama ağacı ucadı,
Şamama yaman qocadı.
Oğlan, özün ucaltma,
Qız səndən də ucadı.

Şəklimi verim apar,
İtirmə, düşmən tapar.
Mənim bu açıq qəlbim
Axtarıb sizi tapar.

Almanın acısıyam,
Qızların yaxşısıyam.
Hər kəs mənə söz desə
Qardaşımın bacısıyam.

Volqanı qabaqladım,
Üstünü zənə bağladım.
Gəlin yerə düşəndə
Boynunu qucaqladım.

Yük üstündə cücü var,
Cücünün qırx qıçı var.
Qızın meyli olmasa,
Oğlanın nə gücü var.

Quda, gəlmişik sizə,
Hörmət ediniz bizə.
Bu gecə qız sizdədir,
Sabah aparrıq bizə.

Gəlinə bax, gəlinə,
Əlin qoyar belinə.
Gəlinə söz deməyin,
Çıxar gedər elinə.

Üzünü örtmə, Leyla.
Gözünü örtmə, Leyla.
Bu gözəl camalını
Bizdən gizlətmə, Leyla.

Xaraba hara nişanlım,
Kəkili qara nişanlım.
Ya gəl, ya kağız göndər,
Gedirəm ərə, nişanlım.

Biz bu kənddən qız almışıq,
Özləri verib, biz almışıq.
Oğlanları fərsiz çıxdı,
Qızlarını biz almışıq.

Ay köynəyi ağ oğlan,
Kənarda dur bax, oğlan.
Mən ki, səni sevirəm,
Get özünə bax, oğlan.

Məcməyi bizim olsun,
Dörd yanı qızıl olsun.
Biz alırıq birini,
Qalanı sizin olsun.

Çaşır özəksiz olmaz.
Özək bəzəksiz olmaz.
Yarı evə gələndə,
Gəlin bəzəksiz olmaz.

Bayatının axırı,
Şüşə saxlar çaxırı.
Ay xala, nə fikirdəsən
Qızın bizimdir, axırı.

Xoruz ban verəndə gəl,
Sinəm qan verəndə gəl.
Sağlığımda gəlmədin,
Barı can verəndə gəl.

Göydə ulduz aladı,
Arvad başa bəladı.
Boşamayım, neyləyim,
Tuman, kofta bahadı.

Balkon balkona baxır,
Altından bulaq axır.
Savadlıya can qurban,
Savadsıza kim baxır.

Kaş ki dərviş olaydım,
Qəzəl bilmiş olaydım.
İldə bir xəlvət yerdə
Mən sənə tuş olaydım.

Cibində dəsmalın sarı,
Lal olsun düşmanın bağrı.
Oğlan, dur gəl, sabah oldu,
Yandı bağrım, kabab oldu.

Dəyirman üstü çiçək,
Oraq gətir, gəl biçək.
Qardaşım bir qız sevib
Ucaboy, qara birçək.

Şəftəliyəm, kalam mən,
Dilim yoxdu, lalam mən.
Burdan bir qız sevmişəm,
Pulum yoxdu alam mən.

Didivarın ağacları,
Bar gətirib ucları.
Didivara qız verənin,
Sağ olsun qardaşları.

Dağdan gəlin gələsən,
Yaylığı yellədəsən.
Qardaşa qurban olum,
Qardaş üçün gələsən.

Süd üzü qaymaq gərək,
Qablara yaymaq gərək.
Qohuma qız verənin
Gözlərin oymaq gərək.

Bağa girdim nar üçün,
Narı dərdim yar üçün.
Analar qız böyüdüb
Cavan oğlanlar üçün.

Stol üstə tuqu var,
Tuqunun qırx ucu var.
Sevən sevənə getsə,
Kimin ona gücü var.

Çəpər, çəpər oldu, gəl,
Çəpərə quşlar qondu, gəl.
Vəd verib gedən oğlan,
Vədən tamam oldu, gəl.

Başında ağ şalı var,
Örtübdü, ağ şalı var.
Ana, bir yarıma bax
Gör kimə oxşarı var.

Fələyin bir bağı var,
Gümüşdən çardağı var.
Mən yar həsrətindəyəm,
Ürəkdə yar dağı var.

Bulaq başın bağlaram,
Dörd yanın yarpızlaram.
O gözəl oğlanın mən
Ürəyini dağlaram.

Karvan yola düzülür,
Ala gözlər süzülür.
Necə mən ağlamayım,
Əlim yardan üzülür.

Araz başdan lil gəlir,
Dəstə-dəstə gül gəlir.
Neylərəm belə yarı
Ayda, ildə bir gəlir.

Dağda bitən nə dəndir,
Nə darıdır, nə dəndir.
Dedin gözlə, gəlirəm,
Gəlməyirsən nədəndir?

Gedirəm, yolum dağdır,
Əcəb meyvəli bağdır.
Yar yolunu gözlərəm
Neçə ki, canım sağdır.

Göydə ulduz əllidi,
Əllisi də bəllidi.
Bizim bu təzə gəlin
Uca boyundan bəllidi.

Günortanın istisi,
Papirosun tüstüsü.
Gör məni kim istəyir,
Kəndimizin tülküsü.

Ay oğlan, şofer oğlan,
Benzinin çoxdu, oğlan.
Nişanlın yolda qalıb,
Xəbərin yoxdu, oğlan.

Maşın maşın üstədi,
Maşın təkər üstədi.
Mən istəyən oğlanın
Anası can üstədi.

Almaya bax, almaya,
Alma göydə qalmaya.
Allah qızı yaradıb
Oğlan subay qalmaya.

Qızıldan başmağım var,
Çətin yol aşmağım var.
Bir oğlanı sevmişəm,
Qoşulub qaşmağım var.

İstəkanım qanlıdır,
Əl vurma, dərmanlıdır.
Əslimi soruşsanız
Əslim Naxçıvanlıdır.

Kələğay qat-qat mənəm,
Kəlağay dörd qat mənəm.
Sevdiyimə getməsəm,
Bil ki, günahkar mənəm.

Su ilanı olaydım
Bankalara dolaydım.
Alçaq boylu oğlanın
Nişanlısı olaydım.

Qaranquş cığ- vığ eylər,
Qapını palçıq eylər,
Zəhləm gedər o yardan
Hər gecə acıq eylər.

Köynəyi yaşıl oğlan,
Geyin, yaraşır, oğlan.
Məhləmizdən keçəndə
Anam savaşır, oğlan.

Bacadan baxdım işıqdı,
Məcməyi dolu qaşıqdı.
Anan məni bəyənmir
Oğlu mənə aşıqdır.

Heyvalıqdan yolum var,
Anam qoymur gəlim, yar.
Demə ki, bivəfadır
Sənə qurban olum, yar.

Su gəlir bağa, neynim,
Dəyir budağa, neynim.
Yarım məndən küsübdür,
Gəlmir otağa, neynim.

Ağ alma allanıbdı,
Budaqdan sallanıbdı.
Cavan deyə verdilər
Saqqalı çallanıbdı.

Ağ at gəlir enişdən,
Sinəbəndi gümüşdən.
Sizə də qısmət olsun
Heybədəki yemişdən.

Gəncədən, ay Gəncədən,
Atın yesin yoncadan.
Sevgilin ola bilmədim,
Belin sınsın incədən.

Zənəxdanın xaldı, yar,
Dil -dodağın baldı, yar.
Dur gəl yanıma mənim
Dərdin məni aldı, yar.

Ay qız, adın Pəridi,
Duman dağı bürüdü.
Qürbət el, yar həsrəti,
Cavan ömrüm çürüdü.

Bu gedən haralıdır,
Dağların maralıdır.
Əyil, üzündən öpüm,
Ürəyim yaralıdır.

Oğlan, adın Əlidi,
Qolların düyməlidi.
Özün əcəb oğlansan,
Bacıların ölməlidi.

Qəbristanlıq gül açdı,
Ölülər durdu, qaçdı.
Gedin anama deyin,
Qızın qoşuldu qaçdı.

Fəndilə, ay fəndilə,
Maşın gəlir kənd ilə.
Qız evini aldatdıq
Yarım kilo qənd ilə.

Kostuyumun dəstinə,
Ətir səpim üstünə.
Neyləyim arvadın var,
Məni də al üstünə.

Haxışta hava bilmirəm,
Suyunu sava bilmirəm.
Mən bir hacı qızıyam,
Kasıba gedə bilmirəm.

Ləyəni, ay ləyəni,
Doldur qalsın ləyəni.
Elə xoşuma gəlir,
Oğlanın güləyəni.

Əmim oğlu, bəsdi gəl,
Kəmər beli kəsdi, gəl.
Qazandığın min manat,
O da mənə bəsdi, gəl.

Ağaca bax, ağaca,
Ağac atdım yamaca.
Qardaşım bir qız sevir,
Qaşı, gözü balaca.

O tayda duran oğlan,
Əlində Quran oğlan.
Quranın səni vursun,
Mənə göz vuran oğlan.

Ay oğlan, doxdur ,oğlan,
Dərmanın çoxdur, oğlan.
Adaxlın əldən gedir,
Xəbərin yoxdur, oğlan.

Üç manat verdim nəzir,
Məktubum yolda gəzir.
Özüm burda olsam da,
Ürəyim orda gəzir.

Məktub yazdım qaradan,
Dağlar qalxsın aradan.
Səni bizə gətirsin,
Yeri, göyü yaradan.

HAXIŞTALAR

Toydan bir neçə gün öncə gəlin və gənc qızlar bir araya gəlib bayatı, haxışta söyləyib oynarlar.

Araz qırağı çiçək, haxışta.
Oraq götür, gəl biçək, haxışta.
Qardaş, nişanlın gördüm, haxışta,
Üzündə yumru birçək, haxışta.

Ağ sənək ağzı burma, haxışta.
Doldurub dalda durma, haxışta.
Qardaş, nişanlın gördüm, haxışta,
Ağzında dili xurma, haxışta.

Ağ dəvənin dizləri, haxışta.
Yerə dəyir dizləri, haxışta.
Qaraların qızları, haxışta.
Kəbin kəsir özləri, haxışta.

Aşığam, ələmim var, haxışta.
Qızıldan qələmim var, haxışta.
Yaxın gələ bilmirəm, haxışta.
Uzaqdan salamım var, haxışta.

Alma atdım, nar gəldi, haxışta.
Kətan köynək dar gəldi, haxışta.
Qapıya kölgə düştü, haxışta.
Elə bildim, yar gəldi, haxışta.

Qapımızda qələmə, haxışta.
Quzu təki mələmə, haxışta.
Məni sənə verməzlər, haxışta,
Özün həlak eləmə, haxışta.

Qapımızda xot qalaq, haxışta.
Qızın birin biz alaq, haxışta.
Qardaşına demişik, haxışta,
Anasına yalvaraq, haxışta.

Qızılgül oyum-oyum, haxışta.
Dərim, qoynuma qoyum, haxışta.
Yağış yağar, yer doymaz, haxışta.
Mən səndən necə doyum, haxışta.

Qab- qacağım rəfdədır, haxışta,
Hərə bir tərəfdədir, haxışta.
Hər gün gördüyüm yarı, haxışta.
Görmürəm bir həftədır, haxışta.

Qara atın cilovu, haxışta.
Gözləri şah bulağı, haxışta.
Eşitdim yar evlənir, haxışta.
Qara gəlsin duvağı, haxışta.

Bulaq başı pıtıraq, haxışta.
Palaz salın oturaq, haxışta.
Birin sən de, birin mən, haxışta,
Bəlkə dərddən qurtulaq, haxışta.

Bağımızda göy xiyar, haxışta.
Boyun boyuma uyar, haxışta.
İkimiz bir cüt sona, haxışta.
Ayırmağa kim qıyar, haxışta.

Bulaq başı toz olar, haxışta.
Üstü dolu qız olar, haxışta.
Əyil dəsmalın götür, haxışta.
Mən götürsəm söz olar, haxışta.

Qara atın nalıyam, haxışta.
Üstdə ipək xalıyam, haxışta.
Çəkmə cəfamı, qardaş, haxışta.
Mən özgələr malıyam, haxışta.

Qardaş atın beş olsun, haxışta.
Əlin tərlan quş olsun, haxışta
Hər hayana gedəndə, haxışta.
İmam yoldaşın olsun, haxışta.

Qardaş, qardaş, üç qardaş, haxışta.
Xənçəli gümüş qardaş, haxışta.
Hər hayana gedəndə, haxışta.
Gəl yanıma düş, qardaş, haxışta.

Armud ağacı haça, haxışta.
Əlim dolaştı saça, haxışta.
Qardaşa qurban olum, haxışta.
O gəlir qaça -qaça, haxışta.

Araz üstə, buz üstə, haxışta.
Kabab yanar köz üstə, haxışta.
Oğlanı dərd öldürər, haxışta.
Bir ala göz qız üstə, haxışta.

Araxçının haşını, haxışta.
Hara qoyum başımı, haxışta.
Səni mənə verməzlər, haxışta.
Tökmə gözün yaşını, haxışta.

Bu dərə, uzun dərə, haxışta.
Getdikcə uzun dərə, haxışta.
Burda bir bağ salmışam, haxışta
Dost gələ, üzüm dərə, haxışta.

Dağları gəzdim, gəldim, haxışta.
Daşını düzdüm, gəldim, haxışta.
Yarı bivəfa gördüm, haxışta.
Əlimi üzdüm, gəldim, haxışta.

Dəyirman üstü dəstər, haxışta.
Bülbül balasın bəslər, haxışta.
Könülsüz gedən qızlar, haxışta.
Allahdan ölüm istər, haxışta.

Evləri tağ olaydı, haxışta.
Dört yanı bağ olaydı, haxışta.
Sevdiyim o oğlanın, haxışta.
Anası sağ olaydı, haxışta.

Evləri dağa gedir, haxışta.
Qar yağa- yağa gedir, haxışta.
Əlində güllü dəsmalı, haxışta.
Gül yığa -yığa gedir, haxışta.

Evimiz yol üstüdü, haxışta.
Ordan çıxan tüstüdü, haxışta.
Bir səhər gəl, bir axşam, haxışta.
Görən desin dostudu, haxışta.

Evləri Qazaxdadı, haxışta.
Qazax nə uzaqdadı, haxışta.
Mənə yarsız deməyin, haxışta.
Yarım var, uzaqdadı, haxışta.

Qara balıq sudadı, haxışta.
Yatmayib yuxudadı, haxışta.
Dədəmə kasıb deməyin, haxışta.
Urza verən xudadı, haxışta.

Qardaşın ağ atı var, haxışta.
Cibində manatı var, haxışta.
Qardaşa qurban olum, haxışta.
Hər yerdə hörməti var, haxışta.

Qızıl iynənin sapı, haxışta.
Görünür bizim qapı, haxışta.
Yarı yardan eyləyən, haxışta.
Dolansın qapı- qapı, haxışta.

Qızıl üzük laxladı, haxışta.
Verdim anam saxladı, haxışta.
Əziz gün, əziz gecə, haxışta.
Yar məni qabaxladı, haxışta.

Qoyun gəlir meşədən, haxışta.
Südü verir şişədən, haxışta.
Bacı, bir yar sevmişəm, haxışta.
Bığları bənövşədən, haxışta.

Dam üstədi damımız, haxışta.
Qoşadı eyvanımız, haxışta.
Sən ordan çıx, mən burdan, haxışta.
Kor olsun düşmanımız, haxışta.

Əmim oğlu evinə, haxışta.
Şal yaraşır belinə, haxışta.
Əmisi qızı qurban, haxışta.
Qələm tutan əlinə, haxışta.

Əmim oğlu Yusufdu, haxışta.
Gün dağlara düşübdü, haxışta.
Verdiyin qızıl üzük, haxışta.
Barmağımdan düşübdü, haxışta.

Əmim oğlu Yaqubdu, haxışta.
Gün dağlara düşübdü, haxışta.
Verdiyin qızıl üzük, haxışta.
Barmağımı boğubdu, haxışta.

Əmim oğlu bir idi, haxışta.
Əl dəsmalı kir idi, haxışta.
Qazan asdım yumağa, haxışta.
Axar sular qurudu, haxışta.

Əmim oğlu neyləsin, haxışta.
Canına çor eyləsin, haxışta.
Var-dövlətini yığsın, haxışta.
Özünə toy eyləsin, haxışta.

İstəkanın noxudu, haxışta.
Evdə qonaq çoxudu, haxışta.
Qonaqların içində, haxışta.
Bircə yarım yoxudu, haxışta.

Təbriz üstə Marağa, haxışta.
Zülfün gəlmir darağa, haxışta.
Axtarıram yarımı, haxışta.
Düşüb soraq-sorağa, haxışta.

Sədərəyin yolunda, haxışta.
Gül açaydı kolunda, haxışta.
Qızıl saat olaydım, haxışta.
Mən yarımın qolunda, haxışta.

Köynəyi tikən olsun, haxışta.
Qəndini bükən olsun, haxışta.
Mən sənə göz dikmişdim, haxışta.
Sənə göz dikən ölsün, haxışta.

Köynəyi yaşıl oğlan, haxışta.
Gör nə yaraşır oğlan, haxışta.
Sevdiyin o gözələ, haxışta.
Hamı sataşır oğlan, haxışta.

Məktubu saldım yola, haxışta.
Gözlərim dola-dola, haxışta.
Dolma gözlərim, dolma, haxışta.
O gələn qardaş ola, haxışta.

O tayda yatan oğlan, haxışta.
Köynəyi kətan oğlan, haxışta.
Nişanlın apardılar, haxışta.
Bixəbər yatan oğlan, haxışta.

Pambığın alaları, haxışta.
İçinin kolaları, haxışta.
Yarı yardan edənin, haxışta.
Qırılsın balaları, haxışta.

Haxışta mənim olsun, haxışta.
Qofta, tumanım olsun, haxışta.
Geyim gedim Tiflisə, haxışta.
Tiflisdə toyum olsun, haxışta.

Haxıştanı əkərlər, haxışta.
İçinə gülab səpərlər, haxışta.
Yaxşı qızın kəbinin, haxışta.
Pis oğlana kəsərlər, haxışta.

Ağ oymanı ağartdım, haxışta.
Qollarını daraltdım, haxışta.
Özüm gözəl deyildim, haxışta.
Çoxlarını saraltdım, haxışta.

Ağ dəvə düzdə qaldı, haxışta.
Yükü Təbrizdə qaldı, haxışta.
Oğlanı dərd apardı, haxışta.
Dərmanı qızda qaldı, haxışta.

Məhləmizdə var söyüt, haxışta.
Verdilər mənə öyüt, haxışta.
Mənim yarım uşaqdır, haxışta.
Tanrı, onu tez böyüt, haxışta.

Həyətində mevgülü, haxışta.
Badam gülü, mevgülü, haxışta.
Əzəldən qonşu idik, haxışta.
İndi olduq sevgili, haxışta.

Oğlan adın Əlidi, haxışta.
İşlərin gülməlidi, haxışta.
Sənin sevdiyin qızın, haxışta.
Tumanı büzməlidi, haxışta.

Oğlan adın Vəlidi, haxışta.
Qonşular bilməlidi, haxışta.
Sevdiyini tanıdıq, haxışta.
Gözləri sürməlidi, haxışta.

Azım çox, çoxum azdı, haxışta.
Ox atdım, oxum azdı, haxışta.
Bu gözələ nə olub, haxışta.
Heç belə oxumazdı, haxışta.

Bu qızın adı Püstə, haxışta.
Dad gələr dadı üstə, haxışta.
Özü sənə razıdı, haxışta.
Dədəsindən get istə, haxışta.

Qəlyanın yana-yana, haxışta.
Tütün qoy yana-yana, haxışta.
Canıma od salmışam, haxışta.
Qalmışam yana-yana, haxışta.

Mən aşığam, yaz eylər, haxışta.
Payız eylər, yaz eylər, haxışta.
Gözəlin qaydasıdı, haxışta.
Sevdiyinə naz eylər, haxışta.

Samovarım qızıldı, haxışta.
Suyu yerə sızırdı, haxışta.
Bütün aləm bilir ki, haxışta.
Bir oğlan bir qızındı, haxışta.

Qələm qaşın qarası, haxışta.
Gəl, könlümün parası, haxışta.
Elə bir yar sevmişəm, haxışta.
Yerin, göyün bəlası, haxışta.

Bu gəlin saşdı gəlin, haxışta.
Divardan aşdı gəlin, haxışta.
Bu gəlinə nə gəldi, haxışta.
Evindən qaşdı gəlin, haxışta.

Arxalığın dizdən yar, haxışta.
Gəl qapıdan gizlən yar, haxışta.
Kimlər sənə nə dedi, haxışta.
Ayaq kəsdin bizdən, yar, haxışta.

Dəsmal atdım söyüdə, haxışta.
Söyüd onu böyüdə, haxışta.
Dəsmal, səni saxladım, haxışta.
Qara gözlü iyidə, haxışta.

Qonşunun qızı Telli, haxışta.
Uca boy, incə belli, haxışta.
Gedirsən yad qapıya, haxışta.
Gəl olma belə dilli, haxışta.

Getmə gecədi, oğlan, haxışta.
Ülkər ucadı, oğlan, haxışta.
Deyirdin başın ağrır, haxışta.
İndi necədi, oğlan, haxışta.

Başında dümağ şal var, haxışta.
Üzündə qoşa xal var, haxışta.
Sənə mən neyləmişdim, haxışta.
Dərd verdin xalvar-xalvar, haxışta.

Ordubadın qızları, haxışta.
İşvələri, nazları, haxışta.
Özləri şirin dilli, haxışta.
Yamandı baldızları, haxışta.

Qara toyuq hindədi, haxışta.
Yumurtası kündədi, haxışta.
Qardaşımın yaylığı, haxışta.
Bir qızın cibindədi, haxışta.

Anda aman deyərlər, haxışta.
İncə daban deyərlər, haxışta.
Elə arıma gələr, haxışta.
Yara çoban deyərlər, haxışta.

Bu qızın adı Telli, haxışta.
Tamam fitnə feyilli, haxışta.
Yarın göz süzdürməsi, haxışta.
Olub mənə təsəlli, haxışta.

Dəyirmanın novuna, haxışta.
Su dolubdu novuna, haxışta.
Mənim böyük qardaşım, haxışta.
Çıxıb gözəl ovuna, haxışta.

Evləri Qazaxdadı, haxışta.
Soyuqda, sazaqdadı, haxışta.
Kim deyir ki, yoxumdu, haxışta,
Varımdı, uzaqdadı, haxışta.

Alma dilim- dilimdi, haxışta.
İşin sənin zulumdu, haxışta.
İstəyirsən yan-yaxıl, haxışta.
Qohumun sevgilimdi, haxışta.

Əzizim, üzüm səni, haxışta.
Boşqaba düzüm səni, haxışta.
Hər məclisdə, yığnaqda, haxışta.
Axtarar gözüm səni, haxışta.

Oğlan, oğlan, keç oğlan, haxışta.
İgid buruqsaç oğlan, haxışta.
Qonşu qızı göyçəkdir, haxışta.
Götür, onu qaç oğlan, haxışta.

Qaşın əyər amandı, haxışta.
Gözün əyər amandı, haxışta.
Qonşunun gözü pisdi, haxışta.
Sənə dəyər amandı, haxışta.

İstəkanın noxudu, haxışta.
İstəyənim çoxudu, haxışta.
Elə bir yar seçmişəm, haxışta.
Heç eləsi yoxudu, haxışta.

Samovarın səsindən, haxışta.
Öldüm yar həvəsindən, haxışta
Mən yarımı tanıram, haxışta.
Quruca bir səsindən, haxışta.

Qarpızı bıçaqladım, haxışta.
Dörd yanın saçaqladım, haxışta.
Yarım getdi, gəlmədi, haxışta.
Yastığı qucaqladım, haxışta.

Əlimdə ələmim var, haxışta.
Gümüşdən qələmim var, haxışta.
Yaxından görməsəm də, haxışta.
Uzaqdan salamım var, haxışta.

Arxalığın yamyaşıl, haxışta.
Baxan gözlər qamaşır, haxışta.
Sənin adın gələndə, haxışta.
Mənim dilim dolaşır, haxışta.

Qonşu qızı Fatmadı, haxışta.
Qaşı gülüm çatmadı, haxışta,
Düşmənə xəbər getsin, haxışta.
Yarım məni atmadı, haxışta.

Divana, ay divana, haxışta.
Umut qalıb gümana, haxışta.
Səni gördüm, görmədim, haxışta.
Oldum dəli, divana, haxışta.

Naxçıvanın sal duzu, haxışta.
Xörəyə az sal duzu, haxışta.
Əmi qızının kefidi, haxışta.
Ərə gedir baldızı, haxışta.

Al almanı at, oğlan, haxışta.
Armud gəti ,sat, oğlan, haxışta.
Qonşu qızı gözəldi, haxışta.
Al yanında yat, oğlan, haxışta.

Dərələr buz bağladı, haxışta.
Yanı yarpız bağladı, haxışta.
Nəştəri gəlin çəkdi, haxışta.
Yarama duz bağladı, haxışta.

Tumanın büzməlidi, haxışta.
Saçların düzməlidi, haxışta.
Sinən bir güllü bağdı, haxışta.
Yar əli gəzməlidi, haxışta.

Gözləri, ay gözləri, haxışta.
Şirin-şirin sözləri, haxışta.
Mənim əmimin oğlu, haxışta,
Dəli edib qızları, haxışta.

Oğlan, adın Cəmildi, haxışta.
Səninki şirin dildi, haxışta.
İki gündü getmisən, haxışta,
Elə bildim min ildi, haxışta.

Baxdı, baxdı, bu oğlan, haxışta.
Yandırıb, yaxdı bu oğlan, haxışta.
Elə gəlib keçdi ki, haxışta,
Güya şahdı bu oğlan, haxışta.

Məhləmiz, ay məhləmiz, haxışta.
Gözəllənib məhləmiz, haxışta.
Əzəl səni sevmişdik, haxışta,
İndi gedir zəhləmiz, haxışta.

Saçda daraq olaydım, haxışta.
Gözdən iraq olaydım, haxışta.
Yar səfərdən gələndə, haxışta,
Dönüb çıraq olaydım, haxışta.

Çarqatlar, ay çarqatlar, haxışta.
Yel vurub ucun qatlar, haxışta.
Kişi bivəfa olar, haxışta,
Vəfalıdı arvatlar, haxışta.

Maşın gəlir bərt gəlir, haxışta.
İçi dolu qənd gəlir, haxışta.
Mən şirin çay içəndə, haxışta,
Qaynanama dərd gəlir, haxışta.

Əzizim Xalxal qala, haxışta.
Yandı bağrım, ay xala, haxışta.
Məgər mən ölmüşəm ki, haxışta,
İgidim xalxa qala, haxışta.

Zaman o zamandı, haxışta.
İşim yaman umandı, haxışta.
Elə bir baldızım var, haxışta.
İlandan da yamandı, haxışta,

Mən bu çaydan keçmənəm, haxışta.
Suyundan da içmənəm, haxışta.
Gözünə kim görsənib, haxışta.
Bir yadına düşmənəm, haxışta.

Ay qız, adın Leylidi, haxışta.
Atan bizim ellidi, haxışta.
Hamı səndən razıdı, haxışta.
Qaynanan gileylidi, haxışta.

Bu maşın hara gedir, haxışta.
Tüstüsü qara gedir, haxışta.
Bir xonça bəzəmişəm, haxışta.
Başlarda yara gedir, haxışta.

Ay qız, adın Mələkdi, haxışta.
Yazı yazan mələkdi, haxışta.
Özün belə gözəlsən, haxışta,
Yarın tamam kələkdi, haxışta.

Saçda daraq olaydım, haxışta.
Yoldan iraq olaydım, haxışta.
Yar pərvanə olanda, haxışta,
Mən də çıraq olaydım, haxışta.

Əzizinəm, hər aylar, haxışta.
Həm deyə, həm sayalar, haxışta.
Ordubadın qızları, haxışta.
Ürək istər oyalar, haxışta.

Yeri, yeri, yaxın yar, haxışta.
Sən yeri, mən baxım, yar, haxışta.
Ayaqların incisə, haxışta.
Dur gəl, həna yaxım, yar, haxışta.

Bu kəndin adı Dəstə, haxışta.
İstərəm yadı dəstə, haxışta.
Bir gözələ vuruldum, haxışta.
Göz ala, boyu bəstə, haxışta.

Bu dərənin söyüdü, haxışta.
Mən gələndə göyüdü, haxışta.
Oğlanda günah yoxdu, haxışta.
Qıza verin öyüdü, haxışta.

Yumurtanın sarısı, haxışta.
Kəndin qızı, qarısı, haxışta.
Sən bir gül ol, çiçək ol, haxışta.
Mən üstünün arısı, haxışta.

Getdim aya baxmağa, haxışta.
Qapıya açar taxmağa, haxışta.
Qonşu qızı öyrənib, haxışta.
Yandırmağa, yaxmağa, haxışta.

Əmim oğlu bizdən, yar, haxışta.
Get qapıda gizdən, yar, haxışta.
Sənə kim nə dedi ki, haxışta,
Ayaq kəsdin bizdən, yar, haxışta.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Toy və halay mahnıları. Toplayanı Beytulla Şahsoylu, Bakı: Gənclik, 1980
2. Azərbaycan xalq mahnı və təsnifləri. Bakı, 1984
3. Nəğmələr, inanclar, alqışlar. (Tərtib edən Azad Nəbiyev) Bakı, 1986
4. Azerbaycan Halk edebiyatında Nahçıvan manileri (hazırlayan Ebülfez Amanoğlu). Ankara, 2004
5. Mərasimlər, adətlər, alqışlar. Bakı, 1983
6. Azərbaycan folklor antologiyası- Naxçıvan folkloru I. Naxçıvan, 2010
7. Azerbaycan Düğün Türküleri (Hazırlayan Ebülfez Amanoğlu). Ankara, 2008

KİTABIN İÇİNDƏKİLƏR

Tərtibçidən.....3
Gül bağçadan gələn səs.....5
Kitabın Türkiyə nəşrinə ön söz 12
Azərbaycan mərasim nəğmələri haqqında ümumi məlumat.....14
Nişantaxdı nəğmələri..... 17

I BÖLMƏ

Toy öncəsi eşq, həsrət, qızbəyənmə nəğmələri.....23

Qayna, samovarım, qayna.....24
Ana ilə qız.....24
Yara qurban.....24
Bu qızı mən sevmişdim.....25
Gül dolandırım.....25
Səmədin qızı.....26
Çoxdan gedibdi.....27
Bəy duran oğlan.....27
Nar, nar, nargilə.....28
Yarım gələnə..... 28
Deyişmələr.....29
Ay qız, dur gəl.....30
Urmu qızı.....30
Qız seçilməsi.....32
Dad əlindən, yar əlindən.....32
Saraldı yarpaqları.....33
Həsiri basma, dolan gəl.....33
Al qırmızı nimtənə.....34
A qızlar, gözəl sizdədir.....34
Canı cane, hey cane.....35
Yaşıl yarpaq qızılgül.....36
Ha leyli, leyli, leyli.....36
Ha yordu, yordu, yordu.....37
Kəmər kəsdi belimi.....37
Dur, eyvanı gəz, xanım.....38
Sənə qurban olum, yar.....39
Yar ləli, yar düymələri mərcan.....40
Halayı döndər bəri.....41
Mələk, mələk, mələk hay.....41

Gözəl mələk, söylə kimin yarısan.....42
Araz gəlir, lil gəlir.....43
Ağacda alma al olur.....43
Ana-qız.....45
Qız və oğlan.....45
Gəlmədin.....46
Sonalar.:.....47
Ay lolo.....48
Üç gül.....49
Keçmə məndən 50
Gəl bizə, yar 50
Qadan alım.....51
Üç gündən bir, beş gündən bir 52
Üç telli durna.....53
Qara tellər.....53
Qubanın ağ alması.....54
Alma almaya bənzər.....55
Almanı atdım xarala.....56
Gül açdı.....56
Gəl - gəl.....57
Ay qız, kimin qızısan?.....58
Ay qız, sənə mailəm.....59
Sən gəl.....60
Qara xal yar.....60
Sudan gələn sürməli qız.....61
Bəxtəvər.....62
Bağçada güllər.....62
Bağçadan gələn.....63
Ay bülbüllər.....64
Dağlardan aşdım 64
Ay bəri bax.....65
Yar bizə qonaq gələcək.....66
Olmaz.....66
Bülbüllər oxur.....67
Xumar oldum.....68
Süsən sünbül.....69
Oyna, gülüm.....69
Ay qaşı - gözü qara qız 70
Ay Gülabətin.....71

Bulaqdadır 71
Mübarək, ay mübarək.....72
Ay dili -dili.....74
Pəri.....75
Bu yana döndər məni.....75
Küçələrə su səpmişəm.....76
Noleydi.....77
Ləbuləb.....77
Qaragilə.....79
Əmim oğlu.....80
Qara qaşın vəsməsi.....80
Ay üzündə xalın.....81
Muleyli.....82
Ağlama, ceyran balası, ağlama.....83
Yaylığı.....83
Aman, ovçu.....84
Ağacda leylək.....85
Kəklik.....86
Neylərsən.....87
Qızılgülün dəstəsiyəm, yar-yar.....89
Nişan. Şirni. Xonça. Nişantaxdı nəğmələri
Qardaş, şirnin mübarək 90
Al alma, qızıl alma.....90
Samovarı qaynadan yar.....91
Şalı şala bağlar gedər.....92
Ay qız, nişannın gələr.....92
Tər bənövşə dərməyə gəlmişəm.....93
Adaxlı oxşamaları
Adaxlının adını de!.....94
Yar-Yar.....94
Gəldi oğlan adamı.....95
Belə balanı.....96
Adaxlın gəlsin, aşiq olsun sənə.....97
Alın mübarək olsun.....98
Ay üzü xallı ceyran.....99
Yarpaqları.....99
Adaxlın hanı?.....102
Hey, Laləzar, hey.....103
Yadlar öyrətdi səni.....104

Ulduz, aman.....104
Zərnişanım.....105
Maşallah.....106
Bir dənəsən, bir dənə!.....107
Durun gedək yargilə.....110
Qardaşımın toy qoyunu.....111
Xınayaxdı nəğmələri
Bu evin qonaq qızı, hörmət edərik sənə.....112
Ertədən yola salın yolu uzaqdır.....112
Əllərə xına yaxarlar.....113
Xınanı yaxın dəstinə- dəstinə.....114
Gəlin aparma nəğmələri
Yaxşı bəzək vurun bizim gəlinə.....115
Ay gedirsən, məni apar.....116
Yalvarıb, aldadıb bağa salmısan.....117
Hey, yara xoş gəldin deyin.....117
Xoş gəldin, xanım, xoş gəldin.....118
Qayınları çıxsın qoşa.....119
Ləbləri qaymaq gəlinin.....120
Ay boyu bəstə gəlinin.....120
Bu toy kimin toyudur.....121
Bacım, toyun mübarək olsun.....121
Toyun mübarək olsun.....122
Hey gülüm maşallah.....123
Mübarək olsun gəlinin qədəmi.....123
Gəlin, taxtın mübarək.....124
Oğlanı hamama göndərin.....125
Ay bacı, oğlan gəlir.....126
Qorxuram, yolda qala dəllək oğlan.....127
Al almağa gəlmişəm.....127
Tunqay Mələk.....128
Ay bu yolun iki qatı.....128
Qaynı bağlar belini.....129
Xırda mirvaridən düzün telinə, telinə.....129
Almanı alma, gəlin.....130
Oturun qızlar, oturun eee.....131
Gör nə aladır gəlinin gözləri.....131
Alça gül açdı, gəlin.....132
Mirzəm xan otağında.....132

Gəlini hamama göndərin.....133
Uçar, gedər yar hey hey.....133
Nalça verərlər gəlinə.....134
Bacım gedir, cilovdarı kim olsun 135
Elindən ayrılıb çox zaman ağlar.....135
İndi gedər qonaqların, ay bacı.....136
Mən gedərgi bir qonağam, gəl indi.....137
Gedər gözlərin qarası, ağlama.....137
Bacıların ağlar, ay bacı, hara gedirsən?.....138
Şalı-şalı.....139
Bacım, getmə aş bişirim, səni qaynına tapşırım.....140
Güllü yerdən su gəlir.....140
Ay ana.....141
Boynunu nə burmusan, qızın anası.....142
Qızın anası daldan baxar, ağlar.....142
Yol açın, gəlin gəlir.....143
Ay toy yiyəsi, toyun mübarək olsun!.....144
Qurtardı intizardan, ay Lələ.....144
Gəlinin tərifi. Boyuna heyran, gəlin.....145
Bəyin tərifi.....146
Qaynana və gəlin.....148
Biz apardıq huri-pəri, yar-yar.....149
Dağlar arasından gəlir.....150
Pambıqdan ağdı qolların, ay gəlin! 150
Üzün ağ olsun, ay gəlin.....151
Toy axşamı.....151
Əylən, gəlin.....152
Ay gəlin.....153
Sarı gəlin..... 154
Aparmağa gəlmişik..... 154

II BÖLMƏ

Toy mövzusunda bayatılar.....156
Haxıştalar 170
İstifadə olunmuş ədəbiyyat.....186

Şənlik-mərasim nəğmələri

Yığılmağa verilmiş 19.03.2010.
Çapa imzalanmış 05.04.2010.
Formatı 70X100 1/16 "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 12,0 ç.v.
Sifariş № 283. Tiraj 500 nüxsə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.